Xalqın qəzeti!

# Xalq qəzeti

№ 247 (30941) 21 noyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Yeni Azərbaycan Partiyası müstəqil dövlət quruculuğunun öncül qüvvəsidir



## Azərbaycan Prezidenti İlham Əliyev:

**Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə – 21 noyabr 1992-ci ildə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb. Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransı tarixi hadisə idi. Ulu öndərin sədrliyi ilə keçirilmiş bu konfransdan sonra ölkəmizdə yeni siyasi qüvvə yaranmışdır.**

**Yeni Azərbaycan Partiyası ötən illər ərzində böyük və şərəfli yol keçib. İllər keçdikcə və dünya dəyişdikcə, hər birimiz çox gözəl bilirik ki, əgər o vaxt Azərbaycan xalqı Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etməsəydi, ölkəmiz daha böyük fəlakətlə üzləşə bilərdi.**



## Prezident İlham Əliyev Ağdamın işğaldan azad olunmasının ildönümü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdamın işğaldan azad olunmasının 5-ci ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.**

**Paylaşımda "Zəfər Tariximiz: 20 Noyabr 2020-ci il Ağdam" sözləri yer alıb.**

## Avropada seçkilər legitimliyini niyə itirir?

*Sosial media və texnoloji platformalar müdaxilə üçün yeni imkanlar yaradır*




**Avropa İttifaqı (Aİ) uzun illərdir ki, özünü "siyasi sabitlik adası" kimi təqdim etməyə çalışır. Bununla belə, rəqəmsal əsrin yaratdığı yeni təhlükələr, xüsusilə informasiya manipulyasiyası və xarici müdaxilə cəhdləri qitənin demokratik institutlarına qarşı təzyiq formalaşdırır. Yəni Avropada baş tutan seçkilər əvvəllər, sadəcə, daxili siyasi məsələ kimi qiymətləndirilirdisə, indi regional və qlobal geosiyasətin kəsişmə nöqtəsi hesab olunur.**

Bu günlərdə Fransa, Almaniya və Aİ üzvü olan daha 10 ölkə Avropa Komissiyasını seçkiləri xarici müdaxilələrdən qorumaq üçün Rəqəmsal Xidmətlər Aktı (DSA) çərçivəsində ona verilmiş səlahiyyətlərdən istifadə etməyə çağırıb.

Bu barədə 12 ölkənin imzaladığı məktubda bildirilir. Məktub, əslində, "qoca qitə"nin öz suverenliyini qorumaq üçün yeni müdafiə arxitekturasına ehtiyac duyduğunun etirafıdır. Rəqəmsal Xidmətlər Aktı (DSA) bu arxitekturanın hüquqi çərçivəsini təşkil etsə də, qanunvericilik təkbaşına kifayət etmir. Başqa sözlə desək, siyasi iradə və institusional mexanizmlər olmadan müdaxilə riskləri getdikcə artır.

*(ardı 6-cı səhifədə)*




## "Müsyö"nün əyri hay güzgüsü

*İrəvan reallıqla barışıb, Parisdəkilər isə yerlərində dinc oturmurlar*

Dağlıq Qarabağ adlı münaqişə yoxdur. Azərbaycanın Qarabağ iqtisadi rayonu var. İki il iki ay bundan əvvəl bu bölgədə yaşayan erməniləri heç kim qovmayıb, öz istəkləri ilə Azərbaycandan Ermənistana köçüblər. Bu prosesi BMT-nin iki faktaraşdırıcı missiyası kimi, bütün dünyanın izləmək şansı oldu.

*(ardı 5-ci səhifədə)*

## İdeyalar müstəvisində strateji dərinlik

*ABŞ–Azərbaycan tərəfdaşlığı yeni intellektual mərhələyə qədəm qoyur*



Müasir qlobal nizamda əsl qüdrət strateji narrativ formalaşdırmaq, hadisələrin intellektual təfsirini vermək, qlobal analitik mərkəzlərin dilində danışmaq və milli maraqları beynəlxalq ideyalar müstəvisində müdafiə etmək bacarığında təzahür edir. Hadisələri bütün dünyaya anlada bilmək müasir diplomatiyanın ali sənətidir. Məhz bu proseslər fonunda son dövrlər Azərbaycan ilə ABŞ arasında intellektual dialoqun, xüsusən beyin mərkəzləri səviyyəsində əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ikitərəfli münasibətlərin ənənəvi çərçivələri aşan strateji dərinliyə çatdığının göstəricisidir.

*(ardı 7-ci səhifədə)*

## "Salam" sülhün ilk cümləsidir



Səhifə ⇨ 5

## Brüssel Tbilisi ilə dialoqdan qaçdı



Səhifə ⇨ 6

## Çin şirkəti Transxəzər Nəqliyyat Marşrutuna qoşuldu



Səhifə ⇨ 8

## Ararat Mirzoyan Hakan Fidana cavabında nə deyir?

*Ermənistan rəhbərliyi unutmasın ki...*



**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan türkiyəli həmkarı Hakan Fidanın İrəvanla münasibətlərin normallaşması baxımından səsləndirdiyi fikirlərə, o cümlədən Türkiyə XİN rəhbərinin Azərbaycan amilini qabartmasına münasibət bildirib. Yazımızda bu barədə söz açacaq, ən əsası isə erməni XİN rəhbərinin yanaşmasındakı nöqsanı vurğulayacağıq. Hələlik isə...**

*(ardı 7-ci səhifədə)*

## Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

**1.** 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996–2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 noyabr 2025-ci il**

## Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 fevral tarixli 504 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuş doqquzmərtəbəli binaların şəhərlər üzrə bölgüsünə dair siyahı"da dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 fevral tarixli 504 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 179) ilə təsdiq edilmiş "Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuş doqquzmərtəbəli binaların şəhərlər üzrə bölgüsünə dair siyahı"nın "Quraşdırılacaq liftlərin sayı" sütununda "200" rəqəmləri "207" rəqəmləri ilə və "141" rəqəmləri "148" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 noyabr 2025-ci il**

# Büdcə müzakirələri davam edir

### *Deputatlar layihə ilə bağlı rəy və təkliflərini bildirdilər*



**Dünən Milli Məclisin gələn ilin dövlət büdcəsinə həsr olunmuş növbəti plenar iclası keçirildi. İlk gündə olduğu kimi, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfi ətrafında müzakirələr aparıldı, deputatlar məsələ ilə bağlı çıxışlar etdilər.**

Deputat Razi Nurullayev büdcə layihəsində bir sıra fundamental sualların yarandığını bildirdi. Parlamentarinin fikrincə, gəlirlərin mühüm hissəsi hələ də neft-qaz sektorundan asılı vəziyyətdədir: "Əsas fokusu qeyri-neft sektorunun inkişafına yönəltməliyik. Bu sahədə, zənnimcə, daha çox təşəbbüs edirik, danışırıq, real nəticə isə zəifdir. Çünki qeyri-neft sektorunun artımı əsasən neft və qaz layihələrinə bağlı sahələrin inkişafından qaynaqlanır və bunu real artım kimi görmək nə dərəcədə düzgündür?"

R.Nurullayev həmçinin qeyd etdi ki, büdcə layihəsində sosial paketdə artımlar olsa da, bu, insanların minimal yaşayış tələbləri və real inflyasiya fonunda əhəmiyyətini itirir. Milli Məclisin deputatı qiymətlərin sürətlə artdığını, sosial həssas qrupların daha çox çətinliklə üzləşdiyini bildirdi, həmçinin dedi ki, əməkhaqqı və pensiya artımları var, real bazarda isə bu artımın təsiri hiss olunmur.

Deputat başqa bir problemin büdcə layihəsinin daha çox paytaxtı əhatə etməsinin olduğunu dedi: "Büdcə bölgüsü yenə də mərkəzyönümlüdür. Regionlarda demoqrafik boşalma, işsizlik davam edir. Regionlara ayrılan vəsaitlər struktural dəyişikliklərə deyil, daha çox görünüşü gözəl layihələrə yönəlir. Bu isə strateji yanaşma deyil. Regionlar iqtisadiyyatın sütunudur və onların inkişafı olmadan qeyri-neft sektorunun artımından danışmaq mümkün deyil. Regionlar iqtisadi sərbəstlik və iqtisadi idarəçilik məsələsində mərkəzdən asılı duruma salınmamalıdır. Nə qədər ki, bu belə olacaq, regionlar istədiyimiz kimi inkişaf etməyəcək".

Plenar iclasda çıxış edən Milli Məclisin deputatı Vasif Qafarov da bölgələrə daha çox diqqətin ayrılmasının vacib olduğunu qeyd etdi. Deputat bölgələrdə yeni iş yerlərinin yaradılmasını, bunun üçün özünəməşğulluq proqramlarının genişləndirilməsinin, eyni zamanda, sahibkarlığın, xüsusilə, kiçik və orta sahibkarların dəstəklənməsinin məqsədəuyğun olduğunu bildirdi: "Kiçik və orta sahibkarlığı inkişaf etdirməklə biz bölgələrdə işsizliyi və bununla da miqrasiyanı aradan qaldıra bilərik. Sahibkarların fəaliyyətinə qanunsuz müdaxilələrə son qoyulmalıdır. Bölgələrdə hansısa işə başlamaq üçün mərkəzi icra hakimiyyəti orqanlarından icazələrin alınması kimi bürokratik asılılıqlar aradan qaldırılmalıdır".

Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, deputat Hicran Hüseynova bildirdi ki, üç və daha çox uşaqlı ailələrə sosial dəstək proqramlarının həyata keçirilməsi vacibdir: "Bu gün Ümumdünya Uşaq Hüquqları Günüdür. Uşaq yalnız ailənin deyil, eyni zamanda, mənsub olduğu xalqın, dövlətin ən böyük və qiymətli sərvətidir. Ona görə də büdcəyə uşaqlarla bağlı təkliflərimi bir daha səsləndirmək istəyirəm. Məktəbəqədər təhsil müəssisələrinin sayının artırılması, uşaq bağçalarında və təhsil müəssisələrində tibbi və psixoloji xidmətin təşkili, beynəlxalq təcrübəni öyrənməklə üç və daha çox uşaqlı ailələrə sosial dəstək proqramlarının həyata keçirilməsinə ehtiyac var".

Həmçinin bir sıra deputatların çıxışından sonra Milli Məclis "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsini birinci oxunuşda qəbul etdi. 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38,6 milyard manat, xərcləri 41,7 milyard manat məbləğində nəzərdə tutulur. Gələn il icmal büdcənin gəlirləri 45 milyard manat, xərcləri 48,8 milyard manat, kəsiri isə 3,9 milyard manat proqnozlaşdırılır.

Milli Məclis 2026-cı ilin dövlət büdcəsi zərfinə daxil olan "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında" və "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələrini də ilk oxunuşda qəbul etdi. 2026-cı ildə Azərbaycanda yaşayış minimumu və ehtiyac meyarının 300 manat olması nəzərdə tutulur. Bu, 2025-ci illə müqayisədə 15 manat və yaxud 5,3 faiz çoxdur.

Sənədə əsasən, yaşayış minimumu əmək qabiliyyətli əhali üçün 317 manat, pensiyaçılar üçün 245 manat, uşaqlar üçün 260 manat müəyyən edilir. Müzakirələrdən sonra hər iki sənəd səsverməyə qoyularaq birinci oxunuşda qəbul olundu.

Plenar iclasda "Dövlət Sosial Müdafiə Fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihəsi də müzakirəyə çıxarılaraq birinci oxunuşda qəbul edildi. Dövlət Sosial Müdafiə Fondunun 2026-cı il üzrə xərcləri 8.483.070.000 manat olaraq müəyyənləşdirildi.

Büdcə zərfinə daxil olan "İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihəsini birinci oxunuşda qəbul edildi. Belə ki, 2026-cı ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İşsizlikdən Sığorta Fondunun (İSF) büdcə xərclərinin 266,4 milyon manat (2025-ci illə müqayisədə 2,2 faiz çox) olması proqnozlaşdırılır. Sənədə əsasən, xərclərin 238,3 milyon manatının İSF-nin gəlirlərinin (15,5 faiz çox), 28,1 milyon manatının isə Fondun cari ilin sonuna istifadə olunmamış qalığının (48,25 faiz az) hesabına qarşılanması nəzərdə tutulur. Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq ilk oxunuşda qəbul olundu. Bununla da Milli Məclisdə büdcə müzakirələrinin ikinci günü yekunlaşdı.

***Tacir SADIQOV***
***XQ***



**Deputat Azər Allahverənov** XQ-yə açıqlamasında bildirdi ki, Sosial Müdafiə Fondunun gələn il üçün xərclərinin 8,48 milyard manat səviyyəsində müəyyən edilməsi sosial siyasətin ardıcıl və məqsədyönlü icrasının nümunəsidir:

– Bu rəqəm dövlətin əhali qarşısında sosial öhdəlikləri uğurla yerinə yetirmək üçün kifayət qədər geniş imkanlara malik olduğunu göstərir: "2025-ci illə müqayisədə Fondun xərclərinin artması son illər dövlətin əhalinin rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlər və sosial təminat mexanizmlərinin ehtiyac səbətinə uyğunlaşdırılması ilə bağlıdır. Bu isə sevindirici haldır. Dövlət Sosial Müdafiə Fondunun müəyyən etdiyi öhdəliklərdən yararlanan bütün kateqoriyalar üzrə rifahın yüksəldilməsi əsas fəaliyyət istiqaməti kimi müəyyən edilib.

Layihədə 159,97 milyon manatlıq ehtiyat vəsaitindən istifadə nəzərdə tutulur ki, bu da 2026-cı il üzrə maliyyə dayanıqlığının təmin olunmasına xidmət edir. Əgər sosial öhdəliklərin icrası zamanı xərclərin tam ödənilməməsi kimi vəziyyət yaranarsa, həmin fərq Ehtiyat Fondundan transferlər hesabına qarşılanacaq. Biz bunu əvvəlki illərdə də müşahidə etmişik. Dövlət büdcəsinin müzakirəsi zamanı Dövlət Sosial Müdafiə Fondunun fəaliyyəti hər zaman diqqət mərkəzində saxlanılır.

## Azərbaycan–İsrail enerji və ticarət əməkdaşlığı



**İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyətinin İsrailə işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın 4-cü iclası keçirilib.**

Komissiyanın həmsədri Mikayıl Cabbarov vurğulayıb ki, Azərbaycan İsraillə əməkdaşlığı strateji baxımdan mühüm hesab edir və əlaqələrin daha da genişləndirilməsində maraqlıdır.

Qeyd olunub ki, ölkələrimiz arasında səmərəli investisiya tərəfdaşlığı mövcuddur. Hazırda Azərbaycanda sənaye, kənd təsərrüfatı, tikinti, ticarət və xidmət sahələri üzrə 125 İsrail kapitallı kommersiya qurumu fəaliyyət göstərir. Kənd təsərrüfatı, qida, su və enerji texnologiyaları, dərman sənayesi, biotexnologiya və digər sahələrdə fəaliyyətin genişləndirilməsi üçün böyük potensial mövcuddur.

İsrailin Maliyyə Nazirliyində nazir, Birgə Komissiyanın həmsədri Zeev Elkin iki ölkə arasındakı əlaqələrin daha da gücləndirilməsi, yeni sahələrdə fəaliyyət imkanlarının araşdırılması baxımından tədbirin vacibliyini vurğulayıb.



Yekunda Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Dördüncü İclasının Protokolu imzalanıb.

***XQ***

## TDT-yə üzv dövlətlərin ədliyyə nazirlərinin 2-ci iclası



**Noyabrın 20-də Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin ədliyyə nazirləri Bakıda keçirilən toplantı çərçivəsində bir araya gəliblər.**

Azərbaycanın ədliyyə naziri Fərid Əhmədovun sədrliyi ilə keçirilən iclasda Türkiyənin ədliyyə naziri Yılmaz Tunç, Özbəkistanın ədliyyə naziri Əkbər Taşkulov, Qazaxıstanın ədliyyə naziri Yerlan Sarsembayev, Qırğız Respublikasının ədliyyə nazirinin müavini İsgəndər Sıdıqalıyev və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev iştirak ediblər.

Görüş çərçivəsində 2024-cü il sentyabrın 9-da imzalanmış Astana Bəyannaməsində nəzərdə tutulan istiqamətlər üzrə görülmüş işlərin icra vəziyyəti müzakirə olunub, üzv dövlətlər arasında hüquq və ədliyyə sahəsində əməkdaşlığın gücləndirilməsi və təcrübə mübadiləsinin inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Tədbirdə Astana Bəyannaməsinin müddəalarına uyğun olaraq, üzv dövlətlər tərəfindən hüquq və ədliyyə sahəsində rəqəmsal transformasiya və innovativ həllərin tətbiqi üzrə həyata keçirilən işlər və qabaqcıl təcrübələr təqdim olunub, hərtərəfli və funksional elektron ədliyyə sisteminin xidmət keyfiyyətini artırması, prosesləri sadələşdirməsi və istifadəçiyönümlü mühitin formalaşmasına töhfə verməsi qeyd edilib və qarşılıqlı maraq doğuran məsələlər nəzərdən keçirilib.

Görüş zamanı TDT-yə üzv dövlətlərin ədliyyə nazirlikləri arasında mülki işlər üzrə hüquqi yardım haqqında Azərbaycanın təşəbbüsü ilə çoxtərəfli Saziş layihəsinin hazırlanması istiqamətində Ekspert Qrupunun fəaliyyəti, eləcə də Məhkəmə Ekspertizasının Mərkəzləşmiş Şəbəkəsinin yaradılması üzrə fəaliyyətə başlamış İşçi Qrupunun gördüyü işlər diqqətə çatdırılıb. İştirakçılar TDT-yə üzv dövlətlərin Ədliyyə nazirliklərinin 3-cü iclasının 2026-cı ildə Türkiyədə keçirilməsi barədə razılığa gəliblər.

***XQ***

## Bakıda Latviyanın milli günü qeyd edilib

**Latviya Respublikasının elan olunmasının 107-ci ildönümü münasibətilə noyabrın 20-də Bakıda rəsmi qəbul təşkil edilib.**



Latviyanın Azərbaycandakı səfiri Edqars Skuya çıxışında Azərbaycan-Ermənistan sülh prosesində əldə olunan irəliləyişi yüksək qiymətləndirib, Cənubi Qafqazda sülhün iqtisadi inkişaf üçün önəmli olduğunu vurğulayıb və ölkəmizin regionda strateji rolunu qeyd edib.



Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, Azərbaycan və Latviya arasında münasibətlər qarşılıqlı hörmətə əsaslanır, indiyədək 47 sənəd imzalanıb, 6 sənəd layihəsi isə baxılma mərhələsindədir.

Mərasimdə dövlət və hökumət rəsmiləri, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.

***XQ***

## Azərbaycan XİN-in Baltik ölkəsinə təbriki



**Azərbaycan Xarici İşlər Nazirliyi diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə Litvanı təbrik edib.**

Bu barədə nazirliyin "X" sosial media hesabında paylaşım olunub.

"Bu gün Azərbaycan və Litva arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümüdür. Bu münasibətlə Litva Hökumətinə və xalqına ən səmimi təbriklərimizi çatdırırıq", - paylaşımda qeyd edilib.

***XQ***

***21 noyabr YAP-ın yarandığı gündür***

**Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransı tarixi hadisə idi. Ulu öndərin sədrliyi ilə keçirilmiş bu konfransdan sonra ölkəmizdə yeni siyasi qüvvə yaranmışdır. Yeni Azərbaycan Partiyası yarananda müxalifət partiyası kimi yaranmışdır və dövlətin ağır problemlərinin, yükünün bir hissəsini öz üzərinə götürmək böyük məsuliyyət tələb edən addım idi. Çünki o vaxt… ölkədə gedən proseslər çox narahatedici idi və Azərbaycanın görkəmli nümayəndələrinin məhz Heydər Əliyevə müraciət etməsi bu zərurətdən doğurdu.**

***Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin YAP-ın 30 illiyinə həsr edilmiş tədbirdəki çıxışından***

***Bakı, 21 noyabr 2022-ci il.***

**1996-cı ilin yazından sıralarında olduğum partiyamızın yaranmasının növbəti ildönümü, keçdiyi yol, məramnamə və nizamnaməsinin reallaşdırılması istiqamətində həyata keçirilən titanik fəaliyyət barədə çox yazılıb, çox danışılıb. Ona görə də bu qısa yazıda həmin məsələlər deyil, hörmətli oxucular üçün daha maraqlı ola biləcək iki məqam barədə fikir bildirməyimizi yaxşı olar.**




# Neft lampası işığında yaranmış partiya

Birinci, bu sətirləri yazmazdan əvvəl dünyanın tanınmış siyasi partiyalarının bir neçəsinin tarixçəsinə baxmaq istədim. Əlim çatan mənbələrdən öyrəndim ki, bütün partiyaların sənədlərində rəsmi olaraq qeyd edilir ki, bu təşkilat müvafiq məkanda siyasi hakimiyyətə gəlmək üçün yaradılıb. Yeni Azərbaycan Partiyası isə ölkədəki məhvedici ictimai-siyasi proseslərin, xüsusən, vətəndaş müharibəsinin qarşısının alınması, xalqın bəla və məhrumiyyətlərdən xilas edilməsi, ölkənin xaos, anarxiya, hərc-mərclik kimi məhrumiyyətlər girdabından çıxarılması, insanların sabaha inamının tamamilə ölməsinə imkan verilməməsi məqsədilə yaradılıb.

İkinci, istənilən partiya qarşıya qoyduğu vəzifəyə çatmaq, yəni siyasi hakimiyyətə gəlmək üçün onilliklər boyu mübarizə aparmalı olub. Yeni Azərbaycan Partiyası isə ilk (təsis) konfransından cəmi yarımil sonra ölkənin iqtidar partiyası statusuna nail oldu. Halbuki, partiya təsis ediləndə açıq şəkildə bəyan edilmişdi ki, YAP müxalifət partiyasıdır.

Yeri gəlmişkən, YAP dünyanın müxtəlif ölkələrindəki mütərəqqi məramlı siyasi partiyaların hamısı ilə, o cümlədən "dünyanın ən böyük siyasi partiyaları" sıralamasında birinci yeri tutan 104 yaşlı Çin Kommunist Partiyası ilə səmimi dostluq, əməkdaşlıq və tərəfdaşlıq edir. Xatırladaq ki, Çin Kommunist Partiyası 28 illik mübarizədən sonra – 1949-cu ildə inqilab yolu ilə hakimiyyətə gəlib və Çin Xalq Respublikası yaradılıb. Onu da əlavə edək ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin 30 il davam etmiş keçmiş Qarabağ münaqişəsi dövründə hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib. Elə Azərbaycan da rəsmi Pekinin əsas devizi olan "Vahid Çin" siyasətini dəstəkləyir.

Gündəlikdəki mövzuya dəxli olduğuna görə əlavə edək ki, Yeni Azərbaycan Partiyası Çin Kommunist Partiyası ilə geniş əlaqələrə malikdir. Partiyalar arasında səmərəli, qarşılıqlı faydalı və çoxşaxəli əlaqələr mövcuddur. Yüksəksəviyyəli əlaqələr fonunda hakim partiyalar tərəfindən qarşılıqlı səfərlərin təşkil olunması və təcrübə mübadilələrinin aparılması münasibətlərin gələcək inkişafı baxımından böyük önəm daşıyır.

Təqvimdəki günün mahiyyətinə – Yeni Azərbaycan Partiyasının yaranmasına gəlincə isə, xatırladaq ki, bu siyasi təşkilat məşhur "91-lər"in müraciəti əsasında 1992-ci il noyabrın 21-də Naxçıvanda Heydər Əliyevin sədrliyi və 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştirakı ilə keçirilən təsis konfransı ilə yaradılmışdır. Rəsmi mənbələrdə bildirilir ki, YAP Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında Azərbaycanda hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiyadır.

Bu siyasi qurum 1993-cü ildə partiyanın sədri Heydər Əliyevin Prezident seçilməsi, eləcə də, 1995-ci ildə keçirilən parlament seçkilərində qalib gəlməklə Azərbaycanda iqtidar partiyasına çevrildi. Partiyanın sədri 1992–2003-cü illərdə ulu öndər Heydər Əliyev olub. 2005-ci ildən sonra isə sədr Prezident İlham Əliyevdir. Mətbuatın ötən ilin ortalarında yaydığı məlumata görə, Yeni Azərbaycan Partiyasının 740 mindən çox üzvü var.

Dövlət başçımız, eyni zamanda, YAP-ın sədri İlham Əliyev 2022-ci il noyabrın 21-də partiyanın yaradılmasının 30 illiyinə həsr edilmiş tədbirdəki tarixi çıxışında demişdir ki, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən konfrans tarixi hadisə idi. Çünki o vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı: "Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdir, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdir. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkəmizin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında gördülər və məhz buna görə Ulu öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı".

Bəs həmin yeni səhifələrə geridə qalan 33 ildə nələr yazıldı? Bu sualın cavabı olaraq deyə bilərik ki, Azərbaycan xalqı təkcə məşhur "91-lər"in arzularının çin olmasına şahidlik etmədi. Xalq həm də ulu öndər Heydər Əliyevin 2003-cü il oktyabrın 1-də məhz bütün azərbaycanlılara ünvanladığı tarixi müraciətə layiqli cavab verərək, ölkəmizdə başlanmış tərəqqi və inkişaf tendensiyasını dəstəklədi, Heydər Əliyev siyasi kursuna sədaqət nümayiş etdirdi və bugünkü möhtəşəm, qüdrətli, səsi dünyanın hər yerində eşidilən Azərbaycan dövlətinin yaradılmasına nail oldu.

Ümummilli liderimiz yuxarıda xatırlatdığımız tarixi müraciətində demişdir: "Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram... Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bəs sonra nə oldu? Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Yəni İlham Əliyev Prezident seçildi. Dövlət başçımız 2003-cü ildə xalqa söz verdi ki, heç zaman Heydər Əliyev kursundan kənara çıxmayacaq, Ümummilli liderimizin yolundan dönməyəcək. Geridə qalan illərin hadisələri göstərir ki, belə də oldu, Ulu öndərin bütün tapşırıqları, bütün tövsiyələri ləyaqətlə yerinə yetirildi.

Ulu öndərin bütün tapşırıq və tövsiyələri deyəndə, təbii ki, xüsusilə qabardılmalı bir məqam da var. Həmin məqamı dövlət başçımız bu şəkildə xarakterizə edir: "Onların arasında yəqin ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu, bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Ona görə bütün işlərimizin mahiyyəti məhz bu idi – Qarabağı azad etmək, tarixi ədaləti bərpa etmək. Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz avantüraya heç vaxt gedə bilməzdik. Biz səhv addım, yaxud da ki, vaxtsız addım ata bilməzdik. Biz hər şeyi ölçüb-biçib öz gücümüzü, eyni zamanda, digər amilləri nəzərə alaraq ən düzgün vaxt seçməli idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız Ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi".

Həmişə üzün ağ, alnın açıq olsun, Azərbaycan! Həmişə sözün kəsərli, fəaliyyətin uğurlu, nüfuzun əbədi osun Yeni Azərbaycan Partiyası! Zəfərlərinin ardı gəlsin, cənab Ali Baş Komandan!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Zamanın çağırışlarının milli tribunası

**İctimai-siyasi və tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası ötən 33 ildə dövlət müstəqilliyimizin möhkəmləndirilməsində inkişafa, sabitliyə, tərəqqiyə xidmət edən milli məqsədlərin reallaşdırılmasında böyük xidmətlər göstərib. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası öz sıralarında cəmiyyətin bütün təbəqələrindən olan insanları birləşdirən avanqard siyasi qüvvədir.**

Dövlət müstəqilliyinin ilk illərində mövcud siyasi partiyalar ölkənin milli maraqlarını, təhlükəsizliyini qorumaq əvəzinə, hakimiyyət uğrunda mübarizə aparırdılar. Buna görə də ölkə daxilində hərc-mərclik, xaos, ciddi böhran yaranmışdı. Azərbaycanı düşdüyü bu bəladan, məhv olmaq təhlükəsindən xilas etmək üçün Azərbaycan xalqının görkəmli ziyalıları, tanınmış insanlar ümummilli lider Heydər Əliyevə müraciət etdilər.

Zəngin dövlətçilik təcrübəsinə malik olan, öz xalqına, dövlətinə dərindən bağlı olan Ulu öndər özü də belə partiyanın yaradılmasına ehtiyac olduğunu görürdü. Ona görə də, tanınmış 91 nəfər ziyalı 1992-ci il 16 oktyabr tarixində dünya miqyaslı siyasət və dövlət xadiminə müraciət etdi: "Sizdən xahiş edirik ki, yaranan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycanın bütün bölgələrindən bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq Lider Siz ola bilərsiniz. Yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar. Respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər. Son söz olaraq bildirilirdi ki, Azərbaycan Sizin sözünüzü gözləyir".

Ulu öndər Heydər Əliyev cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Yeni Azərbaycan Partiyasının yaradılmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqdakı nitqində Prezident Heydər Əliyev demişdir: "91-lər"in mənə müraciətindən əvvəl ondan bir xeyli vaxt Sirus Təbrizli böyük bir məqalə dərc etmişdir ki, biz Heydər Əliyevi Azərbaycana, Bakıya özümüz dəvət etməliyik. Mən o məqaləni də oxudum, onu çox hörmətlə qarşıladım, qəbul etdim. Ancaq o məqalə də mənim fikrimi dəyişmədi. Nəhayət, Azərbaycanda vəziyyətin get-gedə ağırlaşdığını, çətinləşdiyini görərkən və bu partiyanın yaranması ilə əlaqədar mənə müraciət edən ziyalıların, respublikanın tanınmış adamlarının – ölkəmiz, xalqımız, torpağımız üçün ürəyi həqiqətən yanan adamların iztirabını duyarkən, onların xalqımız, ölkəmiz üçün bir iş görmək arzusunu hiss edərkən mən tədricən belə bir partiyanın yaranmasına kömək etməyə razılığımı verdim. Sonra mənə "91-lər"in müraciəti gəldi və mənim müraciətə cavabım oldu".

Beləliklə, AXC-Müsavat cütlüyünün yaratdıqları təzyiqlərə baxmayaraq, 1992-ci il noyabrın 21-də Naxçıvanda 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası təsis olundu. Çoxlu sayda təzyiqlərə baxmayaraq, qısa müddətdə insanlar Yeni Azərbaycan Partiyasına üzv olmağa başladılar. Bu barədə Ulu öndər demişdir: "Bu partiyaya hər kəs öz könülü, vicdanı, qəlbi ilə gəlməlidir. Hamı bilsin ki, bu partiya saflıq, saf mənəviyyat üzərində qurulmuş bir partiyadır. Bu partiya Azərbaycanın tarixi köklərinə, milli–mənəvi dəyərlərinə söykənən, ümumbəşəri dəyərlərdən bəhrələnən ümumxalq partiyasıdır. Azərbaycanın bütün vətəndaşlarının partiyasıdır. Yeni Azərbaycan Partiyası daim yaşayacaq və Azərbaycan vətəndaşlarının istək və arzularını əks etdirən böyük bir təşkilat olacaqdır".

Müxalifət partiyası kimi yaranan Yeni Azərbaycan Partiyası iqtidara gəldikdən sonra digər siyasi partiyalara qanunlar əsasında fəaliyyət göstərməyə əlverişli şərait yaratdı. Ömrünü öz xalqına və dövlətinə xidmətə həsr edən ümummilli lider Heydər Əliyevin Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi partiyamıza olan inam və dəstəyi artırdı. Qısa müddətdə ümumxalq partiyasına çevrilərək müstəqil Azərbaycanın inkişafını təmin etdi.

Ulu öndər vaxtilə demişdir: "Azərbaycan dünyaya Günəş kimi doğacaq!". Həqiqətən, bu gün ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada bir Günəş kimi parlayır. Ümummilli lider Heydər Əliyevin siyasi kursunun uğurlu davamçısı, Prezident İlham Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir.

YAP lideri İlham Əliyev partiyanın VI qurultayında demişdir: "Yeni Azərbaycan Partiyası ölkəmizdə aparıcı siyasi qüvvədir. Partiyamızın ideyaları, siyasəti xalq tərəfindən dəstəklənir. Partiyamızın sıraları genişlənir və çox sevindirici hal ondan ibarətdir ki, gənclər partiyaya üz tuturlar: Gənclərin axını partiyamızın gələcək inkişafı üçün də əsas şərtlərdən biridir".

Prezident İlham Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası tamamilə yeni keyfiyyət mərhələsində inkişafını davam etdirir. Üzvlərinin əksəriyyəti gənclərdən ibarət olan Yeni Azərbaycan Partiyası nəinki Cənubi Qafqazın, eləcə də yaxın coğrafiyanın ən güclü, mütəşəkkil, yüksək intellektual potensiala malik olan siyasi qüvvədir. Yeni Azərbaycan Partiyası nəinki qələbələr qazanan, eyni zamanda, bu qələbələri uzun müddət qoruyub saxlamağı bacaran nadir partiyalardandır. Bu qələbələrin əsasında isə, hər şeydən öncə, azərbaycançılıq, vətənsevərlik, varislik, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi və sosial ədalət dayanır.

Yeni Azərbaycan Partiyası öz lideri İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da möhtəşəm zəfərlərə imza atacaq. Bu gün Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsidir. Ölkəmizdə sabitliyin və təhlükəsizliyin təmin olunmasında, inkişafında, torpaqlarımızın işğaldan azad edilməsində, yeni infrastrukturların yaradılmasında, Qarabağımızın dirçəldilməsində Yeni Azərbaycan Partiyasının misilsiz xidmətləri, böyük rolu var.

Ulu öndər Heydər Əliyev xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib tərəqqi yoluna çıxardığı Azərbaycan hazırda Yeni Azərbaycan Partiyasının sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən, yeniləşən, müasirləşən ölkəyə çevrilib. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan "Dəmir yumruq" əməliyyatı nəticəsində işğal altında olan torpaqlarımız azadlığa qovuşdu, ərazi bütövlüyümüz bərpa olundu.

Qarşıda bizi daha böyük hədəflər gözləyir. Bu hədəflərə çatmaq üçün Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək Heydər Əliyev ideyalarını gələcək nəsillərə ötürməliyik. Heydər Əliyev siyasəti uğurlu və xoşbəxt gələcəyimizin əsas təminatçısıdır. Ulu öndər Heydər Əliyev ideyalarını əsas götürərək Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev yürütdüyü müstəqil siyasəti ilə ölkəmizi daha da işıqlı gələcəyə aparır.

***Sultanəli QURBANOV,***
***ADPU-nun dosenti***

# YAP müstəqil Azərbaycanın milli tale partiyasıdır



**Vüqar RƏHİMZADƏ,
Milli Məclisin deputatı, "91-lər" hərəkatının üzvü**

**"Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi".**

Prezident, YAP sədri İlham Əliyevin tarixi zəfərimizin təntənəsi fonunda keçirilmiş Yeni Azərbaycan Partiyasının VII qurultayında söylədiyi bu sözlər Yeni Azərbaycan Partiyasının yaradılmasının zərurət olduğunu bir daha təsdiqlədi. Dövlət müstəqilliyinin ilk dövründə ölkədə yaranmış siyasi-hərbi böhranın mənggənəsində sıxılan ölkəmizdə cəsarətli, qorxmaz insanlar 33 il əvvəl bu günlərdə açıq-aydın görürdülər ki, gənc ölkəmiz böyük fəlakətlə üz-üzədir və artıq ölkədə gedən proseslər idarəolunmaz xarakter almışdır. Hərbi məğlubiyyət, eyni zamanda, daxili böhranla tamamlanırdı.

Ölkə daxilində gedən xoşagəlməz proseslər, siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə ölkəmizin müstəqil yaşamasını sual altına qoymuşdu. Ümidsizlik, cəmiyyətdə hökm sürən total apatiya, depressiya, heç bir siyasi qüvvəyə inamın olmaması, bax, bu idi o vaxt gənc müstəqil Azərbaycanın mənzərəsi. Belə olan vəziyyətdə ölkə necə inkişaf edə bilərdi?!

Torpaqlarımız əldən gedirdi, ərazi bütövlüyümüz pozulmuşdu, Ermənistandan 300 mindən çox azərbaycanlı qovulmuşdu. Şuşa və Laçın işğal altına düşmüşdü, "Dağlıq Qarabağ"la Ermənistan arasında coğrafi bağlantı yaranmışdı, qaçqınlar, köçkünlər yaranmışdı və bu vəziyyəti dəyişdirmək üçün heç bir əsas yox idi. Kim bu vəziyyəti dəyişdirəcəkdi? O vaxt hakimiyyətdə olan AXC–Müsavat cütlüyü ancaq öz maraqlarını güdürdü.

Ölkəmizin həyatında, bu gün xalqın tale yolunu müəyyən edən siyasi birlik kimi nüfuz qazanan Yeni Azərbaycan Partiyasının yaradılmasında dönüş nöqtəsi olan, məşhur "91-lər"in müraciəti kimi tarixə yazılan "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətini imzalayan şəxslərdən biri kimi həmin dövrün reallıqlarının şahidiyəm. Təbii ki, zaman hadisələrin düzgün təhlilində və dəyərləndirilməsində zəngin mənbə rolunu oynayır. Bugünümüzdən dünənimizə baxanda bir daha aydın olur ki, müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyalarını şərəflə yerinə yetiriblər.

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev daim xatırladır ki, "91-lər"i Azərbaycan xalqı unutmamalıdır: "Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular".

Ulu öndər Heydər Əliyev isə Yeni Azərbaycan Partiyasının 10 illiyinə həsr olunan yubiley mərasimində bildirmişdi: "91-lər, onlar artıq dillərdə əzbər olublar. Mən 91-lərin hamısına həmişə böyük hörmət və ehtiram bəsləmişəm. Ona görə yox ki, "91-lər"in müraciəti mənim həyatımda böyük bir dönüş rolu oynadı. Yox. Partiyanı yaradandan 7 ay sonra xalq, o cümlədən o vaxt iqtidarda olanlar, artıq qaçıb dağılmaqda olan insanlar məni Azərbaycana dəvət etməyə məcbur oldular. Yəni "91-lər"in müraciəti olsaydı da, olmasaydı da, 1993-cü ildə Azərbaycana gələcəkdim. Ancaq o vaxt müraciətin altına imzasını qoyan insanların hər biri Azərbaycanın gələcəyinə görə böyük cəsarət, qəhrəmanlıq göstərib. Biz onları partiyamızın əsasını qoyan veteranlar kimi öz sıralarımızda daim saxlayacağıq".

O zaman Azərbaycanın görkəmli ziyalılarının, tanınmış insanlarının və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları müraciətdə ümummilli lider Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu. Dahi şəxsiyyət Heydər Əliyev həmin müraciətə "Yeni müstəqil Azərbaycan uğrunda" cavabında bu məqamı xüsusi qeyd etmişdir ki, güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.

Beləliklə, 1992-ci ilin 21 noyabr tarixində müxtəlif bölgələrdən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda partiyanın təsis konfransı keçirildi. Ulu öndərin sədrliyi ilə keçirilmiş konfransdan sonra ölkəmizdə yeni siyasi qüvvə yarandı. Yeni Azərbaycan Partiyası yarananda müxalifət partiyası kimi yarandır və dövlətin ağır problemlərinin, yükünün bir hissəsini öz üzərinə götürmək böyük məsuliyyət tələb edən addım idi.

1992-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyasının yaradılması gənc ölkəmizin həyatında yeni mərhələyə yol açdı. Partiya yaranandan 7 ay sonra ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri, oktyabr ayında isə xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident seçildi və ölkəmizin böhrandan çıxma prosesi başladı.

Müstəqilliyimizin bərpasının ilk illərində ölkəyə rəhbərlik edənlərin yarıtmaz siyasəti, idarəçilik qabiliyyətlərinin yoxluğu, şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmalarının Azərbaycanı hansı problemlərlə üz-üzə qoyduğu daim tariximizin qaranlıq səhifəsi kimi vərəqlənməli, indiki və gələcək nəsillərə çatdırılmalıdır. Bu gün müasir müstəqil, qalib, bütövləşən Azərbaycanın uğurlarından, zəfərlərindən böyük qürurla bəhs ediriksə, hər bir Azərbaycan vətəndaşı, gənci bilməlidir ki, bunlar böyük səylərin, qətiyyətin nəticəsidir. O dövrü yaşamayanlar bunu öyrənməlidirlər.

Dövlətimizin başçısı İlham Əliyevin çağırışlarında bu məqam xüsusi qeyd edilir ki, dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın. Bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox. Təbii ki, o dövrü yaşamayan bugünkü gənc nəsil bilməlidir ki, nəyin bahasına biz müstəqilliyi qoruyub saxlaya bilmişik. Biz kimə borcluyuq. Əgər ulu öndər Heydər Əliyev o vaxt hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət, yarımmüstəmləkə kimi yaşaya bilərdi.

Artıq o vaxtdan 33 il keçir. Əbəs yerə deyilmir ki, zaman hakim, tarix isə yaddaşdır. Tarixə söykənərək böyük qürur hissi ilə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin 1993-cü ildən başlanan inkişaf, tərəqqi yolunun uğurlarından bəhs edirik. Azərbaycanın müstəqillik tarixinin bələdçisi olan Yeni Azərbaycvan Partiyası bu uğurlara verdiyi böyük töhfələri ilə qürurludur. Ulu öndər Heydər Əliyev ilk gündən partiyanın gələcəyinə böyük inam bəslədi və bunu "YAP dünənin, bu günün və gələcəyin partiyasıdır" fikri ilə təsdiqlədi.

Ümummilli liderin tarixi çağırışı ötən 33 ildə partiyanın fəaliyyətinin əsas prinsipinə çevrildi. Partiya bu çağırışının məsuliyyətinin böyüklüyünü dərk edərək bunu atdığı addımları ilə doğrultdu. Yarandığı gündən xalqın partiyası imicini qazandı, sıralarını daha da zənginləşdirdi. Yeni Azərbaycan Partiyası sıralarında bu gün 800 minə yaxın üzvü birləşdirir. Hər zaman qeyd olunduğu kimi, bu, yalnız statistika deyil, xalqın Yeni Azərbaycan Partiyasının gələcəyinə inamının göstəricisidir. Sözlə əməl birliyi, tutduğu yola sadiqliyi YAP-ın cəmiyyətdə nüfuzunun artmasında əhəmiyyətli rol oynayır.

Xalqın bu partiyaya inamı sonsuzdur. Bunu ölkəmizdə keçirilən seçki prosesləri də təsdiqləyir. Zəngin seçki təcrübəsinə malik olan Yeni Azərbaycan Partiyası bütün seçki kampaniyalarından uğurla çıxaraq adını tariximizə zəfərlər partiyası kimi yazdırıb. Ümummilli lider Heydər Əliyevin yaradıcısı olduğu, bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi partiyanın gələcəyinə inam sonsuzdur.

Hər bir ölkənin inkişafında əsas faktor olan lider və düşünülmüş siyasət amillərini nəzərə alsaq, bu gün hər bir Azərbaycan vətəndaşının harada yaşamasından asılı olmayaraq özünü xoşbəxt hiss etdiyini əminliklə deyə bilərik. Daim ölkəsinin, xalqının gələcəyini düşünən, Azərbaycanın dünyaya Günəş kimi doğmasını təmin edən ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev çıxışlarında bildirir ki, uğurlarımızın əsas mənbəyi Azərbaycan xalqı, Azərbaycan vətəndaşıdır.

Xalq–Prezident birliyinin, həmrəyliyinin uğurlu nəticələri Azərbaycanın bugünkü reallıqlarında özünün aydın ifadəsini tapır. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası bugünümüz və gələcəyimiz üçün istiqamət oldu.

2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq prezident seçilən İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi aşağıdakı fikirlər müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin istər hakimiyyətinin birinci, istərsə də ikinci dövründə xalqımız, dövlətimiz naminə gördüyü işlərin, göstərdiyi xidmətlərin aydın ifadəsidir: "Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir".

Dövlət başçısı İlham Əliyevin ötən ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində "Biz bu 20 ildə haradan haraya gəlmişik" sualını cavablandırarkən bildirmişdir ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi.

2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi: "Hesab edirəm ki, bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik, çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. 1993-2003-cü illərin hadisələrinə nəzər salsaq, görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi".

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın etibarlı tərəfdaş kimi tanınmasını şərtləndirdi. Məhz bu təmələ əsaslanaraq bu gün Azərbaycan çoxtərəfli əməkdaşlığın əsas iştirakçısı və təşəbbüsçüsü kimi çıxış edir. Ölkəmiz əməkdaşlıq məkanı kimi tanınır. Sabitliyin və əlverişli iqtisadi mühitin yaradılması ilə Azərbaycan böyük investisiyalar məkanına çevrildi.

Bu gün ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcminin 350 milyard dollara gəlib çatması, təbii ki, həmin dövrdə yaradılan möhkəm təməlin nəticəsidir. Ümummilli lider Heydər Əliyev iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verməklə Azərbaycanın bu günü üçün möhkəm təməl yaratdı. "Əsrin müqaviləsi"nin ardınca, 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması da Azərbaycanın artan nüfuzunun, möhkəmlənən mövqeyinin göstəricisidir. 2014-cü ildə, "Əsrin müqaviləsi"nin 20 illiyində Cənub Qaz Dəhlizinin təməli qoyuldu. 2020-ci ilin sonunda layihə tam tərkibdə reallaşdı.

Regional çərçivədə qurulan əməkdaşlığın coğrafiyası, zaman keçdikcə genişlənirsə, bu, Azərbaycanın bugününə və gələcəyinə inamın göstəricisidir. Bu gün Azərbaycanın iştirakı ilə həyata keçirilən enerji layihələri dünyanın enerji xəritəsini yenidən tərtib edir. Hazırda Azərbaycan 14 ölkəyə qaz ixrac edir. Dünyanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin rolu günbəgün artır. Bu gün Azərbaycan "yaşıl enerji"yə keçid mərhələsini uğurları ilə zənginləşdirir.

İqtisadi tərəqqi bütün sahələrdə uğurların əsasıdır. Bu gün Azərbaycana hansı sahədən baxsaq, sürətli inkişafın, tərəqqinin şahidi olarıq. Ölkəmizdə iqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanır. Ümummilli lider Heydər Əliyev hələ 1999-cu ildə Dövlət Neft Fondunun yaradılması ilə bağlı Fərman imzalayanda bu çağırışı xüsusi qeyd etmişdi ki, neft xalqın sərvəti olub, yalnız indiki deyil, gələcək nəsillərə məxsusdur.

Ölkəmizdə neft gəlirlərinin ədalət prinsipi əsasında bölgüsü əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların atılması ilə müşayiət olunur. Bu il sayca beşinci sosial paketin icrası ölkəmizdə ədalət prinsipinin yüksək səviyyədə təmin edildiyini, ən əsası, vətəndaş məmnunluğunun dövlətin siyasətində prioritet olduğunu bir daha təsdiqlədi.

İqtisadi tərəqqi müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordu quruculuğu sahəsində də mühüm addımların atılmasını şərtləndirdi. Bu gün Azərbaycan Ordusunun keçdiyi inkişaf yolunun bələdçisi, təbii ki, tarixi Zəfərimiz və suverenliyimizin tam bərpa edilməsidir. Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşıb. Baxmayaraq ki, torpaqlarımız işğaldan azad edilib, Qarabağımız və Şərqi Zəngəzurumuz dirçəlir, əsas prioritetlərdən biri yenə də ordunun maddi-texniki bazasının möhkəmləndirilməsidir.

2001-ci ildə Ümummilli liderin təşəbbüsü və sərəncamı ilə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi ilə müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın birliyi, həmrəyliyi daha da möhkəmləndi. Bu birlik 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizdə öz sözünü dedi. Dünya azərbaycanlıları 30 ildən sonra Qarabağın tacı Şuşada bir araya gələrək V Zəfər Qurultayını keçirdilər.

Təbii ki, uğurlarımızın miqyası o qədər genişdir ki, onları sıralamaq belə mümkünsüzdür. Çünki Azərbaycan daim irəli baxmağı, qazandığı uğurlarla kifayətlənməməyi bir prinsip kimi öndə saxlayıb. Dövlət başçısı İlham Əliyevin Zəfərimizin reallıqları əsasında keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayında qeyd etdiyi kimi, hər dövrün öz tələbləri var. Biz 1990-cı illərin tələbləri ilə XXI əsrdə yaşaya bilmərik. Hətta bu gün müharibədən sonra yeni dövr başlayır.

Biz gələcək haqqında düşünməliyik. Biz zamanı qabaqlamalıyıq. Ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti artsın, təsir imkanlarımız artsın və daim Azərbaycan xalqı təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın.

Şübhəsiz, bugünkü uğurlarımız 1993–2003-cü illərdə yaradılan möhkəm təməlin, eyni zamanda, Ulu öndərin xalqa 2003-cü il 1 oktyabr tarixli müraciətində növbəti inamın ünvanının düzgün müəyyənləşdirilməsidir. Həmin müraciətdə bildirilmişdi: "Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər Sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var".

Ulu öndər Heydər Əliyev qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, özünün siyasi varisi, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağıraraq qeyd etmişdi ki, o, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Prezident İlham Əliyev son 22 ildə bu inamı real addımları ilə doğrultdu. Ən əsası adını tariximizə torpaqlarımızın xilaskarı kimi qızıl hərflərlə yazdırdı. Azərbaycan hər bir sahədə gücləndi. Artıq 5 ildir ki, tarixi Zəfərimizin sevincini yaşayırıq. Azərbaycan yaratdığı yeni reallıqlar fonunda qarşıya qoyduğu hədəflərə doğru inamla addımlayır.

Tarixi zəfərimiz və suverenliyimizin tam bərpası ilə Prezident İlham Əliyev 2003-cü ildə keçirilən prezident seçkilərində inamlı qələbəsindən sonra andiçmə mərasimində ümummilli lider Heydər Əliyevə müraciətində əksini tapan vədini doğrultdu. Prezident İlham Əliyev həmin vaxt bu vədi vermişdi ki, əsəriniz olan müasir müstəqil Azərbaycanı möhkəmləndirəcək, zənginləşdirəcək, zəfərlərə doğru aparacağıq.

Həmin vəddən 17 il sonra, 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərə imza atdıq. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss etdiyini bildirdi. Zəfərimizdən üç il sonra isə 2023-cü ilin sentyabrında həyata keçirilən birgünlük antiterror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa olundu. Bununla da, Azərbaycanın həyatında yeni dövr başladı. Yeni dövrün yeni hədəfləri müəyyənləşdirildi.

Ümummilli lider Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycanın keçdiyi inkişaf yoluna baxış Yeni Azərbaycan Partiyasının 33 ilik yolunun aydın mənzərəsidir. Çünki bu illər ərzində Yeni Azərbaycan Partiyasının ölkədə keçirilən seçki proseslərində müəyyənləşdirdiyi şüarlar partiyanın hədəflərini özündə ehtiva edir. Bu hədəfləri şərtləndirən isə, təbii ki, Azərbaycanın uğurlarıdır. Bu baxımdan dövlətimizin, onun Liderinin siyasəti Yeni Azərbaycan Partiyasının siyasəti olmaqla yanaşı, uğurlarımız partiyanın hər bir seçki prosesində dəstəyini, qələbəsini təmin edib.

Yeni Azərbaycan Partiyası yarananda "Yeni müstəqil Azərbaycan uğrunda!" şüarını seçdi və təsdiqlənən Proqramında bu hədəfə nail olmağın mexanizmləri öz əksini tapdı. Artıq tarixi Zəfərimizdən sonra partiyanın yeni Proqramının təsdiqinə böyük zərurət yarandı. Dövlət başçısı İlham Əliyev partiyanın VII qurultayındakı çıxışında bununla bağlı tapşırığını verdi. Bildirdi ki, bu proqram yeni dövrlə bağlı bütün məsələləri özündə ehtiva etməlidir.

Partiyanın VII qurultayında yeni qərarların qəbulu, yeni tərkibin formalaşması qarşıdakı dövr üçün görüləcək işlərin aydın mənzərəsini yaratdı. Partiyanın yeni Proqramı YAP İdarə Heyətinin 2021-ci il 29 dekabr tarixli iclasında təsdiq edilib. Proqramda Yeni Azərbaycan Partiyasının siyasi dəyərlər və prinsiplər sistemində 10 strateji istiqamət müəyyən olunub: Heydər Əliyev yolu, müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət, demokratik ənənələrin inkişafı.

Partiyadaxili münasibətləri xarakterizə edən əsas meyarlar isə – peşəkarlıq, işgüzar münasibətlər, şəxsi inkişaf, sağlam rəqabət, etik davranış və milli dəyərlər, innovativ inkişaf və kreativlik, müasirlikdir. Partiyanın 11 strateji hədəfi var: Ulu öndər Heydər Əliyev irsinin təbliği və təşviqi; Güclü iqtisadiyyat və davamlı inkişaf; İnklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı; Şəffaflığın artırılması; Vətəndaş cəmiyyətinin inkişafı; Azərbaycan dili və dünya azərbaycanılılarının həmrəyliyi; Mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması; Vətəndaş həmrəyliyinin təminatı; Milli maraqlar və xarici siyasət; Ordu quruculuğu; İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış.

Yeni dövrə qədəm qoyan Azərbaycan dövləti ötən il müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisində prezident və parlament, bu ilin yanvarında isə bələdiyyə seçkilərini keçirdi. Bu seçkilər Yeni Azərbaycan Partiyasının cəmiyyətdə nüfuzunun bir daha təqdimatı oldu. 2024-cü ildə "Qalib xalqın qalib Lideri!" çağırışı ilə 7 fevral prezident seçkilərinə, "Yeni dövrə yeni Azərbaycanla!" şüarı ilə 1 sentyabr parlament seçkilərinə qatılan Yeni Azərbaycan Partiyası tarixinə növbəti qələbə səhifələrini yazdı.

33 ilin zəngin təcrübəsi, uğurları Yeni Azərbaycan Partiyasının qarşısında böyük imkanlar açır. Dövlət başçısı İlham Əliyev məhz partiyanın yarandığı gündən tutduğu yola sadiqliyini, Azərbaycanın uğurlu gələcəyini düşünərək qəbul etdiyi qərarları, irəli sürdüyü təşəbbüsləri önə çəkərək bu çağırışı etmişdir ki, Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq.

Ötən 33 il zaman baxımından, az olsa da, partiyanın qazandığı uğurların miqyasının genişliyi fonunda sanki 100 ilə bərabər bir dövr kimi xaraterizə edilir. Çətin və şərəfli yol keçən partiyanın tarixinə yazılan 33 il bir daha təsdiqlədi ki, uğurların açarı qətiyyət, böyük səylər, özünəinam hissi, qarşıya qoyulan hədəfə nail olmaq üçün mövcud imkanlardan maksimum istifadə etmək bacarığıdır. Təbii ki, burada xalqın sevgisi, inamı xüsusi yer tutur. YAP yarandığı gündən xalqın taleyini müəyyən edən və ona məsul olan partiyadır.

# “Salam” sülhün ilk cümləsidir

## *Bakıdan dünyaya uzanan sadə, lakin strateji mesaj*



**Hər il noyabrın 21-i dünya bir anlığına geosiyasətin sərt tonundan uzaqlaşıb daha incə, daha humanist ideyanın ətrafında dayanır: salam vermək ən adi ünsiyyət forması olsa da, bəzən qlobal gərginliyi yumşaltmaq gücünə malikdir. Beynəlxalq Salamlaşma Gününün məhz 1973-cü ilin soyuq müharibə reallığında ortaya çıxması təsadüfi deyildi. O dövrün ağır siyasi bloklaşması, dialoq qıtlığı və qarşıdurma psixologiyası fonunda iki amerikalı qardaşın dünyaya ünvanladığı sadə mesaj – “insanlar bir-biri ilə danışmağa davam etsin” çağırışı böyük rezonans yaratmışdı.**

Noyabrın 21-i bu gün də eyni məntiqi xatırladır: böyük siyasi proseslərin içində insan ünsiyyətinin dəyəri itmir, əksinə, bəzən ən çətin dövrlərdə münasibətləri dəyişdirən ilk addım elə salamdan başlayır. Bu günün mahiyyəti ondan ibarətdir ki, beynəlxalq münasibətlərin mürəkkəbliyinə baxmayaraq, dialoqu bərpa etməyin ən asan yolu insani jestdir.



1973-cü ildə amerikalı qardaşlar – Maykl və Brayn Makkomak – Beynəlxalq Salamlaşma Gününü elan etməklə, əslində, dövrün siyasi yükünə fərqli cavab verdilər. O vaxt dünya iki supergücün sərt qarşıdurması ilə bölünmüşdü, dialoq imkanları daralır, beynəlxalq sistem gərginlikdən qidalanırdı. Belə bir şəraitdə qardaşların irəli sürdüyü ideya sanki soyuq ideoloji divarların arasına insan nəfəsinin istiliyini gətirdi. Onlar demək istəyirdilər ki, siyasət susan yerdə cəmiyyət danışmalıdır; qarşıdurmanın hökm sürdüyü məkanlarda, ən azı, insanlar bir-birinə üz tuta bilsinlər.

Təşəbbüs ona görə geniş qəbul olundu ki, dünyanın ehtiyacı böyük siyasi bəyanatlardan çox, sadə, gündəlik, insani ünsiyyətin xatırladılmasına idi. Hər kəs anlayırdı ki, bəzən gərginliyi tənzimləyən ən güclü vasitə nəhəng diplomatik mexanizmlər yox, bir salamın yaratdığı psixoloji yumşaqlıqdır. Salam insanların bir-birini görməsinin, qəbul etməsinin, qarşı tərəfi düşmən yox, dost kimi tanımasının ən primitiv, amma ən fundamental formasıdır.

Məhz bu səbəbdən Beynəlxalq Salamlaşma Günü dövrün sərt reallıqlarına qarşı humanist cavab kimi yadda qaldı. Dünya bu ideyanı ona görə sevdi ki, o, gərginlik yüklü ideoloji nizamın içində insanlığın özünə qayıdışı kimi görünürdü. Ancaq maraqlı paradoks var: Avropada tanınan bu gün haqqında Azərbaycanda məlumat azdır. Maraqlıdır ki, qonaqpərvərlik ənənəsi güclü olan, ünsiyyət mədəniyyəti tarixinə hopmuş bir ölkədə – salamın özü həyat tərzidir, amma onun üçün ayrılmış xüsusi gün hələ də geniş tanınmayıb. Bəs görəsən, Azərbaycanın, xüsusilə Bakının siyasi kimliyi üçün “salam” nəyə bənzəyir?

“Salam sülhün adıdır” ifadəsi Bakının son illər nümayiş etdirdiyi xarici siyasət xəttini, əslində, dəqiq təsvir edir. Müasir beynəlxalq münasibətlər sistemində salam dövlətin təhlükəsizlik anlayışının, regional baxışının və strateji məqsədinin ilk cümləsi kimi dəyərləndirilir. Azərbaycanın diplomatik davranışında bu sadə sözün arxasında həm yumşaq güc ünsürü, həm də siyasi iradə və qiymətləndirilmiş risklərin yanaşı dayandığı görünür. Son illərin reallığında Azərbaycan öz regional siyasətini “konstruktiv açıq qapı” modeli üzərində qurdu və bu model təsadüfi deyil: uzunmüddətli münaqişə mərhələsinin arxada qaldığı regionda təhlükəsizliyi təmin etməyin ən rasional yolu təcrid deyil, inteqrasiyadır.

Bakı Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturası formalaşdırarkən sanki siyasi ədəb-ərkanın ən sadə, lakin ən güclü qaydasına qayıtdı: “Sülh istəyiriksə, birinci cümləni biz deyək”. Belə bir yanaşma həm diplomatiya masasında, həm də həyata keçirilən layihələrdə öz praktiki təsdiqini tapdı. Azərbaycan postmünaqişə dövründə siyasi yetkinlik baxımından təşəbbüskarlıq nümayiş etdirdi. Çünki müharibə bitdikdən sonra bölgəni donuq vəziyyətdə saxlamaq, ya da yenidən canlandırmaq seçimi yaranır. Bakı ikinci seçimi etdi.

Seçim konkret addımlarda təcəssüm olundu: Şərq–Qərb nəqliyyat dəhlizlərinin inkişafı da, əslində, region ölkələrinə ünvanlanmış “gələcək üçün əməkdaşlıq mümkündür” mesajıdır. Enerji əməkdaşlığı və “yaşıl enerji”yə keçid üzrə yeni koordinasiya platformaları isə Azərbaycanın sülh gündəliyini geoiqtisadi alətlərlə gücləndirməsinin nümunəsidir. Kommunikasiya xətlərinin açılması təşəbbüsü isə ən sərt siyasi mürəkkəbliyi belə yumşalda bilən insani məntiqə dayanır: yollar bağlandıqca, insanlar da bir-birinə bağlanır, yollar açıldıqca, münasibətlər də yumşalır. Bu mənada Bakı yeni dialoq məkanı yaratmaqla bütün regionun siyasi davranışını yeniləməyə çalışır.

Azərbaycanın siyasətin arxasında daha dərindən görünən məntiq isə belədir: sülh gündəlik praktikada qurulur. Azərbaycan diplomatiyası bunu yaxşı anlayır, “salam” təhlükəsizlik konsepsiyasının aktiv elementi kimi çıxış edir. Bakı qonşulara və beynəlxalq tərəfdaşlara yönəltdiyi açıq mesajla göstərir ki, özünün formalaşdırdığı yeni regional nizam qarşılıqlı tanınmaya və imkan yaratmağa əsaslanır.

Beləliklə, “salam” Bakının müasir siyasi davranışında strateji seçimdir: dialoqu seçmək, qarşıdurmadan uzaqlaşmaq, regionu əməkdaşlıq məkanına çevirmək və gələcəyin təhlükəsizliyini açıq kommunikasiyanın üzərində qurmaq seçimi. Çox güman ki, Bakı sadə sözlə dünyaya demək istəyir ki, sülh bəzən böyük sazişlərin deyil, doğru başlanğıcın nəticəsidir.

Dünyanı dəyişmək üçün bəzən bir salam bəs edir. Bəli, münaqişə və konstruktivlik arasında bəzən ilk beş saniyə fərq yaradır. Diplomatiyada “salam” ilk riskin götürülməsi, qarşı tərəfə mesajdır: “Mən dialoqa açığam”. Çünki tarix göstərir ki, insanlar danışmadıqda silahlar danışır.

Bakı küçələrində tanımadığın gülərüz birindən “salam” eşitmək təəccüblü deyil. Şəhərin sosial psixologiyası budur: yaxınlaşmaq, ünsiyyət qurmaq, sərtlikdən daha çox insani istilik göstərmək. Bütün bunlar Azərbaycanın regionda təklif etdiyi modelin kiçik sosial prototipidir. Bakı öz davranışı ilə sanki deyir: “Biz həmişə dialoqa açığıq, qapımız da, sözümüz də açıqdır”. Bəlkə də Beynəlxalq Salamlaşma Gününün ən təbii yaşandığı şəhərlərdən biri Bakı ola bilər – sadəcə biz bunun üçün xüsusi gün axtarmırıq.

Bakı son illərdə regiona ünvanladığı “salam”la əslində çoxqatlı və strateji bir mesaj ötürür. Bunun arxasında Cənubi Qafqazın gələcəyi üçün nəzərdə tutulmuş yeni siyasi model dayanır. Azərbaycan qapalı blokların, soyuq ittifaqların və geosiyasi çəkilmələrin dövrünün bitdiyini, onların yerini açıq platforma siyasətinin tutmalı olduğunu vurğulayır. Rəsmi Bakının addımı regionu fərqli düşərgələrə bölmək deyil, onları bir masa ətrafında toplayan əməkdaşlıq məkanı yaratmaq deməkdir. Postmünaqişə dövründə Azərbaycan heç vaxt yalnız tərk–silah və status-kvonun qorunması ilə kifayətlənən siyasət yürütmədi. Əksinə, Bakı inteqrasiyanı – yolların, əlaqələrin, iqtisadi layihələrin açılmasını sülhün əsas şərti kimi ortaya qoydu.

Biz region ölkələrinə göstərdik ki, ayrılmaq, qapanmaq, özünü məhdudlaşdırmaq nə təhlükəsizlik yaradır, nə də sabitlik. Təhlükəsizlik məhz əməkdaşlıqla, qarşılıqlı asılılığın gücləndirilməsi ilə formalaşır. Elə bu səbəbdən, Azərbaycanın “salamı” həm siyasi xarakter daşıyır, həm də geoiqtisadi məntiqə söykənir: inteqrasiya olunduqca risklər azalır, əməkdaşlıq artdıqca, təhlükəsizlik möhkəmlənir.

Salam bəzən diplomatiyanın ən ucuz, amma ən dəyərli alətidir. Heç bir siyasi məsrəfi yoxdur, amma mənəvi dəyəri ölçülməzdir. Soyuq müharibənin parçalanmaya məhkum etdiyi dünyada bunu iki gənc qardaş başa düşmüşdü. Bu gün isə həmin ideyanın ən gözəl konteksti sülh istəyən, əməkdaşlıq təklif edən, qonşularına və dünyaya salam göndərən Bakıdır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# “Müsyö”nün əyri hay güzgüsü

*(əvvəli 1-ci səhifədə)*

Söhbət Fransa hökumətindən deyil, orada yerli ermənilərlə birgə fəaliyyət göstərən ictimai təşkilatlardan – QHT-lərdən gedir. Bu günlərdə 40 fransız-erməni ictimai təşkilatı bir yerə toplanıb, Beynəlxalq Ədalət Məhkəməsinin müvafiq qərarının 2-ci ildönümü münasibətilə “artsax xalqının geri qaytarılması və digər fundamental hüquqlarını” dəstəkləyən bəyanat yayıb. Keçmişin pul havası burunlarından getməyən bu təşkilatlar iddia edirlər ki, 2023-cü il noyabrın 17-də Beynəlxalq Ədalət Məhkəməsi “məcburi köçkün “artsax” ermənilərinin Azərbaycana təhlükəsiz və maneəsiz qayıtmasını təmin etməyi tapşırıb”. İndi 40-a yaxın “müsyö-hay” çetesi bəyanat adlandırdıqları kağız parçasında qeyd ediblər ki, guya, iki il bundan əvvəl “cinayətkar blokada və hərbi hücum nəticəsində öz torpaqlarından qovulan 120 min artsax ermənisi bu gün evlərindən və mülklərindən məhrum edilmiş şəkildə yaşamaqda davam edir”. Aşkar yalan və saxtakarlıq üzərində hazırlanan müraciətdə, hətta “Qarabağda beynəlxalq strukturların sükutu fonunda onların (ermənilərin–red.) kilsələri murdarlanır, qəbiristanlıqları dağıdılır, bu torpaqda 2 minillik mövcudluğun izləri davamlı olaraq silinir” kimi hədyanlar da yer alıb. Hələ bu harasıdır? Fransız-erməni “qeheteşnikləri” bəyan edirlər ki, “bu etnik təmizləmə siyasəti bütöv bir xalqın tarixi yaddaşını inkar etmək məqsədi daşıyır”. Müdriklərimiz “Adımı sənə qoyaram, səni də yana-yana” kəlamını məhz belə məqamlar üçün deyiblər. Gözə girən reallığı baş-ayaq təqdim edən daşnak-revanşistlərin şər-böhtana əl atmaqdan savayı “mübarizə üsulu” qalmayıb. Bu zaman hayların duvağını tutduğu müsyönün güzgüsü, əlbəttə ki, hər şeyi əyri göstərəcək.

Hay-fransız ictimai təşkilatların “fəallarının” bəyanatında ermənilərin Qarabağa qayıdışı və onlara təzminatın ödənməsi kimi cəfəng şərt-tələb də irəli sürülür. Məşhur atalar sözümüzü bir daha xatırlatmağımıza ehtiyac var. 30 il ərzində Qarabağ və ətraf yeddi rayonumuzda yaşayan vətəndaşlarımızı olmazın əzab və məhrumiyyətlərə məruz qoyan, torpaqlarımızın üstünü və altını vəhşicəsinə istismar edən ermənilərə qarşı təzminat davasından sülhün xatirinə vaz keçən Azərbaycan indi durub halal torpağında suverenliyini bərpa etdiyinə görə dığalara təzminat ödəməlidir? Bəyanatda yer almış bu iddianın müəlliflərinin elementar məntiq və siyasi şüurdan məhrum olmalarına yalnız heyrətlənmək mümkündür. İşğala məruz qalan Azərbaycan hər şeyə rəğmən işğalçı Ermənistanla sülh prosesini inkişaf etdirməkdə qərarlıdır, baş nazir Paşinyan ermənilərin Qarabağa qayıdışını mümkün hesab etmir, bunu hətta təhlükəli sayır, üstəgəl, onların əksəriyyəti Ermənistan vətəndaşlığını qəbul edib, Fransadakı bir ovuc müsyö-hay gerizəkalısı isə Bakıdan təzminat ummaq xəyalına düşüb.

Bəli, Fransada erməni diaspor və lobbisinin güclü olduğunu bilirik. Bu mənada onların birgə bəyanat yayması da təəccüb doğurmamalıdır. Bununla onlar Azərbaycanı təcavüzkar kimi qələmə vermək istəyirlər. Adları naməlum olan bu təşkilatlar avropalılarda belə bir təəssürat yaratmağa çalışırlar ki, ermənilər Qarabağı könüllü tərk etməyiblər, oradan qovulublar. Biz qalıb yaşamaları üçün bütün şərtləri yaratdığımız erməniləri burada məcbur saxlaya bilməzdik. Onu da deyək ki, köçüb gedənə qədər onların əksəriyyəti ciblərində Ermənistan və Rusiyanın pasportunu gəzdirirdilər. Ən azı, buna görə bu məsələdə saxtakarlığa yol vermək mümkün deyil. Yəni Qarabağda yaşayan ermənilərin böyük əksəriyyəti xarici ölkələrin vətəndaşları olublar.

Biz ermənilərdən fərqli olaraq, heç vaxt dinc əhaliyə əl qaldırmadıq. Bu gün Fransada hay-küy qaldıran o “təşkilatlar” qoy Xocalı, Başlıbel, Bağanis–Ayrım soyqırımlarından danışsınlar. Bu gün Azərbaycan və Ermənistan yekun sülh müqaviləsini imzalamağa həmişəkindən daha yaxındır. Bu cür avantürist bəyanatlar isə sülh prosesinə kölgə salmaq, ona arxadan zərbə vurmaq kimi məkrli niyyətlərdən xəbər verir. Aydın məsələdir ki, Fransadakı anti-Azərbaycan “çete”nin cavabı verilməlidir. Oradan Azərbaycanı həyasızcasına ittiham edənlərin nəzərinə çatdırırıq ki, Qarabağa ermənilərin haradan və nə vaxt köçürüldüyü hamıya bəllidir. Bilməyənlər Rusiyanın İrandakı səfiri Qriboyedovun məktublarını oxusunlar. Orada tarixi faktlar, hər şey olduğu kimi təsvir edilib. Yəni iki əsr boyu hüququ pozulan Azərbaycan və azərbaycanlılar olub. O ki qaldı daşnak müsyö-hay beyninin məhsulu olan hansısa bəyanat və ya müraciətə, bu da əvvəlkilər tək kağız parçası kimi zibil qutusuna tullanacaq.

***İmran BƏDİRXANLI***
***XQ***




### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Ürəkləri istədiyi qədər hay-küy salsınlar, bəyanat qəbul etsinlər, amma bunların heç bir faydası olmayacaq. Onların dediklərinə, yaydıqları müraciətlərinə əhəmiyyət verən də yoxdur. Əgər bu cür təxribatçı təşəbbüslərin arxasında dövlət dayanmırsa, həmin təşkilatların nəyəsə nail olması qeyri-mümkündür. Burada söhbət ya Fransa hökumətindən, ya da Ermənistan hökumətindən gedir. Artıq bu hökumətlərin hər ikisi yaxşı anlayırlar ki, bu cür özfəaliyyətin heç bir perspektivi yoxdur. Onu da yaxşı bilirlər ki, belə hərəkətlər Azərbaycan tərəfindən tutarlı adekvat reaksiyanın veriləcəyi qaçılmazdır. Bu cür avantürist çıxışların dəstəklənməsi Ermənistanın özünə baha başa gələ bilər.

Fransada bu cür ermənipərəst təşkilatların vaxtilə iki real “çörək ağacı” vardı. Onlardan biri Türkiyəyə qarşı həmin qondarma “erməni soyqırımı”, digəri isə separatçıların qurduğu qeyri-qanuni, heç kimin tanımadığı “dqr” məsələsi idi. Bu məsələlərin ikisi də qapandı və deməli, o təşkilatların “çörək ağacı” da qurudu. Yəni bu yağlı tikə əllərindən çıxandan sonra həmin təşkilatlar işsiz qalıblar. Axı onlar iki il əvvələ qədər lobbiçiliyini etdikləri xaricdəki erməni diaspor qurumlarından, icmalarından “xidmətlərinə” görə yaxşı pul alırdılar.

Fransadakı ermənipərəst ictimai təşkilatların hərəkətlərini nəzarətdə saxlamaq lazımdır, amma onların fəaliyyətlərinin hansısa nəticəsinin olacağını düşünmək əbəsdir. Nəticə sıfıra bərabər olacaq.

### *Ekspert rəyi*



**Tofiq ABBASOV,**
**siyasi icmalçı**

Adları dəbdəbəli səslənsə də, sayları çox göstərilsə də Fransadakı erməniperəst qurumlar üç-beş nəfərin toplaşdığı ictimai təşkilatlardır. Doğrudur, bu qurumlar müəyyən hüquqi prosedurdan keçiblər, amma bu, heç də o demək deyil ki, onların qəbul etdikləri qərar, yaxud qətnamələr hansısa siyasi yükə, təsir imkanlarına malikdir. Onların məqsədi Qafqaz bölgəsində gərginlik atmosferini daim yüksək səviyyədə saxlamaq, Ermənistanın normal, sabit həyat sürməməsidir. İstəkləri budur ki, İrəvan həmişə təhlükə mənbəyi olaraq qalsın, Türkiyə və Azərbaycanla daim qarşıdurma vəziyyətində yaşasın. Əlbəttə ki, bu, qeyri-sağlam təfəkkürün məhsuludur. Düşünürəm ki, normal erməni bu təfəkkürü qəbul etmir.

O ki qaldı Qarabağ ermənilərinin bölgədən çıxmasına, köçməsinə, onları buradan heç kəs qovmayıb. Bunu bizim kimi, bütün dünya bilir. Amma bəzi qüvvələr bunu dünyaya Azərbaycanın etnik təmizləməsi kimi təqdim etməyə çalışırlar. Əslində, məqsədləri bu təbliğatla ötən əsrin 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində 300 minə yaxın azərbaycanlının Ermənistandakı ata-baba torpaqlarından qovulması, etnik təmizləməyə məruz qalması faktını ört-basdır etməkdir. Alınan iş deyil. Çünki əlimizdə təkzibolunmaz sübutlar var. İki il əvvəl ermənilər Qarabağı tərk edəndə BMT-nin iki missiyası monitorinq apardı, köçənlərlə təmasları oldu, sorğular keçirdilər. Hamısı bir ağızdan dedi ki, separatçı Şahramanyan rejimi özünü buraxıb və bizdən Ermənistana köçməyimizi tələb edirlər. Məramları bəlli idi: Azərbaycanı erməniləri etnik təmizləməyə məruz qoymaqda ittiham etmək. Bu da alınmadı, ona görə ki, köçənlərdən birinin də burnu qanamadı, malına-mülkünə toxunulmadı, evləri isə indi də salamat durur. Bakı dəfələrlə bildirib ki, qayıtmaq istəyənlər buyursunlar prosedur qaydalarından keçsinlər. Qarabağda doğulub böyüyən ermənininin qayıdışı üçün heç bir problem yoxdur. Az sayda olsa da, Azərbaycan vətəndaşlığını qəbul edib, bugünədək Xankəndidə yaşayan ermənilər var. Yəni burada spekulyasiya və ya manipulyasiya üçün heç bir əsas yoxdur.

# Oliqarxın “siyasi manifest”i

## *Karapetyanın ismarışının pərdəarxası məqamları*

**Ermənistan daxilində siyasi sabitliyi pozmağa, müxtəlif radikal qruplarla birləşərək hazırkı iqtidarı devirməyə çalışan əsas fiqurlardan biri, “Taşir” şirkətlər qrupunun yaradıcısı və prezidenti Samvel Karapetyan saxlanıldığı milli təhlükəsizlik xidmətinin istintaq təcridxanasından erməni xalqına ünvanlanmış ismarış yollayıb.**

O, son günlər həmvətənlərindən böyük dəstək aldığını iddia edib və buna görə onlara təşəkkürünü bildirib: “Harada olursunuzsa – olun – mitinqlərdə, küçələrdə, məhkəmə binasının qarşısında birlik nümayiş etdirərkən və ya evdə, ekranda hadisələri izləyib ədalət gözləyərkən, dəstəyiniz görünür və bu, olduqca dəyərlidir və mənim üzərimə öhdəlik qoyur. Bu günlərdə baş verən utancverici qanunsuzluqlar və həyasız məhkəmə proseslərindən sizin nə qədər narahat və məyus olduğunuzu təsəvvür edə bilirəm. Bu gün sizə sadə bir mesajla müraciət edirəm: ümidsizliyə qapılmayın”.



Karapetyan deyib ki, “müqəddəs yerləri tapdalamaqla, həbsxanaları doldurmaqla, əmlakı müsadirə etməklə və qorxu atmosferi yaratmağa çalışmaqla (?) hakimiyyəti maksimum daha 6 ay saxlamaq mümkündür, lakin ölkəni saxlamaq mümkün deyil: “Bu şəkildə ölkənin ləyaqətini bərpa etmək, vətəndaşlarının həyatını yaxşılaşdırmaq və dövlətin məqsədlərinə çatmaqdan danışmaq da mümkünsüzdür. Qətiyyət, məqsədyönlülük tarixi çox çətin dövrlər görmüş xalqımıza xas olan bir xüsusiyyətdir. Düşmənlərimizin bütün səylərinə baxmayaraq, həmişə çətinliklərin öhdəsindən gəlmişik və yolumuza davam etmişik. Əmin olun ki, bu, bu gün də davam edəcək. Cəmi bir neçə aydan sonra bir-birimizi ədalətin qələbəsi, ləyaqətin bərpası, şər üzərində qələbə və Ermənistan üçün yeni bir dövrün – rifah və sülh dövrünün başlanğıcı münasibətilə təbrik edəcəyik. Beləliklə, mübarizəni davam etdiririk və qeyd-şərtsiz qələbəyə – öz yolumuza doğru irəliləyirik”.

Ermənistanın iqtisadi-siyasi elitasında uzun illər mühüm çəkiyə malik olmuş S.Karapetyan oliqarxik sistemin formalaşdığı mərhələlərin klassik təmsilçilərindən biridir. Onun sərvətinin formalaşması Ermənistan iqtisadiyyatının təbii rəqabətdən uzaq, klanlararası razılaşmalar üzərində qurulduğu dövrlərə təsadüf edir. Enerji, tikinti, istehsal və xidmət sahələrinin iri seqmentlərinə nəzarətin tədricən Karapetyanın “Taşir” strukturunun əlinə keçməsi təkcə biznes uğuru deyildi.

*(ardı 6-cı səhifədə)*

# Avropada seçkilər legitimliyini niyə itirir?

(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, Rəqəmsal Xidmətlər Aktı (DSA) Aİ-nin internet nəhənglərinə qarşı ciddi hüquqi alətidir. DSA həm də "X", "Facebook", "TikTok", "YouTube" və digər böyük platformaları təhlükəli, manipulyativ və qanunsuz məzmunu nəzarətdə saxlamağa məcbur edir. Lakin tənqidçilər haqlı olaraq bildirirlər ki, bu öhdəliklərin tətbiqi bərabər səviyyədə aparılmır. Bir çox hallarda platformalar ya ləng reaksiya verir, ya da sadəcə, komissiyanın xəbərdarlıqlarını formal qəbul edilməsi, enerji böhranından sonra ictimai narazılığın artması rəsmi Berlinin informasiya təhlükəsizliyi məsələsində addımlarını sərtləşdirməsinə səbəb olub. İlon Maskın AfD tədbirinə qatılması da seçki manipulyasiyası ilə bağlı yeni suallar yaradıb. Sosial media sahiblərinin siyasi proseslərə aktiv şəkildə qarışması Avropanın təhlükəsizlik gündəmində əlavə risk amili kimi qəbul edilir. Çünki platforma sahiblərinin öz siyasi mövqelərini on milyonlarla istifadəçi üçün informasiya axınına təsir edəcək şəkildə yönləndirməsi mümkündür.




edirlər. 12 Aİ ölkəsinin məktubu isə vəziyyətin artıq dözülməz olduğunu göstərir. Çünki qarşıdan gələn seçki mövsümü milli parlamentlər və ya prezident seçkiləri də daxil olmaqla, həm Aİ-nin gələcək siyasi xəttini, həm də qlobal güc balansında təşkilata veriləcək rolu müəyyən edəcək. Məktubda vurğulanan əsas mesaj ondan ibarətdir ki, Komissiya DSA-nın səlahiyyətlərini tam gücü ilə işə salmalıdır.

Son illərin təcrübəsi göstərir ki, xarici dövlətlər artıq seçki mexanizmlərini birbaşa hədəfə almaqdansa, ictimai rəyə təsir edərək siyasi qütbləşməni artırmağa və demokratik legitimliyi sarsıtmağa üstünlük verirlər. Bu tendensiya ən çox sosial media platformaları, bot şəbəkələri, manipulyativ alqoritmlər, koordinasiyalı dezinformasiya axınları və süni şəkildə gücləndirilmiş ekstremist ritorika vasitəsilə həyata keçirilir. Müdaxilələr seçki proseslərini hədəfləyən dezinformasiya dalğalarında ictimai etimadın məqsədli şəkildə aşındırılmasında, radikal siyasi qüvvələrin onlayn ekosistemdə süni şəkildə gücləndirilməsində, Aİ daxilində siyasi parçalanmanın dərinləşdirilməsində və populyar platformalarda paralel, alternativ informasiya reallıqlarının yaradılmasında özünü göstərir.

Ən güclü çağırışın Fransadan gəlməsi maraqlı assosiasiya doğurur. Fransa son illər seçki nəticələri ən çox manipulyasiyaya məruz qalan Aİ dövlətlərindən biri hesab olunur. Şübhəsiz, bu müdaxilələr cəmiyyət daxilində radikalizasiya və etimad böhranı yaratmaqla Parisin daxili sabitliyini zəiflədib. Almaniya isə kifayət qədər həssas mərhələdədir. 2026-cı il fevralın 23-də keçiriləcək növbədənkənar seçkilər ölkəni yeni siyasi reallıqla üz-üzə qoyub. "Almaniya üçün Alternativ" (AfD) partiyasının yüksəlişi, bir sıra casusluq şəbəkələrinin aşkar

Rumıniyada da oxşar hadisələr müşahidə edilir. "TikTok"un seçkilərə müdaxiləsi barədə xəbərdarlıqlar göstərir ki, Şərqi Avropa bu təhlükənin ən aktiv laboratoriyasıdır. Bunun əsas səbəbi isə regionun həm siyasi qütbləşmənin yüksək olduğu, həm də xarici aktorların daha rahat nüfuz edə bildiyi məkan olmasıdır. Xüsusilə, Rumıniya nümunəsində "ByteDance" şirkətinin məlumat şəbəkəsi və alqoritmik təsir mexanizmləri ilə bağlı narahatlıqlar Avropanın texnoloji asılılığının hansı miqyasda problemə çevrildiyini göstərir. Ümumiyyətlə, "ByteDance" son illər qlobal informasiya təhlükəsizliyi müzakirələrinin mərkəzinə çevrilmiş texnoloji şirkətlərdən biridir. Şirkətin əsas platforması olan "TikTok"un alqoritmik strukturu, məzmun tövsiyə mexanizmləri və məlumat toplama üsulları Avropada geniş narahatlıq doğurur. Aİ institutları hesab edirlər ki, "TikTok"un istifadəçi davranışını analiz edən, onu müəyyən siyasi və sosial istiqamətlərə yönləndirməyə qadir alqoritmləri xarici müdaxilə üçün münbit şərait yarada bilər. Rumıniyada keçirilən prezident seçkiləri zamanı platformanın potensial siyasi mesajları lazımi səviyyədə süzgəcdən keçirilməməsi barədə şübhələr Avropada bu narahatlığı dərinləşdirib və Komissiyanı rəsmi araşdırma başlatmağa vadar edib.

Nəticə etibarilə, "Qoca qitə" artıq passiv müdafiə mövqeyindən çıxaraq informasiya müharibəsində aktiv iştirakçı mövqeyini formalaşdırmalıdır. DSA çərçivəsində gücləndirilmiş nəzarət, institusional koordinasiya və texnoloji özünütəmin tədbirləri Avropanın gələcək siyasi sabitliyini, cəmiyyətin dövlət institutlarına etimadını və demokratik layihənin davamlılığını müəyyən edəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***



*Müşfiq ƏLƏSGƏRLİ,*
*XQ-nin media eksperti*

Əslində, seçkilərə kənar müdaxilələr, informasiya manipulyasiyaları və dezinformasiyalarla mübarizə istiqamətində Avropa ölkələrində artıq müəyyən praktika formalaşıb. Bu sahədə ilk sərt addımlar Fransadan gəlib. 2005-ci ildən etibarən bu missiya İnformasiya Sistemlərinin Təhlükəsizliyi üzrə Mərkəzi İdarəyə (DCSSI) həvalə olunub və 2009-cu ildə Milli İnformasiya Sistemlərinin Təhlükəsizliyi Agentliyi (ANSSI) yaradılıb. Fransada 2017-ci il prezident seçkilərində xaricdən idarə olunan dezinformasiyalar müəyyən edildikdən sonra Xarici Rəqəmsal Müdaxiləyə Qarşı Sayıqlıq və Mühafizə Xidməti (VIGiNUM) formalaşdırılıb ki, bu qurum dövlət orqanları arasında koordinasiyanı təmin edir və sosial media platformalarında yalan məlumatların yayılmasının qarşısını alır. 2018-ci ildən etibarən Fransa özünün informasiya tənzimləməsi qanunlarını yeniləyib və onları dezinformasiyaya qarşı mübarizə prinsiplərinə uyğunlaşdırıb. Qanunların qəbulunda Makron hökuməti iddia edirdi ki, ölkədə seçkilərə kənar müdaxilələr mövcuddur və informasiya manipulyasiyalarına yol verilir. Ona görə də Fransada dezinformasiyaya qarşı mübarizə və sosial şəbəkələrin tənzimlənməsinə yönəlmiş geniş qanunvericilik aktları qəbul olunub. Amma bu qanunlar müəyyən narazılıqla, etirazlarla qarşılanıb. Hüquq müdafiəçiləri və jurnalist təşkilatları hesab edirdilər ki, Makron hökuməti seçkilərə müdaxilə və dezinformasiyanın qarşısını almaq bəhanəsindən istifadə edərək qanunları yeniləyir və tənqidi səsləri boğur. Yəni hökumətə yönəlmiş tənqidlər bəzən dezinformasiya kimi təqdim edilərək gündəmdən çıxarılır və bloklanır. Bu isə Avropa jurnalist təşkilatlarında müəyyən narahatlıq doğurub. Məhz bu səbəbdən, sonradan Avropa İttifaqı səviyyəsində yeni bir akt qəbul edildi. Yəni ayrı-ayrı ölkələrdə mövcud olan qanunlardan fərqli olaraq, ümumi Avropa səviyyəsi üçün vahid bir akt müəyyən olundu. Rəqəmsal Xidmətlər Aktı (DSA) adlanan akt Avropa ölkələrindən tələb edirdi ki, öz milli qanunlarını həm dezinformasiyaya qarşı mübarizə, həm də sosial şəbəkələrin tənzimlənməsi baxımından bu aktın prinsiplərinə uyğunlaşdırsınlar.

# Oliqarxın "siyasi manifest"i

*(əvvəli 5-ci səhifədə)*

Onun Rusiya bazarındakı geniş biznes şəbəkəsinin isə erməni iqtisadiyyatının kritik sahələrdə Moskvadan asılılığını bir qədər də artırması uzun illər ekspert müzakirələrinin mövzusu olub. Karapetyanın varlanma mexanizmləri Ermənistanın keçmiş hakimiyyətlərinin iqtisadi modelinə uyğun şəkildə formalaşıb. Karapetyan Ermənistanda sosial ədalətsizliyin, iqtisadi asimmetriyanın və biznesdə qeyri-bərabər rəqabətin simvoluna çevrilmiş fiqurlardandır. Paşinyan hakimiyyətinin antioliqarx çağırışları da məhz Karapetyan kimi fiqurların təsir gücünü məhdudlaşdırmaq iddiasına söykənirdi. Lakin bu gün onun siyasi meydanoxuma ilə müşayiət olunan narazılığı Ermənistanın daxilində yeni qarşıdurma xətti formalaşdırır.

*

Saxlanıldığı təcridxanadan xalqına ünvanladığı ismarış Karapetyanın yalnız biznes mənfəətlərini deyil, siyasi iddialarını da açıq şəkildə göstərir. O, özünü dəstəyin ünvanı kimi təqdim etməklə ictimai emosiyaya təsir göstərməyə çalışır. Mətni diqqətlə oxuduqda iki əsas xətt görünür. Birinci xətt: özünü haqsızlığa məruz qalmış sima kimi təqdim etmək. İkinci xətt: Paşinyan hakimiyyətinin artıq sonunun çatdığı, son mərhələdə olduğu mesajı ilə müxalif kütlənin motivasiyasını gücləndirmək. Karapetyan tərəfdarlarına təşəkkürünü bildirərkən onların məhkəmə, aksiya və küçə etirazları fonunda göstərdiyi dəstəyin görünən olduğunu vurğulayıb. Bu, faktiki olaraq, özünü siyasi lider kimi mövqe tutma cəhdidir. Onun kütləyə ümidsizliyə qapılmama çağırışı, yaxın aylarda vəziyyətin tam dəyişəcəyinə dair inam ifadəsi yalnız emosional motivasiya deyil, həm də proseslərin koordinasiya olunduğu təsəvvürü yaratmağa hesablanmış addımdır. O, hakimiyyətin ölkəni maksimum yarımil idarə edə biləcəyini iddia etməklə həm siyasi narazıların gözləntisini artırır, həm də dövlət idarəçiliyində böhran obrazını gücləndirməyə çalışır.

Mesajın digər hissəsi də diqqəti cəlb edir. Karapetyan dövlətin ləyaqəti, vətəndaşların rifahı, ölkənin məqsədləri kimi anlayışlara istinad edir, özü isə illərlə iqtisadi tıxac yaradan oliqarx sistemin aparıcı elementlərindən biri kimi siyasi mövzuda danışır. Bu ziddiyyət əslində Ermənistandakı hazırkı paraleli göstərir: keçmiş hakimiyyət strukturlarının nüfuzlu fiqurları indi xalqın müdafiəçisi kimi təqdim olunmağa cəhd göstərirlər.

Karapetyanın ismarışı həm də müxalifətin son aylarda yaratmağa çalışdığı paralel legitimlik cəhdlərinin tərkib hissəsi kimi oxunmalıdır. Robert Koçaryan, Serj Sarkisyan, Seyran Ohanyan, Artur Vanetsyan, "Daşnaksütyun" qanadı və digər radikal qruplarla birlikdə hərəkət etməsi barədə iddialar təsadüfi deyil. Bu, siyasi gediş olaraq kütlənin psixoloji hazırlığını artırmaq məqsədi güdür.

İsmarışın ən kritik hissəsi yaxın aylarda ədalətin bərpa olunacağı ilə bağlı iddiadır. Bu, ya seçkidənkənar hakimiyyət dəyişikliyinə işarədir, ya da Ermənistan daxilində müəyyən güc mərkəzlərinin öz planlarını aktiv fazaya keçirdiyini göstərir. Məhz bu arqument Ermənistanın təhlükəsizlik mühitində gərginlik yaradan amillərdən biri kimi qiymətləndirilir. Xarici təsirlərin güclü olduğu ölkədə oliqarxların siyasi ambisiyaları həmişə geosiyasi tarazlığı pozan faktorlardan sayılıb. Karapetyanın Rusiya iqtisadi sisteminə bağlılığı nəzərə alınanda bu bəyanatların fonunda Moskvanın maraqları ayrıca dəyərləndirilir.

Hazırkı hakimiyyət isə Karapetyanı iqtisadi sahədə uzun illər toxunulmaz qalmış və dövlət nəzarətindən kənarda işləyən strukturlardan biri kimi təqdim edir. Ona qarşı irəli sürülmüş ittihamların yalnız məhkəmə çərçivəsində yox, həm də siyasi müstəvidə rezonans doğurması ölkədə oliqarx sisteminin hələ də tamamilə parçalanmadığını göstərir. Bu mənzərə Ermənistanın transformasiya modelinin yarımçıq olduğunu nümayiş etdirir. Karapetyanın müraciəti həm daxili müxalif qüvvələrin koordinasiyasında, həm də hakimiyyətin daxili dayaqlarını sarsıtmaq cəhdində əsas komponentə çevrilə bilər. Onun çağırışı yalnız emosional deyil, həm də siyasi dinamikanı dəyişdirmək niyyəti daşıyır. Bu proses fonunda ölkədə yeni qarşıdurma dalğası ehtimalı artır.

**Politoloq İlqar Vəlizadə** XQ-yə açıqlamasında bildirdi ki, S.Karapetyanın müraciəti sıradan bir emosional çıxış deyil. Onun sözlərinə görə, bu, Ermənistanın siyasi sistemində oliqarx gücünün yenidən formalaşması cəhdi kimi qəbul edilir: "Onun tonunda hiss olunan özünəinam və hakimiyyətin ömrünə konkret zaman qoyması göstərir ki,



proseslər əvvəlcədən planlaşdırılmış xətt üzrə gedir. Karapetyanın iqtisadi resurslara, media kanallarına və xarici əlaqələrə çıxışı onu müxalifət daxilində mühüm aktora çevirir. Zənnimcə, Karapetyanın Rusiya ilə sıx iqtisadi bağları nəzərə alınanda onun ismarışının təkcə daxili auditoriyaya ünvanlanmadığı ehtimalı güclənir. Bu çağırış həm də regional güclərə, xüsusən Moskvanın siyasi dairələrinə yönəlmiş ola bilər. Ermənistan daxilində radikal qrupların aktivləşməsi, kütləvi aksiyaların planlaşdırılması və məhkəmə proseslərinin siyasi çalara bürünməsi ölkədə sabitliyin yenidən pozula biləcəyini göstərir. Hakimiyyətlə oliqarx strukturlarının qarşıdurması dərinləşərsə, bu, həm siyasi, həm də iqtisadi riskləri artıracaq".

Ekspert hesab edir ki, Karapetyanın müraciətində ədalətin bərpası, ləyaqətin qələbəsi kimi ifadələr siyasi texnologiya elementləridir və cəmiyyətin emosional reaksiyasını gücləndirməyə hesablanıb: "Bu ismarışın arxasında real siyasi proqram və ya islahat konsepsiyası görünmür. Məqsəd mövcud hakimiyyətə təzyiqi artırmaq və özünü müxalif düşərgənin əsas simasına çevirməkdir. Hazırkı durumda Ermənistan qarşıdakı aylarda güclü siyasi çalxantılar mərhələsinə qədəm qoya bilər. Həm iqtidarın, həm də müxalifət cinahının addımları gərginliyin səviyyəsini müəyyən edəcək. Karapetyanın ismarışı isə bu prosesdə katalizator rolunu oynaya biləcək amillərdən biridir".

***Səxavət HƏMİD***
***XQ***

# Brüssel Tbilisi ilə dialoqdan qaçdı

**Avropa İttifaqı (Aİ) Gürcüstanla insan hüquqları üzrə dialoqun növbəti iclasını qeyri-müəyyən müddətə təxirə salıb. Tbilisi insan hüquqları üzrə Gürcüstan–Aİ dialoqunu münasibətlərin bərpası və mövcud iradların müzakirəsi üçün vacib imkan kimi görürdü.**



Amma ümidlər özünü doğrultmadı. Gürcüstan Xarici İşlər Nazirliyinin məlumatına görə, Brüssel bu dialoqu təxirə salmaqla Tbilisinin əsaslandırılmış mövqeyini dinləməyə hazır olmadığını göstərdi. Görüşün təxirə salınması üçün irəli sürülən səbəblər isə qəbuledilməz və əsassızdır və bu, prosesdən siyasi spekulyasiya məqsədilə istifadə olunduğuna dair şübhələr yaradır. Çünki Aİ-nin Xarici Fəaliyyət Xidməti görüşün keçirilməsinə maraq göstərməyib, siyasi dialoqun davam etdirilməsinə dair arqumentləri dinləmək niyyətində olmayıb. O da bildirilib ki, Gürcüstan tərəfi qeyd olunan görüş üçün geniş hazırlıq görüb, gündəlikdəki məsələlər üzrə Aİ-yə ətraflı məlumat təqdim etmək məqsədilə nümayəndə heyətinin tərkibini aidiyyəti qurumlardan formalaşdırıb.

Beləliklə, Brüsselin görüşü təxirə salması Tbilisi tərəfindən tərəfdaşlıq ruhuna zidd addım kimi qiymətləndirilib. Gürcüstan XİN vurğulayıb ki, Aİ "Gürcü arzusu" hökuməti ilə hər hansı bir əlaqədən imtina etmək mövqeyini davam etdirir. Bununla belə, Tbilisi hesab edir ki, dialoqun alternativi yoxdur. Buna görə də Aİ ilə müxtəlif istiqamətlər üzrə danışıqlar formatlarında iştirak yalnız dayandırılmış dialoq tam bərpa edildikdən sonra mümkün olacaq.

Baş nazir İrakli Kobaxidze məsələ ilə bağlı sərt mövqe ifadə edərək Brüsselin qərarını "müzakirədən yayınmaq cəhdi" adlandırıb. O, "İmedi" telekanalına müsahibəsində bildirib ki, Gürcüstan nümayəndə heyətinin tərkibini əvvəlcədən açıqlamışdı, lakin Aİ tərəfi heyətdə sanksiyaya məruz qaldığı iddia edilən şəxsin olması səbəbilə görüşdən imtina edib. Kobaxidzenin sözlərinə görə, həmin şəxs yalnız Estoniya Xarici İşlər Nazirliyinin qərarı ilə məhdudiyyətə məruz qalıb və Aİ səviyyəsində ona qarşı hər hansı sanksiya mövcud deyil.

Gürcüstan mediasının məlumatından aydın olur ki, söhbət bir müddət əvvəl Estoniyanın ölkəyə girişini qadağan etdiyi daxili işlər nazirinin müavini Aleksandr Daraxvelidzedən gedir.

Kobaxidze Aİ-ni "pis niyyətlərdə" və Gürcüstana "çirkli pul" ötürmək cəhdlərində günahlandıraraq Avropa Komissarı Marta Kosun Gürcüstanda vətəndaş cəmiyyətinə maliyyə dəstəyi üçün yeni yollar axtardığını deyib. O bildirib ki, dialoqdan imtinanın fonunda bu niyyət Aİ-nin ölkədə "inqilab etməyə çalışdığını" göstərir: "Biz onların Gürcüstanda beş dəfə inqilab təşkil etməyə cəhdini görmüşük. Onlar yenidən iğtişaş yaratmaq və bunun üçün qeyri-leqal pul ötürmək istəyirlər. Dövlət isə öz maraqlarını qoruyacaq... Viza liberallaşdırılması isə hələ də istifadə olunmamış yeganə vasitə olaraq qalır. Amma onun istifadəsi yalnız Milli Hərəkatın hakimiyyətə qayıtmasını təmin etdiyi təqdirdə məntiqli olar".

Onu da qeyd edək ki, bu il Gürcüstan hökuməti yeni qanun qəbul edib. Bu qanuna görə, televiziya və radio yayımçılarına xaricdən maliyyə yardımı almaq qəti qadağandır. QHT-lər isə aldıqları dövlət qrantlarını hökumətlə koordinasiya etməlidir. Yada salaq ki, Marta Kos açıqlamasında qeyd edib ki, şərtlər çətinləşsə də, Aİ Gürcüstandakı vətəndaş cəmiyyəti institutlarına dəstəyi artırmaq niyyətindədir. Onun sözlərinə görə, hökumət kimlərin xaricdən maliyyə aldığını ciddi izlədiyi üçün, Ai dəstəyi elə bölüşdürmək istəyir ki, alıcılar risk altında qalmasın.

Məsələ ilə bağlı **Gürcüstanın Azərbaycanlı Ağsaqqallar Şurasının sədri, sabiq deputat İsak Novruzov** XQ-yə bildirdi ki, Brüsselin insan hüquqları üzrə Gürcüstan–Aİ dialoqunu təxirə salması nə diplomatik baxımdan əsaslandırılmış addım, nə də tərəfdaşlıq ruhuna uyğun davranışdır: "Aİ 2024-cü ilin iyununda qəbul etdiyi dialoqu dayandırmaqla bağlı qərarla situasiyanı gərginləşdirib və indi də tərəflər arasında mövcud narahatlıqların açıq müzakirəsi üçün yeganə olan platformanı məqsədyönlü şəkildə bloklayır. Görüşün ləğv edilməsinin səbəbi kimi bir nümayəndənin Estoniya tərəfindən tətbiq olunan məhdudiyyətlərə istinad edilməsi nə hüquqi, nə də siyasi baxımdan doğrudur. Çünki həmin şəxsə qarşı Aİ səviyyəsində heç bir sanksiya mövcud deyil və bu arqument, sadəcə, müzakirədən yayınmaq üçün bəhanədir. Bu, Aİ-nin Xarici Fəaliyyət Xidmətinin prosesə səmimi yanaşmadığını göstərir".

İsak Novruzovun qənaətinə görə, Aİ Gürcüstanla bağlı mövqeyini obyektiv faktlar üzərində deyil, birtərəfli siyasi narrativlər əsasında formalaşdırmağa meyillidir və dialoqdan imtina bu meylin ən açıq təzahürüdür: "Halbuki Gürcüstan tərəfi görüşə ciddi hazırlıq görmüş, iradların və tənqidlərin şəffaf müzakirəsi üçün zəruri bütün məlumatları təqdim etməyə hazır idi. Aİ-nin bu addımı yalnız tərəfdaşlıqdan uzaq davranış deyil, həm də Avropa institutlarının regionda balanslaşdırılmış siyasətə sadiqliyi ilə bağlı suallar yaradır. Ölkə Avropa ilə münasibətlərdə konstruktiv kursu davam etdirir, lakin Brüsselin dialoqu bərpa etmədən digər formatlarda əməkdaşlıq tələb etməsi qəbulolunan deyil".

Sabiq debutat onu da dedi ki, rəsmi Tbilisi daxil siyasətdə sabitlik mesajlarını gücləndirir: "Baş nazir İrakli Kobaxidzenin seçkilərin məhz 2028-ci ildə keçiriləcəyini bir daha təsdiqləməsi hakimiyyətin konstitusion çərçivəyə sadiqliyini və daxili sabitliyi prioritet saydığını göstərir. Bu, həm ölkə daxilində, həm də beynəlxalq tərəfdaşlar üçün aydın mesajdır: Gürcüstan siyasi proseslərini xarici təzyiq və spekulyativ iddialar əsasında deyil, hüquqi çərçivələr əsasında idarə edir.

Tbilisi səmimi və açıq dialoqa həmişə hazırdır, lakin bu dialoqun dayandırılması və ya manipulyativ şəkildə təxirə salınması Aİ tərəfindən siyasi alət kimi istifadə olunmamalıdır. Gürcüstan tərəfi tərəfdaşlıq prinsiplərinə sadiq qalaraq dialoqun bərpasını gözləyir və



bu prosesin gələcək əməkdaşlığın yeganə sağlam yolu olduğunu vurğulayır".

**Demokratik Azərbaycan Naminə Gənclərin İctimai Birliyinin sədri Elməddin Behbud** XQ-yə bildirdi ki, son dövrlər Aİ ilə Gürcüstan arasında dialoqun başlanması və soyuyan münasibətlərin bərpası ilə bağlı müəyyən addımlar atılacağı gözlənilirdi. Gürcüstan buna hazırlaşmışdı. Artıq gündəlik müəyyən olunmuş, işçi qrupu da yaradılmışdı. Münasibətlərin normallaşdırılması üçün zəruri məsələlər də gündəliyə salınmışdı. Ancaq hər iki tərəfin özünəməxsus narrativləri var. Onlar bu məsələyə fərqli prizmadan baxırlar. Aİ vətəndaş cəmiyyətləri, o cümlədən media və QHT-lər vasitəsilə Gürcüstanın daxili və xarici siyasətinə yön vermək üçün təsir imkanlarını qoruyub saxlamağı düşünür. Buna görə də vətəndaş cəmiyyəti institutlarına açıq və qeyri-şəffaf şəkildə maliyyə yardımı göstərməsi ilə bağlı hansısa məhdudiyyəti qəbul etmir. Gürcüstan isə bu məsələdə məhdudiyyətlərin zərurətdən irəli gəldiyini bildirir və mövqeyindən geri çəkilmək istəmir. Hazırkı gərginliyin səbəbi də budur. Əlbəttə, konstruktiv mövqe sərgiləyən Gürcüstan haqlı olaraq milli maraqlarından çıxış edir. Aİ isə bu məsələdə güzəşt istəyir. Aİ birmənalı şəkildə, hətta az qala imperativ səviyyədə diktəedici güc kimi mövqeyini qoruyub saxlamağa çalışır. Qarşı tərəf isə bunu qəbul etmir. Belə başa düşürəm ki, yaxın gələcəkdə münasibətlərin normallaşması mümkün deyil.

Sonda onu da qeyd edək ki, Gürcüstan məsələsi Aİ Xarici İşlər Nazirliyinin bugünkü görüşünün gündəliyinə daxil edilməyib, lakin mövzu ilə bağlı qeyri-rəsmi müzakirələr mümkündür.

Xatırladaq ki, Gürcüstan Aİ-yə daxil olmaq üçün namizəd ölkədir. Tbilisi bu statusu 2023-cü ilin dekabr ayında alıb və Brüssel ilə Assosiasiya Sazişi imzalayıb. 2017-ci ildən bəri vətəndaşlar vizasız səyahətdən yararlanıblar. Gürcüstanın inteqrasiya prosesini davam etdirmək üçün doqquz əlavə şərt elan edilib. Bunlara qütbləşmənin aradan qaldırılması, oliqarxsızlaşma, azad və rəqabətli seçkilərin təmin edilməsi və digərləri daxildir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Alison Huker, səfir Morqentau və “qızıl xaçlı Barton”

## *Yaxud keçmişin “erməni nağılları”ndan uzaq durmaq zərurəti*

**ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Huker Azərbaycana səfəri çərçivəsində Şəhidlər xiyabanını ziyarət etdi. O, əvvəlcə Ermənistanda səfərdə olmuşdu və görünür, paritet yaratmaq istəyib. Nəzərə alaq ki, xanım Huker İrəvanda “erməni soyqırımı” memorial kompleksi adlandırılan məkana baş çəkmişdi.**

Amerikalı qonaq və onu müşayiət edən şəxslər həmin kompleksdəki məşəlin üzərinə gül dəstələri qoymuş, daha sonra əraziyə baxış keçirmişdilər. Qonaqlar, həmçinin ABŞ-ın Osmanlıda səfiri olmuş Henri Morqentau və Amerika Qızıl Xaçının təsisçisi Klara Bartonun xatirə lövhələri önündə də dayanmışdılar. Sual olunur: Görəsən, H.Morqentau və K.Barton nə iş görüblər ki, kompleksdə onlara məxsus xatirə lövhələri yer alır? Yazımızda bu barədə söz açacağıq. Amma məqsədimiz başqadır və ona sonda aydınlıq gələcək.

*

Beləliklə, 1856-cı ildə Almaniyada anadan olmuş, sonra ABŞ-a köçmüş yəhudi əsilli iş adamı və diplomat H.Morqentau Prezident Vudro Vilson tərəfindən Vaşinqtonun Osmanlıdakı səfiri vəzifəsinə təyin edilib və 1913-1916-cı illərdə bu postu tutub. O illərdə ki, “erməni soyqırımı” yaşanmışdı. Sən demə, səfir qondarma olayın şahidi olubmuş. Ancaq onun qeydlərində “soyqırımı” ifadəsinə rast gəlinmir.

Əlbəttə, H.Morqentaunun “soyqırımı” anlamını yazıya çevirməməsi həmin vaxt bu ifadənin termin kimi dövriyyəyə daxil olmaması ilə bağlıdır. Hərçənd, onu da bilirik ki, hazırda ABŞ-da ötən əsrin əvvəllərində Osmanlıda yaşananların məhz Morqentaunun bildirdiyi kimi, yəni böyük qırğın və deportasiya olaraq qiymətləndirilməsi ritorikası populyardır. Birləşmiş Ştatlar prezidentlərinin bir çoxu nitqlərində “soyqırımı” kəlməsini işlətmirlər. Baxmayaraq ki, ölkənin bəzi ştatları qondarma iddianı rəsmən tanıyıblar.

Deməli, səfir Morqentau diplomatik missiyasını yerinə yetirdiyi vaxtlarda ermənilərin deportasiyası və kütləvi qırğını ilə bağlı bilgiləri məlumat halına salaraq Vaşinqtona göndərib və məsələnin ABŞ hökumətində müzakirəyə çıxarılmasına çalışıb. O da bildirilir ki, diplomat Osmanlının daxili işlər naziri Tələt Paşa ilə görüşlərində hayların başlarına gələnlərə etirazını çatdırıbmış. Bu azmış kimi, səfir öz ölkəsində yaradılmış “Near East Relief” (Yaxın Şərqə Yardım) təşkilatının formalaşmasına böyük dəstək veribmiş. Bu təşkilat isə Birinci Dünya müharibəsindən sonra ermənilərin qayğısına qalıb, xilas proqramlarını reallaşdıran quruma çevrilib.

Yeri gəlmişkən, yazılı mənbələrdə Morqentaunun Tələt Paşa ilə dialoqlarına rast gəlinir. Əlbəttə, yazılı mənbə dedikdə, söhbət səfirin öz qeydlərindən gedir ki, onlar kitab şəklində çap edilib. Dialoqlarda isə, bir qayda olaraq, səfir Osmanlının XİN rəhbərini “ermənilərin başına gətirilmiş fəlakətlərə” görə qınayır.

Əslində, Tələt Paşanın Morqentaunun “mən bəşəriyyəti təmsil edirəm” pafosuna cavabında dilə gətirdiyi “bu bizim daxili işimizdir” fikri tam yerindədir. Çünki Osmanlı dövlətinin rəsmisi ABŞ-da yaşayan hansısa millətin nümayəndələrinin ölkənin bir yerindən o biri yerinə köçürülməsinə etiraz etmirdi. Yəni Morqentau da belə davranmamalı, özünü cəfakeş cildində göstərməməli idi. Nəzərə alaq ki, ona dəfələrlə diplomatik səlahiyyətlərini aşdığına görə xəbərdarlıq edilib və nəhayət, 1916-cı ildə geri çağırılmasının səbəbi məhz bu olub.

Maraqlıdır ki, səfir Morqentau Tələt Paşa ilə dialoqlarında, bir qayda olaraq, XİN rəhbərinə ancaq irad bildirir. Təxminən belə: bu insanlar, yəni ermənilər sizin vətəndaşlarınızdır. Nə üçün fəlakətlə üzləşirlər? Tələt Paşa isə, bir qayda olaraq, diplomata təmsil etdiyi dövlətin erməni məsələsinə münasibətinin qəti olduğunu, heç bir geridönüşə fürsət verilməyəcəyini vurğulayır. Sual yaranır: nə üçün Morqentau erməni əhalinin köçürülmə səbəblərindən söz açmır?

*

Keçək ABŞ rəsmisi Alison Hukerin İrəvandakı “erməni soyqırımı” memorial kompleksində baş çəkdiyi ikinci xatirə



lövhəsində adı yer alan Amerika Qızıl Xaçının təsisçisi Klara Bartonun fəaliyyətinə. Deməli, xanım Barton 1896-1897-ci illərdə “Osmanlıda ermənilərə qarşı baş vermiş qırğınlardan sonra” onlara humanitar yardım missiyası həyata keçiribmiş. O da bildirilir ki, Barton həmin illərdə Şərqi Anadoluda geniş zorakılıqlar, dağıntılar və humanitar böhran yaşandığı vaxtlarda ABŞ-da ermənilər üçün yardım toplama kampaniyası başladıbmış.

Sən demə, Barton Amerika Qızıl Xaçının prezidenti olaraq şəxsən Osmanlıya getməyi öhdəsinə götürüb və təxminən 50 mindən çox erməniyə humanitar yardım edibmiş. Yardıma ərzaq paylanması, tibbi xidmət, xəstə və yaralıların müalicəsi, qadınlar və kimsəsizlər üçün sığınacaqların təşkili, tikiş emalatxanalarının və məktəblərin ləvazimatla təminatı daxil imiş. K.Barton özü də yazırmış ki, “biz məhv olmuş kəndlərin qadın və uşaqlarını aclıqdan xilas etmək üçün çalışırdıq”. O, ABŞ-a geri döndükdən sonra Konqresdə çıxışlar edir, xüsusi hesabatlar hazırlayır və guya, “ermənilərin üzləşdikləri humanitar böhranı” Amerika ictimaiyyətinə çatdırırmış.

*

İndi isə bu yazını qələməalma səbəbinə keçid alaq. Əlbəttə, ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Hukerə həm səfir Morqentaunun, həm də Bartonun fəaliyyətinin nədən ibarət olduğu yaxşı məlumdur. O da məlumdur ki, Birləşmiş Ştatlar rəsmisinin İrəvanda keçirdiyi görüşlərdə başlıca mövzu Ermənistanla Azərbaycan arasındakı sülhün reallaşması, bu il avqustun 8-də tərəflərin Vaşinqtonda Prezident Donald Trampın şahidliyi ilə imzaladıqları Birgə Bəyannamənin icrası ilə bağlı məsələlər, o cümlədən Ermənistan–Türkiyə normallaşması olub.

Biz onun yolunu “erməni soyqırımı” memorial kompleksindən salması ilə səfərinin məğzi arasında tərs mütənasibliyi görürük. Axı qondarma “erməni soyqırımı” məsələsinin həm Türkiyəyə, həm də Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə edilməsindən xəbərdarıq.

Azərbaycanın yurisdiksiyası altında yaşamaq istəməyən ermənilərin Qarabağdan könüllü köçünü indinin özündə belə “soyqırımı” kimi qiymətləndirənlər tapılırsa və bu xüsusda ölkəmizə ittihamlar yağdırılırsa, deməli, Cənubi Qafqazda sülh prosesindən danışırkən, mövzuya həssas yanaşılmalı, bütün detallar nəzərə alınmalıdır. Onu da demək istəmirik ki, Birləşmiş Ştatlar həssaslıq göstərmir. Hər halda, “erməni soyqırımı” memorial kompleksini ziyarətin protokol qaydasında həyata keçirildiyinin fərqindəyik.

Ermənistanın baş naziri Nikol Paşinyanın “erməni soyqırımı” ilə bağlı fikirlərindən də xəbərdarıq. O fikirlərindən ki, onlarda məsələnin daha çox qızışdırıcı mahiyyət daşıdığına açıq olmasa da, qapalı eyhamlar var. Elə isə xaricdən Ermənistana gələn rəsmi şəxsləri həmin abidənin önünə aparmaq nə deməkdir? Axı əlahəzrət tarix var. Tarixdən isə məlumdur ki, Birinci Dünya müharibəsi dönəmində erməni məsələsi müharibə aparan Osmanlıya arxadan zərbə endirmək üçün Qərb dairələri tərəfindən işə salınmış siyasi oyun idi. O oyun ki, onu pozmaq üçün ermənilərin köçürülməsindən başqa yol qalmamışdı. Yəni Tələt Paşanın Morqentauya sərt cavabı həm də buna görə yerinə düşürdü.

Aydındır ki, Osmanlıya qarşı terror aktları, sui-qəsdlər hazırlayanlar sadə ermənilərin içindən çıxırdılar. Həmin dövrdə haqqı nahaqdan ayırmaq, sadəcə, mümkün deyildi. Buna heç vaxt da yox idi, çünki savaş gedirdi. Amma Morqentaudan fərqli olaraq, XIX əsrin sonu, XX əsrin əvvəllərində çar Rusiyasının Van və Ərzurumdakı baş konsulu olmuş Mayevski erməni terror qruplaşmalarının Qərbin təhriki ilə hərəkətə keçdiklərindən, mənfur əməllər törətdiklərindən, yaşadıqları dövlətə xəyanət yolu tutduqlarından yazır, Osmanlının onlara münasibətdə qəti addımlar atmasının səbəblərini açıqlayırdı.

Sözümüzün canı odur ki, tarix boyu erməni xalqı ya rus, ya da Qərb imperializminin alətinə çevrilib. Üzləşdiyi bütün xoşagəlməz durumlar bundan qaynaqlanıb. Sadə ermənilər məhz alətə çevrildikləri üçün Qarabağda qərar tutub yaşaya bilmədilər. İndi bu xalqın rahat yaşamaq şansı yaranıb. Yəni şansa həm paşinyanlı rəsmi İrəvan, həm də Cənubi Qafqazda davamlı sülhün əldə edilməsində maraqlı olduqlarını bildirən tərəflər kompleks yanaşmalı, keçmişin mənfi stereotiplərini, uydurulmuş hekayələrini kənara qoymalı, mənasız sentimentallığın daşını atmalıdırlar.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İdeyalar müstəvisində strateji dərinlik



**(əvvəli 1-ci səhifədə)**

Bakıda ABŞ-ın aparıcı təhlil mərkəzlərinin iştirakı ilə baş tutan yüksək səviyyəli müzakirələr və əqli mülkiyyət kimi mühüm sahədə əməkdaşlığın genişləndirilməsi tərəfdaşlığın neft-qaz və hərbi-logistik əməkdaşlıq kimi klassik sütunlarından daha mürəkkəb, daha dayanıqlı və gələcəyə hesablanmış intellektual müstəviyə keçidini simvolizə edir. Cənubi Qafqazda hərbi-siyasi iradəsi ilə yeni reallıqlar yaradan ölkəmiz indi həmin reallıqların analitik və konseptual memarlığını həyata keçirir.

Bu intellektual yaxınlaşmanın tarixi əhəmiyyətini dərk etmək üçün son otuz ildəki informasiya-analitik mühitə nəzər salmaq kifayətdir. İşğal dövründə Azərbaycan Qərbdəki, xüsusən ABŞ-dakı bir çox beyin mərkəzlərinin fəaliyyətində əksər hallarda passiv təhlil obyekti kimi mövcud idi. Erməni diasporunun maliyyə və siyasi təsiri altında olan bəzi analitik dairələr Qarabağ münaqişəsi ilə bağlı reallıqları sistematik şəkildə təhrif edir, Azərbaycanın haqlı mövqeyini kölgədə qoyur və Ağ Evin siyasi isteblişmenti üçün yalan məlumatlara söykənən təhlillər hazırlayırdılar. Rəsmi Bakının informasiya müharibəsində müdafiə mövqeyində durması milli maraqları Vaşinqtonun qərar qəbuletmə mərkəzlərinə birbaşa və təhrif olunmamış şəkildə çatdırmaqda ciddi çətinliklər yaradırdı. 2020-ci il Vətən müharibəsi və ardınca bütün ərazilər üzərində suverenliyin tam bərpası həm də informasiya-analitik məkanda dönüş oldu. Məhz bu şəraitdə Vaşinqtonda Cənubi Qafqazı anlamaq üçün yeni, etibarlı və birbaşa mənbələrə ehtiyac kəskin şəkildə artdı.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi kimi yeni nəsil Azərbaycan beyin mərkəzlərinin yaradılması və fəallaşması tarixi zərurətə cavab idi. ABŞ-ın aparıcı təhlil mərkəzləri ilə Bakıda qurulan birbaşa dialoq artıq münasibətlərin birtərəfli axın formatından çıxdığını, Azərbaycanın ABŞ-ın analitik elitası ilə bərabərhüquqlu tərəfdaş kimi danışıqlar apardığını və regionla bağlı narrativi müəyyən etməkdə təşəbbüsü ələ aldığını göstərən dönüş nöqtəsidir.

*

Tərəfdaşlığın strateji dərinliyini anlamaq xüsusi əhəmiyyət kəsb edir. İlk baxışda texniki görünən “əqli mülkiyyət sahəsində əməkdaşlıq” məsələsi, əslində, münasibətlərin gələcək inkişaf vektorunu müəyyən edən mövzudur. Əqli mülkiyyət hüquqlarının qorunması müasir, innovasiyalara əsaslanan və rəqabətədavamlı iqtisadiyyatın təməl daşıdır. ABŞ üçün yerli şirkətlərin intellektual mülkiyyətinin xarici ölkələrdə qorunması milli təhlükəsizlik və iqtisadi rifah məsələsidir. Hər hansı ölkə ilə dərin iqtisadi tərəfdaşlığa getməzdən əvvəl Vaşinqtonun diqqət yetirdiyi əsas şərtlərdən biri həmin ölkədə əqli mülkiyyət hüquqlarının hansı səviyyədə qorunmasıdır. Azərbaycanın bu mövzunu ABŞ-ın beyin mərkəzləri ilə müzakirəyə çıxarması bir neçə strateji mesaj verir. Birincisi, Azərbaycan bəyan edir ki, iqtisadiyyatını neft və qaz asılılığından xilas edərək yüksək texnologiyalara, innovasiyalara və bilik iqtisadiyyatına əsaslanan yeni inkişaf modelinə keçməkdə qərarlıdır. Belə model güclü əqli mülkiyyətin müdafiəsi olmadan mümkün deyil. İkincisi, Bakı ABŞ və Qərb şirkətlərinə aydın siqnal göndərir ki, Azərbaycan onların investisiyaları, xüsusən texnologiya sahəsindəki yatırımları üçün təhlükəsiz və proqnozlaşdırılabilən mühit yaratmağa hazırdır. Bu proses gələcəkdə qeyri-neft sektoruna, o cümlədən İKT, “yaşıl enerji” texnologiyaları və müdafiə sənayesi kimi sahələrə ABŞ investisiyalarının cəlb edilməsi üçün zəmin yaradır. Üçüncüsü, Azərbaycanın qlobal iqtisadiyyatın qaydalarına uyğunlaşdığını və Ümumdünya Ticarət Təşkilatına üzvlük kimi proseslərdə daha fəal mövqe nümayiş etdirməyə hazır olduğunu göstərir.

Təbii ki, analitik mərkəzlər arasındakı dialoq təkcə əqli mülkiyyət mövzusu ilə məhdudlaşmır. İkitərəfli münasibətlərin bütün spektrini və regional geosiyasətin ən aktual məsələlərini əhatə edir. Azərbaycanın Zəfərindən sonra regionda yaranmış yeni hərbi-siyasi reallıq köhnə təhlükəsizlik paradiqmalarını tamamilə yararsız hala salıb. Rusiya sülhməramlılarının bölgədən çıxması, Ermənistanla sərhədlərin delimitasiyası prosesinin başlaması və sülh müqaviləsi üzrə danışıqlar regionda yeni təhlükəsizlik nizamının formalaşdığını göstərir. ABŞ-ın siyasi dairələri üçün yeni nizamın memarlığını, potensial risklərini və imkanlarını anlamaq həyati əhəmiyyət kəsb edir. Qurulan birbaşa dialoq platforması Azərbaycanın hadisələrə baxışını, qırmızı xətlərini və regional təhlükəsizliklə bağlı gələcək vizyonunu amerikalı analitiklərə çatdırmaq üçün ideal vasitədir. Qlobal geosiyasi rəqabətin kəskinləşdiyi şəraitdə Vaşinqton üçün Avrasiyada alternativ, etibarlı və rəqiblərin nəzarətindən kənar nəqliyyat marşrutlarının inkişaf etdirilməsi strateji prioritetə çevrilib. Mərkəzində Azərbaycanın dayandığı Orta Dəhliz məhz həmin strateji ehtiyaca cavab verir. İntellektual müzakirələr dəhlizin potensialını, üzləşdiyi çağırışları (infrastruktur, tarif siyasəti, təhlükəsizlik) və onun tam gücü ilə işləməsində Azərbaycan və ABŞ-ın birgə görə biləcəyi işləri müəyyənləşdirmək üçün əlverişli imkandır. ABŞ-ın analitik mərkəzləri və maliyyə institutlarının bu prosesə cəlb edilməsi dəhlizin inkişafı üçün zəruri olan beynəlxalq investisiyaların və siyasi dəstəyin təmin olunmasını sürətləndirə bilər. ABŞ–Azərbaycan tərəfdaşlığının əsas sütunu olan enerji əməkdaşlığı yeni dövrdə yeni məzmun qazanır. Avropanın Rusiya enerjisindən asılılığını azaltmaq cəhdləri fonunda Azərbaycanın qaz ixracının əhəmiyyəti daha da artır. Eyni zamanda, Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə və Xəzər dənizində böyük “yaşıl enerji” potensialını reallaşdırmaq istiqamətində atdığı addımlar ABŞ üçün yeni əməkdaşlıq üfüqləri açır. İntellektual əməkdaşlıq “yaşıl enerji” texnologiyalarının transferi, ABŞ şirkətlərinin bərpaolunan enerji layihələrinə cəlb edilməsi və Bakının Qərbin “yaşıl enerji təchizatçısına” çevrilməsi strategiyasını müzakirə etmək üçün əlverişli zəmin yaradır.

İnstitusional baxımdan dialoqun davamlı xarakter alması Azərbaycan və ABŞ arasında daimi fəaliyyət göstərən, qeyri-formal, lakin son dərəcə təsirli mexanizmin – “Track 2” (hökumətlərarası olmayan) diplomatiyasının təməlini qoyur. Bu mexanizm bir neçə səbəbə görə əhəmiyyətlidir. Birincisi, o, rəsmi diplomatik kanallarda mümkün olmayan daha açıq, səmimi və qeyri-formal fikir mübadiləsinə imkan verir. Beyin mərkəzlərinin nümayəndələri hökumət rəsmilərindən fərqli olaraq, daha cəsarətli ideyalar səsləndirə, həssas mövzuları müzakirə edə və potensial həll yolları üçün “beyin həmləsi” həyata keçirə bilərlər. İkincisi, həmin platforma Azərbaycanın mövqeyini və arqumentlərini birbaşa ABŞ-ın siyasi elitasına və ictimai rəyinə təsir göstərən insanlara çatdırmaq üçün effektiv vasitədir. Nüfuzlu ABŞ beyin mərkəzlərinin hesabatları və məqalələri Konqresdə, Dövlət Departamentində və Ağ Evdə diqqətlə oxunur. Onlarla birbaşa işləmək, anti-Azərbaycan dairələrinin təbliğatını neytrallaşdırmaq və Vaşinqtonda daha obyektiv və balanslı mövqeyin formalaşmasına nail olmaq üçün ən səmərəli yoldur. Üçüncüsü, bu, Azərbaycanın analitik potensialının gücləndirilməsinə, Qərbdəki təhlil metodologiyaları ilə tanışlığa və beynəlxalq səviyyədə rəqabət apara biləcək yeni nəsil xarici siyasət ekspertlərinin yetişdirilməsinə xidmət edir.

Azərbaycan Cənubi Qafqazda yaratdığı yeni reallığı təkcə hərbi gücü ilə qorumaqla kifayətlənmir, həm də onun intellektual və analitik təməllərini möhkəmləndirir. Bu, özünə inamlı, gələcəyə aydın baxışla irəliləyən və qlobal siyasətin qaydalarını anlamaqla yanaşı, həmin qaydaların formalaşmasında iştirak etmək iddiasında olan suveren dövlətin siyasətidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Ararat Mirzoyan Hakan Fidana cavabında nə deyir?





**(əvvəli 1-ci səhifədə)**

Beləliklə, Hakan Fidan demişdi ki, “əgər biz bu mərhələdə münasibətləri normallaşdırsaq, Ermənistanın Azərbaycanla sülh sazişini imzalaması üçün ən böyük səbəbini onun əlindən almış olarıq. Bu halda regionda dondurulmuş münaqişə ehtimalı ilə üzləşə bilərik. Biz bunu istəmirik”.

Mirzoyanın cavabı əsasən məhz bu fikrə münasibət üzərində qurulub. Türkiyə ilə diplomatik münasibətlərin qurulmasının və sərhədlərin açılmasının Ermənistan üçün vacibliyindən söz açan nazir “Armenpress”in sualını cavablandırarkən deyib ki, Azərbaycanla əldə olunmuş sülhün daha da institusionallaşdırılması az əhəmiyyət daşımır və ölkəsi həm Ankara, həm də Bakı ilə əlaqələr naminə səmimi səylər göstərir: “Bununla belə, bu iki komponentdən heç biri digərindən asılı deyil və əgər onların arasında mütləq şəkildə səbəb-nəticə əlaqəsi axtarılsa, belə nəticəyə gəlmək olar ki, Türkiyə ilə münasibətlərin tam normallaşması Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesinə mənfi deyil, müsbət təsir göstərə bilər”.

Qeyd edək ki, Ararat Mirzoyan regionda nəqliyyat infrastrukturunun açılması məsələsinə də toxunub. O bildirib ki, prosesin əsas prinsipləri avqustun 8-də Vaşinqtonda keçirilən sülh sammitində razılaşdırılıb. Erməni XİN rəhbəri həmin prinsiplərin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, suverenlik, yurisdiksiya, qarşılıqlılıq olduğunu xatırladıb: “Bu çərçivədə müəyyən edilmiş TRIPP marşrutu həm Azərbaycanın Naxçıvanla əlaqəsini təmin edəcək, həm də Ermənistanı digər ölkələrlə, daha geniş coğrafiyada isə regionları Ermənistan və Azərbaycan üzərindən birləşdirəcək. Ermənistan onun mümkün qədər tez reallaşması üçün fəal səylər göstərir”.

Xatırladaq ki, Hakan Fidan üç gün əvvəl Türkiyə Böyük Millət Məclisinin Plan və Büdcə Komitəsində rəhbərlik etdiyi qurumun 2026-cı il büdcəsinin müzakirəsi zamanı deputatların suallarını cavablandırarkən, Ermənistanla normallaşma prosesinə toxunmuşdu. Nazirin sözlərindən belə qənaət hasil olmuşdu ki, İrəvan sülh gündəmi ilə bağlı üzərinə götürdüyü öhdəliyi tam yerinə yetirməlidir: “Bu məsələlər həll edildikdən və Azərbaycan yekun sazişi imzaladıqdan sonra Türkiyə Ermənistanla sərhəd qapılarını açacaq”.

***

Ancaq göründüyü kimi, rəsmi İrəvan Ermənistan–Türkiyə münasibətlərini, Ermənistan–Azərbaycan münasibətlərindən ayrı tutur. Hər halda, ermənilərin baş diplomatının dediklərindən gəlinən nəticə bunu deməyə əsas verir. Çünki Mirzoyan Ermənistanın Türkiyə ilə münasibətlərinin normallaşmasının İrəvanın Bakı ilə əlaqələrində də müsbət dinamika yarada biləcəyi qənaətinə gəlir. Əslində, buna qənaət demək bir o qədər yerinə düşmür. Erməni nazir müəyyən mənada, şərt dili ilə danışır. Təxminən belə: Ankara Ermənistanın Azərbaycanla münasibətlərini yaxşılaşdırmaq və sülh quruculuğuna töhfə vermək istəyirsə, İrəvanla normallaşma prosesinə getməlidir. Halbuki, Hakan Fidan məsələni fərqli qoymuşdu. Türkiyəli nazir, faktiki olaraq, bildirmişdi ki, Ermənistan üçün Türkiyə iqtisadi planda vacibdir və bu vacibliyin dividend qazandırmasını istəyənlər İrəvanın Bakı ilə sülhə gəlməsinə çalışmalıdırlar.

Bütün bunlara diqqət yetirərkən ortaya sual çıxır: Nəyə görə Türkiyə–Ermənistan sərhədləri bağlıdır? Əlbəttə, sualımız ritorikdir. Çünki səbəb Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və işğalın davamlı xarakter alması idi. Deməli, Ankaranın özündə təcavüz məntiqini daşıyan istənilən təmayüllərə cəbhə açmasında məntiq var. Axı, Azərbaycanla müttəfiqlik və qardaşlıq öz yerində, Türkiyə regionda davamlı və dayanıqlı sabitlikdə maraqlıdır ki, bunu Hakan Fidan da vurğulayıb.

Deməli, rəsmi İrəvan, o cümlədən Mirzoyan şərt dili ilə danışmaq üçün mənəvi ixtiyarın, habelə potensialın olmadığını unutmamalıdır. Unutmamalıdır ki, Ermənistan indiki məqamda özünün işğalçı keçmişini təmizləməyin qeydinə qalmalı, regionda inam və etimad qazanmağa çalışmalıdır. Bunun ən doğru yolu isə Azərbaycanın şərtlərini yerinə yetirərək sülh müqaviləsinin imzalanmasından keçir. Yəni həm də Hakan Fidanın Ankara–İrəvan normallaşması baxımından səsləndirdiyi şərtin yerinə yetirilməsindən.

***R.ƏVƏZ***
***XQ***

# Çin şirkəti Transxəzər Nəqliyyat Marşrutuna qoşuldu

## *Çin–Avropa Dəmir Yolu Forumunda Orta Dəhlizə strateji yanaşma*

**Çinin Si'an şəhərində keçirilən "Çin–Avropa Dəmir Yolu II Beynəlxalq Əməkdaşlıq Forumu"nda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TCITR) və Orta Dəhliz strategiyası əsas müzakirə mövzusuna çevrildi. Forum çərçivəsində Çin Dəmir Yollarının konteyner daşıma şirkəti CRCT Qazaxıstan, Azərbaycan və Gürcüstan dəmir yollarının ortaq müəssisəsi "Middle Corridor Multimodal Ltd"yə qoşulmaq barədə müqavilə imzaladı.**



Qazaxıstan və Çin prezidentləri Orta Dəhlizin inkişafını strateji prioritet kimi qəbul edir. Forumda həmçinin "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Sifarişli İnkişafı üzrə Birgə Təşəbbüs" sənədi imzalanaraq marşrutun rəqəmsal məlumat mübadiləsi, tarif siyasətinin yaxşılaşdırılması, infrastruktur yatırımının artırılması və "yaşıl logistika" prinsiplərinin tətbiqi ilə bağlı razılıq da əldə edildi. Ümumilikdə, iştirakçılar Asiya–Avropa ekspres dəmir yolunun səmərəliliyinin artırılmasını, yüklərin həcmcə genişləndirilməsini, müasir logistika sisteminin qurulmasını və multimodal nəqliyyat əlaqələrinin möhkəmləndirilməsini vacib hesab etdilər.

Orta Dəhliz, yəni TCITR, Çin–Qazaxıstan sərhədindən başlayaraq Qazaxıstan, Xəzər dənizi (Azərbaycan limanı vasitəsilə), Azərbaycan, Gürcüstan üzərindən Avropaya çıxan qısa və sürətli marşrutu əhatə edir. Bu koridor Mərkəzi Asiya və Avropa arasında quru bağlantısını təmin edən ən əlverişli marşrut sayılır və Azərbaycanın Rəşt–Əsfənd (Bakı) neft boru kəməri və Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu ilə birləşməsi sayəsində mühüm tranzit mərkəzinə çevrilir. Orta Dəhlizdən istifadə sürətlə artmaqdadır. Son 10 ildə Qazaxıstan ilə Çin arasında yük daşımaların həcmi 4,5 dəfə çoxalaraq rekord səviyyəyə çatıb və 2024-cü ildə 32 milyon tona yaxınlaşıb. Qazaxıstan və Çin arasında yük dövriyyəsinin 2025-ci ildə 35 milyon tona çatacağı proqnozlaşdırılır, bu ilin ilk 10 ayında artıq 29 milyon tonu ötüb və ötən ilin müvafiq dövrünə nisbətən 11 faiz artım qeydə alınıb. Konteyner daşımaları da kəskin artıb: Lianyungang, Xorqos, Si'an kimi logistika qovşaqlarında formalaşan mərkəzlərin sayəsində son 10 ildə konteyner tranziti beş dəfədən çox artaraq 1.4 milyon TEU-nu keçib.

Hazırda Orta Dəhliz üzrə çəkilən maneələrin aradan qaldırılması üçün Bakı limanında yeni intermodal terminallar, Qazaxıstan sərhədində isə dəmir yollarının genişləndirilməsi işləri davam edir. Məsələn, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı (Alat) və Qazaxıstanın Aktau/Kuryk limanlarının tranzit imkanları artırılır.

Orta Dəhliz həm də geopolitik baxımdan əhəmiyyətlidir. Şimal-Cənub nəqliyyat dəhlizində yaranan gərginliklər fonunda Qərb və Asiya arasında sanksiyalardan azad alternativ yol olaraq diqqəti çəkir. Bu marşrutla Avropa bazarlarına çıxan Çin şirkətləri üçün logistik xərclər azalır və çatdırılma vaxtı qısalır. Nəticədə Orta Dəhliz layihəsinin təşviqi Avrasiya logistika inteqrasiyasına təkan verir, qitələrarası ticarəti və investisiyaları artırır.

Orta Dəhlizdə Azərbaycan mərkəzi tranzit ölkə kimi çıxış edir. Bakı-Tbilisi-Qars dəmir yolunun reabilitasiyası və gücləndirilməsi sayəsində BTQ-nin ötürücülük qabiliyyəti 2019-cu ildə təxminən 1 milyon tondan 5 milyon tona çatdırılıb. Bu da ixrac-idxal həcmini artırmaqla Azərbaycana yeni tranzit yüklər cəlb edir və ərazisinin strateji rolunu gücləndirir. Eyni zamanda, Azərbaycan Xəzər dənizi vasitəsilə Türkiyə və Mərkəzi Asiya arasında quru körpüsü rolunu gücləndirir.

Azərbaycan liman infrastrukturu da sürətlə inkişaf etdirilir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inkşaf planına əsasən, ilk mərhələdə ümumi yük dövriyyəsi 15 milyon tona və konteyner tutumu 100 min TEU-ya yüksəldilib. İkinci mərhələnin tamamlanmasından sonra bu göstəricilər müvafiq olaraq 25 milyon tona və 500 min TEU-ya çatacaq. Xüsusilə, 2024-cü ilin noyabrında Azərbaycan, Qazaxıstan və Çin üçtərəfli investisiya şirkəti quraraq Bakı (Alat) limanında 40 hektarlıq intermodal terminal inşasına başladılar. Bu terminal konteyner tutumunu artıraraq Çin–Avropa marşrutunda konteyner qatarlarının həcmcə genişlənməsinə, xərclərin azalmasına və yüklərin yenidən yüklənmə müddətinin qısaldılmasına xidmət edəcək.

Azərbaycan hökuməti nəqliyyat-logistika infrastrukturuna yatırım üçün xarici sərmayəyə açıqdır. ADY və "Port of Baku" rəhbərliyi ilə Çin "Xi'an Free Trade Port" və Qazaxıstan Dəmir Yolları ilə çoxsaylı görüşlər keçirilmiş, yeni layihələr müzakirə olunmuşdur. Rəqəmsal informasiya sistemlərinin tətbiqi, tariflərin harmonizasiyası və "yaşıl logistika" təşəbbüsləri Azərbaycanın digər ölkələrlə birgə strateji layihələrdə prinsipial olaraq vurğulanır. Bütün bu tədbirlər Azərbaycanın Avrasiya nəqliyyat şəbəkəsinin mərkəzi hissəsi kimi etibarını və investisiya potensialını artırır.

Azərbaycan-Çin əməkdaşlığı da güclənir. Azərbaycan Dəmir Yolları (ADY) rəhbərliyi bildirir ki, Çin Azərbaycanın strateji ticarət tərəfdaşı olmaqla yanaşı, etibarlı logistika müttəfiqidir və ortaq multimodal layihələr bütün regionda yolların diversifikasiyasına və yüklərin artımına xidmət edir. Ticarət həcmləri ilə yanaşı, nəqliyyat axınlarında da artım müşahidə olunur. Qeyd edək ki, bu ilin yanvar-oktyabrında Azərbaycan dəmiryolu ilə 6 milyon tondan çox beynəlxalq yük daşımışdır. Azərbaycan-Qazaxıstan münasibətləri çərçivəsində Orta Dəhliz layihələrinə sərmayə qoyuluşu artmaqdadır. Bu, qarşılıqlı ticarət həcminin genişlənməsi ilə də müşayiət edilir. Məsələn, bu ilin 3 rübündə Azərbaycan Qazaxıstan bazarından buğda idxalını əhəmiyyətli dərəcədə artırmışdır. Həmçinin iki ölkə yeni yük tranzit imkanlarını gələcəkdə Zəngəzur dəhlizi kimi infrastruktur layihələri ilə prioritetləşdirir.

Nəticə etibarilə, Transxəzər Marşrutu üzrə beynəlxalq əməkdaşlıq və forumlarda əldə olunmuş razılıqlar Orta Dəhliz layihəsini yeni mərhələyə daşıyır. Azərbaycanın strategiyası nəqliyyat-logistika sahəsində investisiyaları genişləndirərək özünü Asiya ilə Avropa arasında əsas tranzit qovşağı kimi möhkəmləndirməkdir. Limanların, dəmiryollarının və multimodal terminal infrastrukturlarının genişlənməsi, habelə Qazaxıstan və Çinin birgə layihələri Azərbaycanın qlobal ticarət marşrutunda rolunu artırır. Bu amillər Azərbaycanın iqtisadi potensialını yüksəldir, xarici sərmayəni cəlb edir və Orta Dəhliz marşrutunun regional əhəmiyyətini gücləndirir.

***Nurlan ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



**Ruslan ATAKİŞİYEV,**
**İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, iqtisadiyyat üzrə fəlsəfə doktoru**

**Ümumiyyətlə, son dövrlərdə Azərbaycanın xarici iqtisadi fəaliyyətində görürük ki, Orta Asiyanın tranzit əhəmiyyəti daha da güclənir və Azərbaycan da, demək olar ki, artıq bu regionun bir hissəsi kimi bu istiqamətdə fəaliyyətini genişləndirir. Çünki Orta Asiya yaxın gələcəkdə qlobal ticarət və kommunikasiya baxımından strateji bir regiona çevriləcəkdir.**

Çin və Avropa bu bölgəyə artan diqqətlə yanaşır. Geniş miqyasda baxsaq, inkişaf perspektivləri və qarşılıqlı əlaqələr daha da dərinləşir. İki region arasında iqtisadi və ticarət münasibətləri güclənir, bunun fonunda isə Orta Dəhlizin rolu sürətlə artmaqdadır. Bu prosesdə dəmir yolu nəqliyyatının xüsusi çəkisi əhəmiyyətlidir.

Qeyd edim ki, TCITR-nin tranzit həcmi də ildən-ilə genişlənir. Ötən il Transxəzər marşrutu üzrə nəqliyyat həcmi 62 faiz artaraq 4.5 milyon tona çatıb. Bu həcm 2022-ci ildə 1.5 milyon tondan 2023-də 2.8 milyon tona yüksəlmişdi. Marşrutun gələcək potensialı böyükdür. Hökumətlər Orta Dəhliz vasitəsilə daşınan yük həcmini 2027-ci ilə 10 milyon tona, 2030-cu ilə 11 milyon tona çatdırmağı planlaşdırırlar.

Azərbaycanda da bu istiqamətdə son dövrlərdə dəmir yolu nəqliyyatı üzrə islahatlar həyata keçirilir. Xüsusilə, rels xətləri yenilənir, texniki imkanlar genişləndirilir ki, daşımalar həm daha sürətli, həm də təhlükəsiz və keyfiyyətli şəkildə həyata keçirilsin.

Çin–Avropa dəmir yolu marşrutunun Orta Asiyadan keçərək Azərbaycan üzərindən Avropa bazarlarına çıxarılması Azərbaycanın bu zəncirin əsas halqasına çevrilməsi deməkdir. Təbii ki, Çin və Qazaxıstan arasında yükdaşımaların 4,5 dəfə artması fonunda bu logistik axının Azərbaycana təsiri də nəzərəçarpacaqdır. Nəticə etibarilə, Azərbaycanın da daşımalar sahəsindəki həcmi və əhəmiyyəti artacaq, bu isə ölkəyə iqtisadi və strateji baxımdan əlavə üstünlüklər qazandıracaq.

# Asiyadan Avropaya polad körpü

## *"Dəmir İpək yolu"nun 18 yaşı tamam oldu*

**Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu layihəsi 1990-cı illərin sonu və 2000-ci illərin əvvəlində beynəlxalq nəqliyyat sistemində yaranan boşluğu doldurmaq məqsədilə ortaya atıb. Sovet İttifaqının dağılmasından sonra Qafqaz və Xəzər hövzəsi boyunca vahid dəmir yolu şəbəkəsində əlaqə itmişdi. Bu səbəbdən regionun Avropa ilə birbaşa dəmir yolu əlaqəsi, faktiki olaraq, yox idi. Ermənistan-Türkiyə sərhədinin bağlı olması səbəbindən bölgədə yeni bir alternativ marşruta ciddi ehtiyac yaranıb. Yüklərin Avropaya çıxışı yalnız dəniz yolu və ya uzun marşrutlar vasitəsilə mümkün olub. Bu proses vaxt və xərc baxımından əlverişli deyildi.**



Məhz bu şəraitdə Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirəcək yeni dəmir yolu xətti ideyası formalaşıb. Layihənin əsas təşəbbüskarlarından biri Azərbaycan Prezidenti İlham Əliyev olub. Dövlət başçısı layihənin reallaşması üçün ən fəal siyasi iradəni ortaya qoyub. Təşəbbüsün həyata keçməsi üçün Azərbaycan maliyyə və diplomatik baxımdan, eləcə də texniki hazırlıq prosesində aparıcı rol oynayıb. Gürcüstan və Türkiyə də layihəni dəstəkləyən əsas tərəfdaşlar kimi iştirak ediblər. Maliyyələşdirmə yükünün böyük hissəsini Azərbaycan öz üzərinə götürüb. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycanı Türkiyə ilə birləşdirməklə yanaşı, Türk dünyasının birliyi üçün də xüsusi önəm daşıyır.

21 noyabr Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin tarixində xüsusi yer tutur. 2007-ci ilin bu günündə Gürcüstanın Marabda qəsəbəsində layihənin təməlqoyma mərasimi keçirilib. Azərbaycan, Gürcüstan və Türkiyə liderlərinin iştirakı ilə keçirilən mərasim regionun nəqliyyat xəritəsində yeni dövrün başlandığını göstərdi. Həmin gündən etibarən Cənubi Qafqazı Türkiyə və Avropa ilə birləşdirən yeni dəmir yolu xəttinin inşasına start verilib.

Qeyd etmək lazımdır ki, BTQ-nin inşası ilə bağlı Azərbaycan, Gürcüstan və Türkiyə arasında son razılaşma 2007-ci il fevralın 8-də Tbilisidə imzalanıb. Azərbaycan xəttin Gürcüstan ərazisinə düşən seqmentinin inşası üçün bu ölkənin "Marabda-Kartsaxi Dəmir Yolları" MMC-nə güzəştli şərtlərlə - illik 1 faizlə, 25 illik müddətə 200 milyon ABŞ dolları həcmində kredit verib. Ayrılan bu maliyyə vəsaiti hesabına Gürcüstan ərazisində 29 kilometr uzunluğunda yeni yolun çəkilişi, Türkiyə sərhədində təkər dəyişmə stansiyasının tikintisi, eləcə də mövcud yolun yenilənməsi həyata keçirilib. Xatırladaq ki, layihənin ümumi dəyəri 600 milyon dollardan çoxdur.

BTQ dəmir yolu xəttinin rəsmi istifadəyə verilməsi 2017-ci il oktyabrın 30-a təsadüf etmişdi. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında keçirilən təntənəli mərasimdə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Qazaxıstanın Baş naziri Bakıtjan Saqintayev, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Özbəkistanın Baş naziri Abdulla Aripov, Tacikistan və Türkmənistan respublikalarından nümayəndə heyətləri mərasimdə iştirak etmişdilər.

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev demişdi: "Bir çoxları, xüsusilə bəzi xarici dairələr Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə inanmırdılar. Hesab edirdilər ki, bunun reallaşması mümkün deyil, bunun reallaşması üçün lazım olan texniki imkanlar və maliyyə vəsaiti imkan verməyəcək ki, bu layihə gerçəkləşdirilsin. Ancaq üç ölkə göstərdi və sübut etdi ki, bu, mümkündür. Bizim güclü iradəmiz, qarşılıqlı dəstək, bir-birimizə inam olan yerdə bütün işləri görmək mümkündür. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi bunun əyani misalıdır. Əminəm ki, regional əməkdaşlığa ən böyük töhfə verən ölkələr - Azərbaycan, Gürcüstan və Türkiyə bundan sonra da daim bir yerdə olacaqlar, bir-birini dəstəkləyəcəklər. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi kimi nəhəng layihələr bizim birliyimizi, dostluğumuzu daha da möhkəmləndirir".

Təxminən 850 kilometr uzunluğu olan magistralın 500 kilometrdən artıq hissəsi Azərbaycanın ərazisindən keçir. Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı marşrut kimi BTQ-nin fəaliyyəti Şərq-Qərb Beynəlxalq Nəqliyyat Dəhlizində ölkəmizin logistik potensialının genişlənməsinə səbəb olub. 2024-cü ilin may ayında BTQ-nin Gürcüstan hissəsində yenidənqurma və modernləşdirmə prosesi yekunlaşdırılıb və illik yükaşırma gücü 1 milyon tondan 5 milyon tona yüksəldilib. Azərbaycan Gürcüstana kredit ayırmaqla Bakı-Tbilisi-Qars dəmir yolunun genişləndirilməsi layihəsinə 100 milyon dollardan artıq sərmayə qoyub.

Layihə yalnız dəmir yolu xəttinin çəkilişini deyil, həm də 172 kilometr uzunluğunda 10 kilovatlıq elektrik xəttinin quraşdırılmasını, 338 kilometr fiber-optik kabelin yerləşdirilməsini və marşruta bitişik yollarda əsaslı təmir işlərini əhatə edib. Gürcüstan seqmenti genişləndirmə üçün mürəkkəb və çətin relyefli ərazi kimi qiymətləndirilib. Dəniz səviyyəsindən 2400 metrə qədər yüksəklikdə bəzi məntəqələrdə işlər həyata keçirilməsinə baxmayaraq, intensiv iş qrafiki təmin olunub.

Magistralın Gürcüstan ərazisindən keçən seqmentində aparılan təmir-bərpa işləri 5 mərhələdən ibarət olub: Marabda–Tetriskaro, Tetriskaro–Tsalka, Tsalka–Axalkalaki, Axalkalaki-Kartsaxi və Axalkalaki kompleksi. 110 hektarlıq ərazini əhatə edən Axalkalaki kompleksi çərçivəsində bir estakada, 2 suötürücü qurğu, 4 körpü, 2 yolötürücü və 2 yeraltı piyada keçidi yenilənib. Qardan mühafizə divarları inşa olunub. 17,9 kilometrlik yeni kontakt şəbəkəsi quraşdırılıb, dartı yarımstansiyasının gücü artırılıb, 48 km stansiya daxili yol və 3,9 km avtomobil yolu tikilib.

Eyni zamanda, layihədə qabaqcıl texnologiyalardan istifadə olunub, Avropa istehsalı olan müasir avadanlıqlar tətbiq edilib.

Ötən illərdə BTQ dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin əsas komponentinə çevrilib. Layihə qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. BTQ Orta Dəhlizin bir hissəsi kimi Şərqlə Qərb arasında nəqliyyat bağlantısını təmin edir. Bu dəhliz Çindən başlayan yüklərin Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan və Gürcüstan üzərindən Türkiyəyə, oradan isə Avropaya çatdırılmasını təmin edir. Hazırkı geosiyasi şəraitdə Orta Dəhliz təhlükəsizlik, çevik nəqliyyat imkanları, daha qısa tranzit müddəti ilə beynəlxalq bazarların diqqətini cəlb edir.

BTQ xəttinin istifadəyə verilməsi Asiya-Avropa yükdaşımalarında yeni mərhələnin əsasını qoydu. Əvvəllər Çin və digər Asiya ölkələrindən Avropaya daşınan yüklər əsasən dəniz yolu ilə 35-45 gün ərzində çatdırılırdı. Haqqında danışılan dəmir yolu marşrutu isə bu müddəti 12-15 günə qədər azaldıb. Bununla da Orta Dəhliz vaxt, məsafə və xərc baxımından daha üstün logistika variantına çevrilib. Xəttin fəaliyyətə başlaması Rusiyadan keçən marşrutlara alternativ yaradaraq qlobal tədarük zəncirində Azərbaycana strateji mövqe qazandırıb.

Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, genişlənmiş dəmir yolu infrastrukturu və logistika zonaları ölkənin bu dəhlizdə rolunu daha da gücləndirib. Bakı bu gün Orta Dəhliz boyunca yüklərin koordinasiya olunduğu başlıca qovşaq kimi çıxış edir. Orta Dəhlizin və modernləşdirilmiş BTQ xəttinin yeni imkanları müzakirə olunduqdan sonra 2024-cü ilin iyunundan etibarən Sian limanı ilə yanaşı, Çinin şərqində yerləşən ən iri limanlardan biri olan Liyanyunqanqdan da yüklərin test rejimində göndərilməsinə başlanılıb.

Sonda qeyd edək ki, BTQ dəmir yolunun daşıma gücünün 2025-ci ilin sonuna qədər üç dəfə artacağı gözlənilir. 2024-cü ildə bu marşrut üzrə konteyner daşımaları əvvəlki illə müqayisədə 15 dəfə artıb.

***Musa BAĞIRLI***
***XQ***

# Asiya İnkişaf Bankının Azərbaycan səhiyyəsinə dəstəyi

**Asiya İnkişaf Bankı (ADB) "Universal səhiyyə əhatəsinin (UHC) UHC PEERS bilik və resurs mübadiləsi şəbəkəsi vasitəsilə sürətləndirilməsi" adlı regional layihəyə texniki yardım ayırmağı nəzərdən keçirir. Layihə Azərbaycan da daxil olmaqla 43 ölkəni əhatə edir və Xüsusi Texniki Yardım Fondu vasitəsilə 495 min ABŞ dolları həcmində maliyyələşdirilməsi planlaşdırılır.**




Təşəbbüs ölkələrin universal səhiyyə əhatəsinə doğru irəliləyişini sürətləndirməyə yönəlib. Bu məqsədlə ADB dövlət siyasəti üzrə ekspertlər və praktiklərdən ibarət şəbəkə yaradacaq, səhiyyə sistemləri üzrə təcrübə mübadiləsi, bilik bazası və rəqəmsal alətlər hazırlanacaq. Həmçinin genderyönümlü həllər, ölkələrarası bərabər şərtlərlə təcrübə mübadiləsi, özəl sektorun iştirakı və regional bilik platformasının qurulması layihənin əsas istiqamətlərindəndir.

UHC BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə daxil olsa da, Asiya–Sakit Okean regionunun böyük hissəsi hələ də geri qalır. 2000–2021-ci illərdə əhatə indeksi 45-dən 68-ə yüksəlsə də, son illərdə artım xeyli zəifləyib və 2019-dan bəri demək olar ki, dayanıb. Qeyri-formal sektorda işləyənlərin əhatə səviyyəsinin aşağı olması, tibbi xidmətlərin keyfiyyətinin zəifliyi, rəqəmsal texnologiyaların az tətbiqi, əhalinin birbaşa tibbi xərclərinin yüksək payı (bir çox ölkədə 40%-dən çox) və səhiyyə xərclərinin ÜST standartlarından aşağı olması əsas problemlər kimi göstərilir.

Bank özəl sektorun səhiyyə sistemlərinə inteqrasiyasını vacib hesab edir və bildirir ki, texniki yardım çərçivəsində layihə iştirakçıları UHC-nin tətbiqi, tibbi xidmətlərin keyfiyyəti və əlçatanlığı ilə bağlı məsləhətlər və regional bilik platformasına çıxış əldə edəcəklər.

***XQ***

# Çanaqqala–türk ruhunun vulkanı

**1915-ci ilin yanvarı idi. Britaniya strateqləri, Admirallığın birinci lordu Uinston Çörçillin başçılığı altında Şərq cəbhəsində növbəti hücum əməliyyatı planı hazırlayarkən, rusiyalı müttəfiqlərinə yardım göstərmək və onları silah-sursatla təchiz etmək zərurəti qarşısında qalmışdılar. Çünki Qafqaz və Cənub–Qərb cəbhəsində hərbi əməliyyatlar aparan rus ordusunda yaranmış problem onların bu cəbhələrdə hərəkətini əhəmiyyətli dərəcədə məhdudlaşdırırdı. Üstəlik, rus ordusu ilin sonunda Ərzuruma hücum etməyi planlaşdırdığı bir zamanda yaranmış bu çətinlik kəskin şəkildə hiss olunurdu və əməliyyatdan imtina edilməsinə səbəb ola bilərdi.**






Antanta müttəfiqlərinin ümumi vəziyyəti həm də onunla ağırlaşdı ki, Rusiyanın Avropadakı quru sərhədlərinin böyük hissəsini Almaniya və Avstriya-Macarıstan bağlamışdı, Baltik dənizinə çıxışı isə alman donanması tutmuşdu.

Qafqaz və Cənub–Qərb cəbhələrində əməliyyatların tarazlığını qorumaq üçün car Rusiyası təcili olaraq Aralıq dənizinə çıxış əldə etməli idi, lakin bu yolu Osmanlı ordusu bağlamışdı. Buna görə də ingilislər hərbi-dəniz qüvvələrinin köməyi ilə Dardanel (Çanaqqala) müdafiəsini yarmaq, rus ordusunun təminatı məqsədi ilə donmayan təchizat yolu açmaq və osmanlıları müharibədən çıxarmaq üçün hərbi əməliyyat keçirməyə qərar verdilər. Bu mövqeyə əsaslanaraq, ingilis hərbi strategiyası ingilis donanması vasitəsilə Çanaqqalanın hərbi-dəniz müdafiə sistemini dağıdan hücum əməliyyatı keçirmək, rus ordusunu donmayan, buzsuz təchizat yoluyla təmin etmək, həmçinin Osmanlı imperiyasının silahlı qüvvələrini qəti təslimiyyətə məcbur etmək istəyirdi.

İlk baxışdan plan nəzəri cəhətdən qüsursuz görünürdü. Plan yüz ilin təcrübəsinə əsaslanırdı, 1807-ci ildə ingilis hərbi-dəniz eskadrası vitse-admiral ser Con Tomas Dakvortun komandanlığı altında Dardaneli aşmağa müvəffəq olmuşdu və Osmanlı imperiyasının paytaxtına çatmışdı. Buna baxmayaraq, Dakvort proqnozlaşdırmışdı ki, "quru qoşunlarının köməyi olmadan boğazı yarıb keçməyə çalışmaq eskadranın mənasız yerə güdaza verilməsi olardı..."

Bütövlükdə, 1807-ci ilin Dardanel əməliyyatı 1807–1809-cu ilin türk-ingilis savaşı gedişatında Kral donanmasının Osmanlı donanmasını neytrallaşdırmaq cəhdi tamamən uğursuzluğa uğradı. Buna baxmayaraq, hərbi-dəniz kampaniyasından dərs çıxaran Osmanlı imperiyası boğazların müdafiəsinə çox ciddi yanaşırdı. Amma britaniyalılar da bu əməliyyata, demək olar ki, on il hazırlaşmışdılar, 1906-cı ildə isə İstanbul və London arasındakı növbəti böhranın qaynar çağında "Əlahəzrətin ən az dəyərli gəmiləri" eskadrilyası "Boğazları yarıb keçərək Konstantinopola (İstanbula) çata biləcəyinə" ciddi şəkildə inanırdılar.

Qeyd etmək gərəkdir ki, bir neçə Osmanlı sultanının hakimiyyəti dövründə Gelibolu yarımadasında sonrakı onilliklər ərzində daha da möhkəmlənib, yenidən qurulan çoxlu istehkam və qalalar tikilmişdi.

24 mart 1915-ci ildə 5-ci ordunun döyüş əməliyyatları üçün əlverişli olan rayona girdiyi anadək, Çanaqqalanın müdafiəsinin məsuliyyəti Osmanlı artilleriya (topçu) korpusunun komandanlığının üzərinə düşürdü. Demək olar ki, hər bir artilleriya zabiti 1914-cü ilə qədər Çanaqqalada ən azı bir il xidmət müddəti keçmişdi. Onlar ərazini yaxşı tanıyırdılar, Balkan müharibələri zamanı isə bütün yarımada mümkün desant əməliyyatlarından qorunurdu.

Savaşın uğurunun alman hərbi ekspertlərinin fəaliyyəti ilə şərtləndiyi barədə hadisələr silsiləsinin hər cür mif və saxta rəvayətlərinin təsiri altına düşməmək üçün qeyd etmək vacibdir ki, Osmanlı ordusunun qərərgah və artilleriya zabitləri bütün mümkün hücumlardan müdafiə planlarını təhlil edərək, işləyib hazırlamışdılar. Alman artilleriya və hərbi-dəniz mütəxəssislərinin töhfəsi olsa da, 18 mart 1915-ci ildə Çanaqqala dəniz zəfərinin qazanılmasında əsas rol qəti şəkildə bu ərazidə baş verən tarixi dəniz savaşındakı qeyd-şətsiz qələbəni təmin edən müdafiə qurğularının vaxtında tikilib-qurulmasına rəhbərlik edən türk komandanlığına mənsubdur.

Şübhəsiz, Dardanel uğrunda döyüşlər altı əsrlik Osmanlı imperiyası üçün türk xalqının milli dövlət maraqlarının müdafiəsində çox vacib, həyati mərhələ idi və bunda heç bir barışıq ola bilməzdi. Osmanlı imperiyasını yıxmaq və türk dövlətçiliyini nüfuzdan salaraq, onu regional avtarkist qapalı Anadolu knyazlığına çevirmək məqsədi daşıyan Britaniya ekspansiyası faktoru (imperialist dövlətlərin yeni torpaq, müstəmləkə və bazarlar əldə etmək məqsədilə öz siyasi və iqtisadi nüfuzunu başqa ölkələrə yaymaq üçün yeritdikləri təcavüzkar siyasət) Osmanlı dövləti üzərində basqı idi.

İngiltərə baş naziri Herbert Askrıtin Osmanlı imperiyası idarəçiliyini təkcə Avropadan deyil, Asiyadan da silməklə bağlı qətiyyətini simvollaşdıran vəhyi gerçəyə çevrilməklə təhdid edirdi. Buna müvafiq olaraq Osmanlı dövləti ən pis ehtimala hazırlaşmağa başladı. Xüsusi qatarlar xəzinəni və qiymətli əşyaları paytaxtdan Anadoluya daşımağa, hökuməti və sultan ailəsini Konyaya köçürməyə hazırlaşdılar. Hər kəs başa düşürdü ki, İstanbulun işğalı imperiyanın sonu deməkdir.

Osmanlı ordusunun Baş Qərargahı Qafqaz cəbhəsindən artilleriya toplarının daşınması üçün çox böyük səylər göstərirdi və sərəncamında olan bütün ordunu həlledici döyüş üçün Çanaqqalaya göndərdi.

1915-ci il 18 mart bombardman seriyasından sonra Dardanel boğazının girişində müttəfiqlərin vahiməli armadası göründü. İngilis və fransız gəmilərindən ibarət dəstə İstanbulu zəbt etməyə və bununla Osmanlı imperiyasını yıxmağa hazırlaşırdılar. Lakin Osmanlı döyüşçülərinin qəhrəmanlığı, keçmişin minlərlə hərbi savaşının qalibi–əcdadların sarsılmaz ruhu, Çanaqqalanın mahiranə qurulmuş müdafiə sistemi ingilis-fransız hərbi-dəniz ekspedisiyasını tam və sarsıdıcı müvəffəqiyyətsizliyə məhkum etdi. Müttəfiqlərin gəmiləri Osmanlı sahil batareyalarının atəşi və bilavasitə döyüşqabağı çox da böyük olmayan "Nüsrət" mina düzən gəmi tərəfindən yerləşdirilmiş minalarla qarşılaşdılar.

Birgünlük döyüşdə üç böyük linkorun (xətt gəmisinin) batırılmasından və üç gəmiyə ciddi xəsarət yetirilməsindən sonra Antanta müttəfiqləri həmin hərbi-dəniz əməliyyatının əsas məqsədindən imtina etməyə məcbur oldular. Olduqca diqqətəşayandır ki, Britaniyanın Kral donanması bir gündə yalnız 1805-ci ilin məşhur Trafalqar döyüşündəki itkilərlə müqayisə oluna biləcək böyük itkilərə məruz qaldı. Bununla belə, ittifaq komandanlığı Dardanel müdafiəsini aşmaqla uğur qazanmağa inanırdı. O, Birinci Dünya müharibəsi tarixində ən böyük hərbi-dəniz desant qüvvələri birliyini reallaşdırmağa çalışaraq, Avstraliya və Yeni Zelandiya bölmələri ilə birlikdə əsasən Britaniya diviziyasından ibarət əlavə qruplar yaratdı.

Aprel ayında Antanta qüvvələri yeni yaradılmış Aralıq dənizi ekspedisiya korpusunun beş diviziyasını Gelibolu yarımadasınının sahillərinə çıxardı. Əməliyyatlarda ingilis diviziyalarından, həmçinin Britaniya dominion və müstəmləkələrinin (Avstraliya, Yeni Zelandiya, Hindistan və s.) birliklərindən əlavə, ümumilikdə təxminən yarım milyon adam –79 mindən az olmayan fransız əsgərləri, o cümlədən müstəmləkə qoşunları iştirak edirdi. Belə bir təəssürat yaranmışdı ki, Osmanlı imperiyası hərbi qüvvələrinə qarşı hətta yeddi millət nümayəndəliyi birlikdə savaşır: ingilislər, fransızlar, irlandlar, avstraliyalılar, yeni zelandiyalılar, hindular, qurxalar, seneqallılar, misirlilər və başqaları.

...Lakin həmin ərəfədə Çanaqqala savaşı Vətən sevdası ilə qazanılacaqdı. Bir an belə tərəddüd etmədən canını Vətənə sipər edənlər Çanaqqala zəfərini dünya tarixinə qızıl qanları ilə yazacaqdılar:

***Çanaqqala məhşəri,***
***Durdurdu böyük şəri.***
***Düşündürür bəşəri...***
***Qeyri-adi bu zəfər,***
***Çanaqqala müzəffər!***

...Müharibənin gedişatındakı vəziyyət Osmanlı komandanlığının bu hərbi-dəniz əməliyyatının miqyası ilə bağlı desantdan əvvəl irəli sürdüyü bütün fərziyyələri üstələyirdi.

Hücumun ilk günündə, döyüşün böhranlı anlarının birində zabit Mustafa Kamal işləri öz əlinə aldı. Osmanlı hissələri nizamsız halda geri çəkilməyə başladıqda şəxsən özü, səlahiyyəti xaricində olan mövqeni tutdu. Təşvişə düşəcək əsgərləri yenidən qruplaşdırdı, onlara ehtiyat qüvvələri gələnə kimi müttəfiq əsgərlərinə qarşı cəsarətlə süngü savaşına girməyi, müdafiə xətti yaratmağı əmr etdi. Sonra onun komandanlığı altında bir sıra uğurlu əks-hücumlar həyata keçirildi.

***Sanki, görünməz bir qüvvə türklərə yardım edirdi.***

***Bu qüvvə bu millətin içində cəngavərə dönən Vətən sevgisi idi.***

***Bu sevgi sonralar bu torpaqlarda qızıl-qızıl lalələrə dönəcəkdi...***

***Topraq oldu qızıl qan,***
***Silah vicdan, həm əzan...***
***Misilsiz tarix yazan***
***Yenə yazdı bu səfər,***
***Çanaqqala müzəffər!***

25 aprel 1915-ci ildə Arıburnunda göstərdiyi qəhrəmanlığa görə Türkiyə Cümhuriyyətinin gələcək banisi polkovnik rütbəsi aldı. Nəticədə, müttəfiqlərin hücumu, amansız əlbəyaxa vuruşu bəzən uzun sürən səngər döyüşü mərhələsinə keçərək, düşmən səngərlərinin 8 metrdən az olmayan dərinliyində gedən savaşlarda cəsur, dəqiq zərbələrlə Osmanlı hərbi hissələri tərəfindən dəf edildi.

Antantanın müttəfiq komandanlığı hələ də Osmanlı müdafiəsini alt-üst edə biləcək böyük bir hücum əməliyyatı keçirməyə cəhd etdi. Lakin bu cəhdlər də boşa çıxdı. Nəticədə, pozisiya döyüş əməliyyatları 1915-ci ilin dekabrından 1916-cı ilin yanvarına qədər, Antanta qüvvələri geri çəkilənədək davam etdi.

İngilislər, növbəti biabırçılığın səbəb ola biləcəyi, imperiyanın nüfuzunun daha da sarsılmasından, müstəmləkələrində – Misir və Hindistanda daxili siyasi vəziyyətin qeyri-sabit hala düşməsindən, ardınca isə bütün ingilis-fransız imperiya müstəmləkə sisteminin iflasa uğramasından ehtiyat edərək bir neçə ay ərzində tamamilə geri çəkilməyə qərar verə bilmirdilər. Bununla belə, müttəfiq qoşunlarının təxliyəsi bütün hərbi əməliyyatlar boyunca Antantanın yeganə uğurlu addımı idi.

İstanbulun fəth olunmaması, bu xəzinənin açarına sahib ola bilməmələri Antanta dövlətləri və Rusiya üçün ölümə bərabər olsa da, sonda etiraf etməyə məcbur qaldılar. Bu savaş zorun, silahın gücü ilə deyil, ağlın, zəkanın, Vətən sevgisinin gücü ilə qazanıldı.

***Türkün ruhu sarsılmaz,***
***Şəhidlər unudulmaz,***
***Haqqa haqsız varılmaz,***
***Son sipərdən xoş xəbər...***
***Çanaqqala müzəffər!***

Gelibolu qələbəsində Çanaqqalanın çox böyük tarixi əhəmiyyəti var. Birincisi, hərbi əməliyyatlar Osmanlı ordusunun şəxsi heyətinin peşəkar səviyyəsinin kəskin yüksəlməsinə səbəb oldu. Döyüşlərdə iştirak edən zabitlər sayının böyük hissəsi, müasir pozisiya müharibəsində hərbi əməliyyatların aparılmasında gərəkli vərdişlərə yiyələndilər.

Hərbi hazırlığın mükəmməl nəzəri və tədris bazası, praktik hərbi təcrübə zabitlərin yüksək ixtisas keyfiyyətləri qazanmasına kömək etmişdi. Onlar müasir müharibənin taktika və üsullarını incəliklə öyrənərək Böyük Britaniya və Fransanın müasir, qüdrətli silahlı qüvvələrinə qarşı uğurla mübarizə apara bildilər.

İkincisi, Osmanlı ordusunun şəxsi heyətinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsində vacib amil, sıravi heyətin də birləşməsi faktoru idi. Səngərlərdə hər gün təhlükə və çətinliklərlə üzləşdikcə, onların ümumi təcrübəsi əsgər və zabitlər arasında xüsusi qardaşlıq duyğuları yaratmışdı. Çanaqqala qazisi, yaxud veteranı olmaq xüsusi hörmət, ehtiram, nüfuza sahib olmaq demək idi. Təəccüblü deyil ki, gələcək Türkiyə müstəqilliyi uğrunda müharibədə və yeni Türkiyə Cümhuriyyət ordusunda komandirlərin əhəmiyyətli bir hissəsini (alay səviyyəsindən yuxarı olan 91 komanda heyətindən 27-sini) Çanaqqala veteranları təşkil edirdi.

Üçüncüsü, Gelibolu əməliyyatı bütün Osmanlı türk millətinə mühüm təsir göstərdi. Çanaqqala zəfəri xalqın üzərindən məğlubiyyət ləkəsini sildi, millətin mənəvi-psixoloji vəziyyətini yüksəltdi, ordu sıralarını birləşdirdi, işğalçılara qarşı Osmanlı əzmi və şücaətinin simvoluna çevrildi. Bu, həm də xalqda millətin xilaskarı və müdafiəçisi obrazı yaradaraq cəmiyyətdə zabitlərin nüfuzunu, etibarını inanılmaz dərəcədə yüksəltdi.

Beləliklə, Balkan müharibələrində məğlubiyyətə uğrayan millət Çanaqqala savaşındakı tarixi zəfərdən sonra sözün tam mənası ilə yenidən doğuldu, canlandı. Bu kontekstdə 1916-cı ildə Osmanlı sultanı V Mehmedin sözləri diqqətəlayiqdir: "Müsəlmanların iki güclü düşməni birləşərək həm qurudan, həm də dənizdən Çanaqqalaya hücum etdilər. Lakin Allah zamanında ordumuza kömək etdi və əsgərlərimizin hər biri bir dəmir qalaya çevrildi". Sultan bu sözləri deyərək ordunun Çanaqqala (Gelibolu) döyüşündəki qələbəsindən sonra Osmanlı millətinin hisslərini ifadə etdi.

Çanaqqala savaşı... Üstündən illər keçəcək, bu qəhrəmanlıq salnaməsi hər dəfə yeni hekayələr danışacaq. Tarixin bu qanlı səhifəsində hər əsgərin bir qəhrəmanlıq hekayəsi var. Hər biri alınmaz qalaya dönən əsgərlərin bu qanlı savaşda torpağa qarışan təkcə qanı, cəsədi idi.

Lakin... kim bilir, Vətən uğrunda ölüm-dirim savaşına girən bu qəhrəman insanların bədəndən ayrılan ruhları bir anda yenidən doğulub, yenidən savaşa girir, mərmilərə qoşulub, düşmənləri param-parça edirdilər.

***...Çanaqqala, torpağın insan sevgisinə bələndiyi yerdir...***

***...Çanaqqala, Tanrı mərhəmətinin göylərdən ələndiyi yerdir...***

***...Çanaqqala, şəhidlərin qızılı lalələrə döndüyü yerdir...***

***...Çanaqqala, düşmənlərin iblisdən imdad diləndiyi yerdir...***

***Bu qeyrətlə, bu hünər,***
***Ürəklərdə döyünər.***
***Mazisiylə öyünər,***
***Kökə bağlı hər nəfər...***
***Çanaqqala müzəffər!***
***Çanaqqala müzəffər!***

Çanaqqala – simvoldur!!! Çanaqqala – türk xalqının hərbi ənənələrinin oyanış mənbəyidir.

***Lətifə MƏMMƏDOVA,***
***tarix üzrə fəlsəfə doktoru,***
***AJB-nin üzvü***

# Pedaqoji Universitetdə türkoloji simpozium





**Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetində "Birinci Türkoloji Qurultayın 100 illiyi: Dil məsələləri" mövzusunda beynəlxalq simpozium keçirildi.**

ADPU-nun rektoru, professor Cəfər Cəfərov açılış nitqində bildirdi ki, Prezident İlham Əliyevin "I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı ölkəmizdə bu nadir tarixi hadisə ilə bağlı elmi-mədəni tədbirlərinə start verib. Ali məktəbdə də sərəncamdan irəli gələn vəzifələrlə bağlı silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur. Filologiya fakültəsi, Müasir Azərbaycan dili kafedrası və Türkoloji Mərkəzinin birgə təşkil etdiyi simpoziumda qurultayın tarixi önəmi, ideya və qərarlarının çağdaş türk birliyi quruculuğunda elmi-nəzəri baza rolu oynaması kimi məsələlər diqqət mərkəzində olacaq.

Sonra I Türkoloji Qurultaydan bəhs edən videoxronika nümayiş olundu.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov "Türkoloji qurultayın iştirakçıları və dil məsələsi" mövzusunda məruzə etdi. AMEA Dilçilik İnsitunun direktoru professor Nadir Məmmədli "Birinci Türkoloji Qurultaya aid arxiv sənədləri" haqqında məlumat verdi.

Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri, doktor Alptəkin Cihangir İşbilir, "Ədəbiyyat" qəzetinin baş redaktoru Azər Turan çıxışlarında tarixə Türk dünyasının ilk elmi məclisi kimi düşmüş qurultayın zəngin irsinin dərindən öyrənilib çağdaş nəsillərə çatdırılması ilə bağlı qarşıda duran vəzifələrdən söz açdılar, simpoziumun bu yöndə gərəkli müzakirə auditoriyası olduğunu söylədilər.

Beynəlxalq məclisdə xarici ölkə türkoloqlarının – Gürcüstandan Tbilisi Dövlət Universitetinin dosenti Elizabed Bzhalavanın, Tatarıstandan Kazan Federal Universitetinin professoru Alfiya Yusupovanın, Özbəkistandan İpək Yolu Araşdırma Akademiyasının professoru Əzəmət Əkbərovun onlayn məruzələri də dinlənildi.

Simpoziumda ADPU-nun professor-müəllim heyəti, tələbələr, Türkiyənin Azərbaycandakı səfirliyindən, Türk Mədəniyyəti və İrsi Fondundan, AMEA Dilçilik İnstitutundan, Bakı Dövlət və Bakı Avrasiya universitetlərindən, "Xalq qəzeti" və "Ədəbiyyat" qəzeti redaksiyalarından qonaqlar iştirak edirdilər.

***Tahir AYDINOĞLU***
***XQ***

# Azərbaycan türkologiyasının krımlı fədaisi – Çobanzadə

**Bəkir Çobanzadə (1895–1937) dilçilik, filologiya və ədəbi tənqid sahəsində görkəmli alim, pedaqoq və 1924-1925-ci illərdə I Türkoloji Qurultaya hazırlıq işlərini həyata keçirən öncüllərdən olmuşdur.**

O vaxtlar Azərbaycanda işləməsinə baxmayaraq, Türkoloji qurultayın anketində "krım tatarı" kimi qeydə alınmışdır. Mərhum professor AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru Tofiq Hacıyev yazırdı ki, qurultayın təşkilində, gedişatındakı fəaliyyətinə görə Bəkir Çobanzadəni heç kəslə müqayisə etmək olmaz. Əlbəttə, heç kəs öz çəkisindən artıq yük götürə bilməz. Ancaq Bəkir Çobanzadənin bu ağır missiyanı daşımasına onun savadının çəkisi, intellekt əhatəsinin genişliyi, dil, ədəbiyyat məsələlərinə yiyələnmiş olması, həm oğuz, həm qıpçaq dillərini əlaqələndirmə, uyğunluq və fərqlərinə bələdliyi, müasir türkcələrlə yanaşı, türkcələrin tarixinə dair tədqiqləri, müqayisəli türkologiyanın bilicisi kimi tanınması, ərəb, fars, rus dilləri ilə bərabər, bir neçə Avropa dilini bilməsi və başqa keyfiyyətləri imkan verirdi. Həm də o, Azərbaycana yüksək vəzifədən – Krım Maarif Komissarlığının işçisi, universitet rektoru vəzifələrindən gəldiyi üçün təşkilati işlərdə nəyi və necə etməyi bilirdi.




Bəkir Çobanzadə Krım vilayəti Simferopol qəzasının Qarasubasar şəhərində anadan olmuş, ibtidai təhsilini burada almışdır. 14 yaşında qeyri-adi zəkası ilə diqqət çəkmiş, Dini Xeyirxahlar Cəmiyyəti tərəfindən Türkiyəyə, Qalatasaray liseyi – Sultaniyyəyə göndərilmişdir (1908–1918). Burada tələbəlik illərində ilk şeirlərini, "Anan harda?" poeması qələmə almışdır. İstanbul Universiteti nəzdindəki ali kurslarda ərəb və fars dillərini mükəmməl öyrənmişdir.

Türkiyədə o, "Müstəqil tatar Krımı" ideyalarını dəstəkləyən Krım-tatar tələbə cəmiyyətinin yaradıcılarından və rəhbərlərindən biri, Budapeşt Universitetində türk, ərəb və macar filologiyası ilə tanış olmuşdur. Budapeştdə türk dilində çıxan "Şərq" qəzetinin redaktoru işləmiş, 1918–1919-cu illərdə "Krım", "Göy kitab" məcmuələrində şeirləri dərc olunmuş, dövri mətbuatda ictimai-siyasi və elmi məqalələrini çap etdirmişdir. Məqalələrini "Çoban oğlu", "Bəkir Baybək", "Bəkir Cavbək", "Bəkir Yaybək", "Çoban oğlu Bəkir Sidqi" müxtəlif imzalarla təqdim etmişdir. 1920-ci ildə filologiya elmləri namizədi, 1922-ci ildə isə professor adına layiq görülmüşdür.

Vətənə qayıtdıqdan sonra 1920–1922-ci illərdə Krım inqilabi komitəsinin rəisi, Krım Maarif Komissarlığında tatar lisaniyyatı və ədəbiyyatı şöbəsinin müdiri, Krım Universitetində Şərq fakültəsinin professoru və Krım Mərkəzi İcraiyyə Komitəsinin üzvü olmuşdur. Krım Universitetində rektor vəzifəsini icra etmişdir.

Bakıda keçirilən Birinci Türkoloji Qurultayda Bəkir Çobanzadə əsasən ortaq türk əlifbası və imlası, eləcə də türk xalqlarının ədəbi əlaqələri mövzusunda ("Türk ləhcələrinin yaxın qohumluğu", "Elmi terminologiya sistemi") çıxışlar etmiş, Azərbaycan nümayəndələri, həm də xarici qonaqlar — Mehmed Fuad Köprülü, Vasili Bartold, Sergey Oldenburq və digər tanınmış türkoloqlarla fikir mübadiləsi aparmışdır. Onun çıxışları türkoloji tədqiqatların metodik prinsiplərinə dair elmi diskussiyalarda əhəmiyyətli rol oynamış, Azərbaycan dilinin inkişafı və ədəbi irsin qorunması məsələlərinə xüsusi diqqət yetirmişdir.

Qurultay iştirakçıları arasında Bəkir Çobanzadənin analitik və nəzəri çıxışları yüksək qiymətləndirilmiş, türk xalqlarının mədəni inteqrasiyası və ortaq yazı məsələlərinin işlənməsində töhfəsi önəmli sayılmışdır.

Alim 1928-ci ildə Səməd Ağamalıoğlunun dəvəti ilə Azərbaycana gəlmiş, Yeni Əlifba Komitəsinin sədri, Yeni Türk Əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin rəhbəri təyin edilmişdir. Orta Asiya, Tatarıstan, Başqırdıstan və Krımda latın əlifbasına keçidlə bağlı işlər aparmış, Tavrid, Bakı, Daşkənd, Fərqanə və Buxara ali məktəblərində türkologiyanın problemlərinə dair mühazirələr oxumuşdur. Bu illərdə Xətai divanının müqayisəli mətnini hazırlamışdır.

Bəkir Çobanzadə 1924–1929-cu illərdə Azərbaycan Baş Elmi İdarəsində terminologiya komitəsinə rəhbərlik etmiş, Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində kafedra müdiri və dekan olmuşdur. 1928-ci ildə Moskva Şərq Xalqları İnstitutunun həqiqi üzvü, 1932-ci ildə SSRİ EA Zaqafqaziya filialı Azərbaycan şöbəsinin, 1935-ci ildə isə SSRİ EA Azərbaycan filialının həqiqi üzvü seçilmişdir. O, Paris Dilçilik Cəmiyyətinin üzvü olub, Avropa yazıçıları ilə əlaqələr qurmuşdur. "Türk dilinin metodikası" (1932) və "Elmi qramerin əsasları" (1932) kitabları ilə yanaşı, bir sıra monoqrafik əsərləri və elmi məqalələri dövri mətbuatda dərc olunmuşdur.

28 yanvar 1937-ci ildə Kislovodskda – dincəldiyi sanatoriyada həbs edilən ən görkəmli türkoloq, Pyatiqorsk türməsinə və sonra Azərbaycan SSR Daxili İşlər Xalq Komissarlığının təcridxanasına gətirilmişdir. Türk xalqlarının böyük dühası 12 oktyabr 1937-ci ildə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası səyyar sessiyasının 20 dəqiqə davam edən bağlı iclasında güllələnməyə məhkum edilmiş, hökm səhəri gün 13 oktyabr 1937-ci ildə icra olunmuşdur. Dəfn yeri məlum deyil.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Süni intellekt teatr sənətinə də yeni imkanlar qazandırır



**Çağdaş dövrümüzdə həyatın bütün sahələri kimi, incəsənət sahəsində də müasir texnologiyalardan, süni intellektdən istifadə geniş vüsət alıb. Teatr səhnəsinə Sİ-nin tətbiqi yaradıcılıq potensialını artırmaqla yanaşı, həm də tamaşaçı ilə teatr arasında dinamik əlaqə yaradır. Bu gün dünyanın aparıcı teatr mərkəzlərində aktyor oyununun analizi, səhnə quruluşu və vizual effektlərin yaradılmasında süni intellektin “məharətindən” geniş istifadə olunur.**

Xüsusilə, bir vaxtlar texniki imkanların məhdudluğu səbəbindən çoxsaylı problemlərlə üzləşən rejissorlar Sİ-nin köməyi ilə daha mükəmməl, tamaşaçı rəğbəti qazanan, yaddaşlardan silinməyən ekran əsərləri ərsəyə gətirirlər. Bu yeniliklər teatr sənətinin mahiyyətini dəyişmədən, ənənəni pozmadan, klassik qaydalarını inkar etmədən onu daha da zənginləşdirir. Dövrün reallıqlarına uyğun, interaktiv məzmuna malik teatr ənənə ilə müasirliyin vəhdətində zamanın tələblərinə cavab verir.

Mövzu ilə bağlı müsahibimiz **Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun böyük elmi işçisi, texnika elmləri üzrə fəlsəfə doktoru Əfruz Qurbanovadır.** Alim rəqəmsal texnologiyaların, süni intellektin teatr sənətinə tətbiqi imkanları barədə suallarımızı cavablandırdı:

***– Son illər mədəniyyət və incəsənətin müxtəlif sahələrində, o cümlədən səhnə sənətində yeni texnologiyaların tətbiqi və istifadəsinin əhatə dairəsi genişlənir. Bu tendensiya teatrın inkişafına necə təsir göstərir?***

– Teatr sənəti tarix boyu elmi-texniki tərəqqinin nailiyyətlərindən bəhrələnərək daim inkişaf edib. Hələ qədim yunanlar öz teatrlarında bədii təcrübəni təkmilləşdirmək və yaddaqalan tamaşalar yaratmaq üçün o dövrün texnologiyalarından - səhnənin mərkəzindən çıxan təkərli platformadan istifadə edirdilər. XIX əsrdə səhnənin işıqlandırılması üçün karbon qövs lampaları teatr sənətində bir yenilik oldu. Bu, aktyorların və səhnə dekorasiyalarının daha yaxşı görünməsinə imkan verir və tamaşaları daha cəlbedici edirdi.

Müasir teatr sənəti süni intellekt və innovativ rəqəmsal texnologiyaların təsiri ilə yeni mərhələyə qədəm qoyub. Artıq XX əsrin sonları XXI əsrin əvvəlindən başlayaraq müasir texnologiyalar səhnə obrazlarının yaradılmasından tutmuş tamaşaçılarla qarşılıqlı əlaqəyə qədər teatr istehsalının bütün sahələrinə nüfuz edir. Müasir teatr tamaşalarında qabaqcıl işıqlandırma sistemləri, səs gücləndiriciləri və səhnə dekorasiyası üçün 3D çap da daxil olmaqla müasir texnologiyalardan istifadə olunur. Bu yeniliklər dekorasiya və geyim dizaynerlərinin yaradıcılıq imkanlarını genişləndirir, əvvəllər mümkün olmayan və ya əldə edilməsi çətin olan mürəkkəb, dinamik platformalar yaranır.

Süni intellekt texnologiyaları teatr təcrübəsini əhəmiyyətli dərəcədə dəyişdirərək, həm peşəkarlıq səviyyəsini, həm də tamaşaların cəlbediciliyini artıran yeniliklər gətirir. Teatr səhnəsində süni intellektdən istifadə təbii dilin emalı və nitqin tanınması texnologiyaları sayəsində tamaşaçı ilə virtual dünya arasında interaktiv qarşılıqlı əlaqə üçün yeni imkanlar açır. Maşın təlimi və emosiyaların tanınması vasitəsilə süni intellektin teatr tamaşalarına inteqrasiyası çevik şəkildə teatr səhnələrinin yaradılmasına və fərdiləşdirilməsinə imkan verir. Süni intellekt ssenarinin təhlili, səhnə tərtibatı, işıqlandırma və səs dizaynında teatr rejissorlarına kömək edə bilər. Bir sözlə ifadə etsək, süni intellekt ənənəvi teatr sənətinə yeni nəfəs gətirir.

Eyni zamanda, maşın təlimi alqoritmlərinin tətbiqilə əvvəlki tamaşalardan əldə olunan məlumatları analiz etmək və ən uğurlu məqamları müəyyənləşdirmək olar. Alınan nəticələr əsasında rejissorlar premyeradan əvvəl hansı səhnələrin və dialoqun daha təsirli olacağını təxmin edə və dəyişə bilərlər. Səhnə geyimləri və dekorların hazırlanmasında müasir texnologiyalar əsas rol oynayır.

Məlum olduğu kimi, COVID-19 pandemiyası zamanı sosial məhdudiyyətlər və ictimai məkanların bağlanması ilə bağlı sərt qaydalar teatr sənətini ciddi çətinliklərlə üzləşdirdi. Kütləvi tədbirlərin keçirilməsinə qoyulan bu məhdudiyyətlər yaradıcı insanları yeni ifadə formaları axtarmağa sövq etdi. Bu vasitələrdən biri də məhz süni intellektdir. Teatrlar rəqəmsal platformalar vasitəsilə tamaşaçılarla onlayn qarşılıqlı əlaqə qurdular.

Texnoloji inkişafın sensorlarla təchiz edilmiş "ağıllı" kostyumların yaradılmasına gətirib çıxaracağı gözlənilir. Bu cür kostyumlar aktyorun hərəkətlərinə və ya musiqi müşayiətinə uyğun olaraq rəngini dəyişə, işıqlandırma və səs effektlərini idarə edə biləcək.

***– Süni intellektin yaratdığı səs effektləri və imitasiyalar səhnəyə hansı yeniliklər gətirir?***

– Texnoloji tərəqqinin teatr sahəsinə təsirini artıran əsas yeniliklərdən biri də məhz səs imitasiyasıdır. Səsin imitasiyası və süni intellekt texnologiyaları teatrda səsləndirmə və aktyor məharətinin canlandırılmasında yeni imkanlar açır. Süni intellektin yaratdığı səs effektləri, insan səslərinin rekonstruksiyası və hətta vəfat etmiş sənətkarların səsini yenidən səhnəyə qaytarmaq kimi innovasiyalar teatr sənətinə yeni nəfəs verir. Süni intellektin səs imitasiyası sinxron tərcümə üçün də istifadə edilə bilər. Bu, xarici qastrollarda aktyorların səslərinin müxtəlif dillərə çevrilməsinə və tamaşaçılara öz ana dillərində dinləmə imkanı yaradır. Süni intellekt səhnədə canlı aktyorlarla əlaqə saxlaya bilən virtual ifalar yaradır. Aktyorun üzünün, bədən mimikasının 3D modelləri vasitəsilə tamamilə yeni obrazı canlandırılır. Virtual aktyorlar həm də artıq həyatda olmayan aktyorların çıxışlarını səsləndirir.

***– Süni intellekt tərəfindən yaradılan əsərlər nə dərəcədə orijinaldır və onların müəlliflik hüququ necə müəyyən olunur?***

– İncəsənətdə süni intellektin istifadəsi bir sıra hüquqi, etik və yaradıcılıq problemlərini ortaya çıxarır. Sİ tərəfindən yaradılan əsərlərin hüquqi sahibinin kim olduğu sualı müəlliflik hüququ baxımından hələ də bütün dünyada müzakirə mövzusudur, orijinallığı məsələsi çoxlu mübahisələr doğurur. Süni intellekt fiziki və ya hüquqi şəxs olmadığı üçün onun yaratdığı əsərlərin müəllif hüquqları çox vaxt proqram tərtibatçılarına verilir. Süni intellekt bir vasitədir və “orijinal” əsərlər yaratmaq qabiliyyəti bizim ondan necə istifadə etməyimizdən asılıdır.

İnsan təcrübəsindən və emosiyalarından məhrum olan süni intellekt həqiqətən orijinal sənət əsərləri yarada bilməz, çünki onun yaradıcılığı mövcud təsvirlərin işlənməsi və birləşməsinə əsaslanır. Teatr sənətində süni intellektdən istifadə insan amilinin tam itirilməsi demək deyil. Əksinə, insan və maşın arasında yaradıcı əməkdaşlıq üçün yeni imkanlar açır.

***– Son vaxtlar yaranan “immersiv teatr” anlayışı nədir və hansı üstünlükləri var?***

– Bəli, son illər “immersiv teatr” müasir incəsənətin yeni istiqaməti kimi rəqəmsal texnologiyaların imkanlarından geniş şəkildə istifadə edir. “İmmersiv teatr” tamaşaçının passiv izləyici deyil, aktyorlarla birlikdə hadisələrin içində olduğu teatr formasıdır. Bu teatrda səhnə ilə tamaşaçı arasındakı sərhəd silinir və izləyici birbaşa süjetin bir hissəsinə çevrilir. Yəni, teatr məkanlarında müxtəlif ideyaların həyata keçirilməsi üçün virtual reallıq və artırılmış reallıq, proyeksiya ekranları, video displeylər kimi yeni texnologiyalardan istifadə olunur ki, bu da mövcudluq effektini yaratmağa və emosional təsiri artırmağa kömək edir.

Virtual reallıq və artırılmış reallıq texnologiyalarının inkişafı teatrda aktyorlar və tamaşaçılar arasındakı məsafəni aradan qaldırmağa, onları vahid məkanda yerləşdirməyə qadir olan yeni “immersiv teatr”ın qurulduğu texnologiyalardır.

***– Virtual reallıq texnologiyaları teatrda hansı unikal imkanlar yaradır?***

– Teatrda yeni texnologiyaların tətbiqində ən çox diqqətçəkən tendensiyalardan biri virtual reallıqdır. Virtual reallıq texnologiyası 1960-cı illərdə ortaya çıxmış və 90-cı illərinin əvvəllərində populyarlaşmağa başlamışdır. Holoqrafiya, immersiv displeylər, haptik texnologiya, 3D səs və elektron sensorlar kimi texnologiyaların inkişafı mürəkkəb və interaktiv sənət məkanlarının yaradılmasına təkan verir.

Virtual reallıq texnologiyaları ənənəvi səhnədə yaradıla bilməyən heyrətamiz mənzərələr yaratmağa kömək edir. Belə ki, tamaşaçılar kosmosdan dənizin dərinliklərinə qədər fantastik dünyaya qərq olurlar. Dünyanın istənilən yerində tamaşaçılara teatr aləminin qapılarını açır, teatr sənətinin sərhədlərini genişləndirir.

Əlilliyi olan, teatrlara gedə bilməyən, hərəkət qabiliyyəti məhdud insanlar virtual mühitdə teatr tamaşaları ilə tanış ola bilirlər. Süni intellektin inkişafı ilə teatr səhnələrində real aktyorlarla yanaşı, rəqəmsal personajlar da yer almağa başlayır. Hətta, bəzi tamaşalarda tamamilə süni intellekt tərəfindən idarə olunan personajlar səhnəyə çıxır. Bu, həm teatrın ifadə imkanlarını genişləndirir, həm də yeni eksperimental yanaşmalar üçün zəmin yaradır.

Virtual reallıq texnologiyaları - virtual reallıq dəbilqələri, eynəkləri, kontrollerlər, hərəkət sensorları və s. virtual dünyada mövcudluq illüziyasını yaradır. Yəni , aktyor virtual mühitə dalmaq və onunla qarşılıqlı əlaqə yaratmaq üçün dəbilqə, eynək, əlcək kimi müxtəlif cihazlardan istifadə edir.

"Virtual reallığın atası" hesab edilən Morton Heiliq 1957-ci ildə unikal "Sensorama" cihazını hazırlamışdı. “Sensorama” tamaşaçıya yalnız vizual deyil, həm də qoxu və toxunma kimi digər hisslərdən istifadə edərək qısametrajlı filmlərə baxmağa imkan verən məkandır. 1968-ci ildə amerikalı alimlər İvan Sazerlend və Bob Spruell "Damokl qılıncı" – baş hərəkətlərini izləyən kompüterə qoşulmuş video dəbilqəsini yaradaraq virtual reallığın inkişafına əvəzsiz töhfə verdilər.

***– Bəs “artırılmış reallıq” nədir və o, teatr sənətini necə zənginləşdirir?***

– XXI əsrdə “artırılmış reallıq” Sənaye 4.0 məkanında ən perspektivli texnologiyalardan biri hesab edilir. Bu texnologiya real dünya mühitinə kompüter tərəfindən yaradılmış vizual, səs və mətn kimi rəqəmsal elementlərin canlı şəkildə əlavə olunması texnologiyasıdır. “Artırılmış reallıq” real vaxt rejimində şəkillər, videolar, 3D modellər və verilənlər kimi rəqəmsal elementlərlə real dünyanı zənginləşdirir. O, smartfonlar, planşetlər, artırılmış reallıq eynəkləri və ya xüsusi displeylər kimi müxtəlif cihazlardan istifadə edərək virtual obyektləri istifadəçinin fiziki mühitinə yerləşdirməklə interaktiv təcrübələr yaradır.

Süni dünya yaradan “virtual reallıq”dan fərqli olaraq, “artırılmış reallıq” rəqəmsal obyektləri mövcud reallığa inteqrasiya edir, tamaşaçının virtual dünyaya dalması üçün yeni imkanlar açır. Teatr tamaşalarında “artırılmış reallıq” tamaşaçılara emosional təsiri gücləndirən immersiv səs effektləri yaratmaq üçün istifadə edilə bilər. “Artırılmış reallıq” digər dillərə tərcüməni təmin edərək, teatrı qlobal tamaşaçı üçün əlçatan edir, rejissorlar və rəssamlar üçün yeni yaradıcılıq üfüqləri açır.

***Müsahibəni apardı:***
***Mehparə ƏLİYEVA***
***XQ***

# Azərbaycanın kosmik ailədə mövqeyi güclənir

*Bu sahədə tədqiqatlar və peyk missiyaları ölkənin çağdaş tələbatına xidmət edir*

**Qafqazda ilk və yeganə peyk operatoru olan Azərbaycanda kosmik tədqiqatların və kosmik sənayenin, informasiya-kommunikasiya texnologiyalarının inkişafına xüsusi diqqət yetirilir. Ölkəmiz milli kosmik sənayeni uğurla inkişaf etdirir. Bu, müasir qlobal çağırışlara və tendensiyalara adekvat cavab, Dördüncü Sənaye İnqilabında müəyyən etdiyi hədəfə doğru irəliləməkdir.**



Onu da qeyd etmək lazımdır ki, texnoloji inkişafın təmin edilməsi, innovativ cəmiyyətin formalaşdırılması üçün həyata keçirilən irimiqyaslı layihələr arasında kosmik sahənin qurulması və inkişafı proqramının özünəməxsus yeri var. Azərbaycanın sahib olduğu və idarə etdiyi peyklər ölkənin informasiya təhlükəsizliyinə, milli dövlətçiliyə xidmət edir. Kosmik peyk layihələrinin reallaşdırılması müstəqil dövlətin kosmik sahədə digər dövlətlərdən asılılığını tam aradan qaldırıb. Ölkə bu sahədə xidmətlərin idxalçısından ixracatçısına çevrilib.

**Peyk xidmətləri və əldə olunan uğurlar, perspektivlər barədə fikirlərini bizimlə bölüşən Azərkosmosun İdarə Heyəti sədrinin beynəlxalq əlaqələr üzrə müşaviri Vüqar Bayramov bildirdi:**

– 2010-cu ildən etibarən Azərkosmos Azərbaycanın kosmik sənayesinin inkişafında mühüm rol oynayır. Hazırda qurum Azerspace-1 və Azerspace-2 peykləri vasitəsilə yayım və telekommunikasiya xidmətləri, yer müşahidəsi həlləri təqdim edir. Bu xidmətlər təkcə ölkə daxilində deyil, həm də Asiya, Afrika və Avropa regionlarını da əhatə edir. Bu gün dünyanın 50 ölkəsinə peyk həllərinin ixracını təmin edirik.



Əsas məqsəd ölkəmizin kosmik iqtisadiyyatında dayanıqlı artımı, qabaqcıl texnologiyaların tətbiqini, beynəlxalq mövqeyimizin gücləndirilməsini, kosmik ekosistemin inkişafını təmin etməkdir. Bununla yanaşı, qurum beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınır və qlobal kosmik dəyərlər zəncirinə inteqrasiya olunmaqda davam edir. Hazırda növbəti nəsil peyk layihələri üzərində aparılan işlər Azərbaycanın kosmik sahədəki lider mövqeyini daha da möhkəmləndirəcək.

Bu gün kosmik sənayenin qarşısında duran əsas problemlərdən biri dayanıqlılıq, kosmik tullantıların idarə edilməsi, enerji səmərəliliyi və dayanıqlı texnoloji həllərin inkişafıdır. Azərkosmos bu istiqamətdə beynəlxalq təcrübəni tətbiq edir və BMT-nin “Sülh məqsədli kosmik fəaliyyət” prinsiplərinə, həmçinin BMT-nin Qlobal Sazişi üzrə ehtiva edilən təşəbbüslərə sadiq qalır. Belə ki, ətraf mühitə təsirlərin azaldılması, “yaşıl enerji” texnologiyalarının tətbiqi və yer müşahidə məlumatlarının ekoloji monitorinqdə istifadəsi əsas prioritetlərdəndir.

Ötən il ölkəmizdə keçirilən COP29 çərçivəsində Azərkosmos regional iqlim müşahidə platformalarının yaradılması və peyk məlumatlarının “yaşıl transformasiya” proseslərində istifadəsinə dair təkliflər irəli sürmüşdür. “İqlim dəyişikliyinə kosmosdan baxış” adlı ikidilli rəqəmsal platformada peyk təsvirləri əsasında iqlim dəyişikliklərinin qar örtüyü və buzlaqlar, su ehtiyatları, quraqlıq və şoranlaşma, kənd təsərrüfatı əraziləri və atmosfer – beş əsas istiqamət üzrə müqayisəli təhlili aparılır.

Platformanın məzmunu “Azersky” yer müşahidə peykindən əldə olunan məlumatlara əsaslanır və açıq məlumat formatında təqdim edilir. Bu açıq platforma sayəsində iqlim, su ehtiyatları, Xəzər dənizi kimi mövzular üzrə analitika, statistika və proqnozlaşdırma məlumatları tədqiqatçılar, alimlər, tələbələr üçün məlumat mənbəyidir. Məqsəd iqlim dəyişikliklərinin təsirlərini müntəzəm izləmək, aidiyyəti qurumları və ictimaiyyəti etibarlı məlumatlarla təmin etmək, regional səviyyədə iqlim məlumatı boşluqlarını doldurmaqdır.

***– Azərkosmos artıq müxtəlif platformalar çərçivəsində bir sıra dövlətlərlə əməkdaşlıq edir. Kosmik fəaliyyət sahəsində sülh və rifah naminə qabaqcıl texnoloji həllər yaratmaq və davamlı inkişaf etmək istiqamətində hansı addımlar atılır?***

– Azərkosmosun dünyanın qabaqcıl şirkət və təşkilatları ilə əməkdaşlığı ölkəmizi etibarlı tərəfdaş kimi tanıdır. Beynəlxalq əməkdaşlığın inkişafı Azərbaycanın kosmik sahədə beynəlxalq mövqeyinin gücləndirilməsinə, eyni ilə agentliyimizin texnoloji tərəqqisinə və rəqabətliliyin möhkəmlənməsinə xidmət edir. Azərkosmos Beynəlxalq Astronavtika Federasiyası (İAF), BMT Qlobal Sazişlər Təşəbbüsü (UNGC), İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı (İCESCO), Qlobal Peyk Operatorları Təşkilatı (GSOA), Asiya Sakit Okean Peyk Agentlikləri (APRSAF) və digər nüfuzlu təşkilatlarda ölkəmizi təmsil edir.

Hazırda üstünlük verdiyimiz əsas əməkdaşlıq istiqamətləri arasında peyk texnologiyalarının birgə hazırlanması, yerüstü peyk idarəetmə infrastrukturun təkmilləşdirilməsi, gənc kadr potensialının artırılması, peyk məlumatların elmi və iqtisadi istifadəsinin genişləndirilməsi məsələləri yer alır.

***– Azərkosmos vasitəsilə peyk missiyaları və texnoloji tədqiqatlar genişlənir. Bu sahədə birgə tədbir və layihələrin həyata keçirilməsi, elmi mübadilə və yeni tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi necə aparılır?***

– Azərkosmos hazırda yeni nəsil peyk proqramı, KOSMİK Akademiya təşəbbüsləri və beynəlxalq layihələr üzərində çalışır. Növbəti illərdə Peyk İstehsal Mərkəzinin yaradılması və Azərbaycanda ilk yüksək standartlara cavab verən peykin hazırlanması nəzərdə tutulur. Lakin məqsəd yalnız texnoloji inkişaf deyil, həm də elmi-tədqiqat potensialının artırılması və beynəlxalq bilik paylaşımıdır. Bildiyiniz kimi, ötən il Azərbaycanda və bu il Bəhreyn Krallığında, Azərkosmos və ICESCO tərəfindən təsis edilən “Kosmik Tibbin Əsasları” adlı ilk elmi-praktiki təlim təşkil edilmişdi.

Təlim proqramı mikroqravitasiya şəraitində səhiyyə praktikası, kosmosda cərrahiyyə və fizioloji dəyişikliklər kimi mövzuları əhatə etmişdir. Azərkosmos bu kimi layihələrlə ölkədə insan kapitalının inkişafına, kosmik sahədə bilikli kadrların yetişməsinə investisiya qoyur. Qadınların kosmos sektorunda fəallığını artırmaq üçün də addımlar atılır. 2024-cü ildən etibarən Azərkosmos və Space Commerce Institute birgə “Women in Space” adlı üç aylıq mentorluq proqramı həyata keçirir. Bu proqram gənc qadınlara kosmik sənayedə karyera yolunda dəstək olmağı və onların qlobal əməkdaşlıqlarda iştirakını təşviq etməyi hədəfləyir.

Qeyd etmək lazımdır ki, Azərkosmos hər il Yerin məsafədən müşahidəsi üzrə müsabiqəsi də keçirir. Məqsəd Azersky peykindən alınan arxiv təsvirləri və digər peyk məlumatlarının daha geniş istifadəsini təşviq etmək, bu sahədə elmi-tədqiqat layihələrini dəstəkləməkdir. İqtisadiyyatın müxtəlif sektorlarını əhatə edən sahələr arasında kənd təsərrüfatı, ekologiya və iqlim dəyişikliyi, şəhərsalma və əmlak məsələləri, fövqəladə hallar, turizm və digər sahələr yer alır. Beləliklə, Azərkosmos gənc alim və mütəxəssislərin peyk məlumatları ilə işləyərək yeni ideyalar irəli sürməsini və karyera bacarıqlarını artırmasını da stimullaşdırır.

KOSMİK Akademiya ilə Braziliyanın “Idea Space” arasında mövcud əməkdaşlıq sayəsində azərbaycanlı məktəblilər tərəfindən “PocketCube” adlı peykin hazırlanması və yaxın zamanda “Space X” şirkətinin raketi vasitəsilə orbitə buraxılması planlaşdırılır. Onu da vurğulayım ki, bu təşəbbüs Zəfərimizin 5 illiyinə həsr olunacaq.

Uzun müddətdir ki, Azərkosmos yerin məsafədən müşahidəsini həyata keçirir və bunun nəticəsində onlarla həll və məhsullar inkişaf etdirilmişdir. Peyk texnologiyaların sənaye inqilabına verdiyi töhfəni nəzərə alaraq düşünürəm ki, bu sahə üzrə məhsul və həllərin tətbiqi gələcəkdə daha da artacaq.

***Hazırladı:***
***Mustafa KAMAL***
***XQ***

# ICESCO simpoziumunda Azərbaycan multikulturalizmi modelinin təqdimatı





**“Beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsində BMT-nin Sivilizasiyalar Alyansının rolunun aktivləşdirilməsi” mövzusunda Tunis Beynəlxalq Simpoziumunda Azərbaycan multikulturalizmi barədə “Azərbaycan modeli və sivilizasiyaların dialoqu” mövzusunda məruzə dinlənilib.**

Bakı Beynəlxalq Multikulturalizm Layihələr Şöbəsinin müdiri dosent İrina Kuninanın təqdimatında diqqətə çatdırılıb ki, Azərbaycanın multikulturalizm modeli multikultural dəyərlər, dini dözümlülük və sivilizasiyalararası dialoqun qorunması baxımından dünyada nümunəvi təcrübə kimi qəbul olunur. Azərbaycan tarixi boyunca müxtəlif etnik və dini icmaların sülh və qarşılıqlı hörmət şəraitində birgəyaşayış mədəniyyətini formalaşdırıb və bu ənənə bu gün dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir.

Məruzəçi vurğulayıb ki, Azərbaycan multikulturalizmi yalnız nəzəri deyil, həm də praktik nəticələrə əsaslanan, institusional mexanizmlərlə təmin edilmiş davamlı bir modeldir. Ölkədə müxtəlif dinlərin ibadət yerlərinin qorunması, milli-mədəni irsin bərpası, dini zəmində ayrı-seçkiliyə yol verilməməsi və müxtəlif icmaların dövlət tərəfindən dəstəklənməsi bu modelin əsas elementlərindəndir.

BBMM-in fəaliyyətindən də bəhs edən şöbə müdiri bildirib ki, mərkəzin həyata keçirdiyi müxtəlif beynəlxalq layihələr, o cümlədən xarici ölkə universitetlərində “Azərbaycan multikulturalizmi” fənninin tədrisi, gənclər üçün dialoq təşəbbüsləri, dini-etnik icmaların nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlər sivilizasiyalararası dialoqun institusional əsaslarının möhkəmləndirilməsinə mühüm töhfə verir.

Xatırladaq ki, beynəlxalq simpoziumu İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) Xarici İşlər, Miqrasiya və Xaricdə Yaşayan Tunislilər Nazirliyi və BMT-nin Sivilizasiyalar Alyansı ilə tərəfdaşlıq çərçivəsində təşkil edib. Simpoziumun açılış mərasimində bir neçə nazir və yüksək vəzifəli şəxs, üzv dövlətlərin səfirləri, beynəlxalq və regional təşkilatların nümayəndələri, eləcə də dünyanın müxtəlif ölkələrindən olan ekspertlər və mütəxəssislər iştirak edib.

Simpozium zamanı müzakirələrdə iştirakçılar Alyansın 5 sütununa - təhsil, media, miqrasiya, qadınların səlahiyyətləndirilməsi və gənclərin roluna xüsusi diqqət yetirərək sivilizasiyalararası dialoqun üzləşdiyi ən aktual problemlərə toxunublar. Onlar qarşılıqlı anlaşma dəyərlərini möhkəmləndirmək və cəmiyyətlərin nifrət çıxışları və bölünməyə qarşı mübarizə aparmaq imkanlarını artırmaq üçün innovativ mexanizmlərin hazırlanmasının zəruriliyini vurğulayıblar.

***T.RÜSTƏMLİ***
***XQ***

# Azərbaycan COP30-da fəal iqlim diplomatiyasını davam etdirir

**COP30 çərçivəsində Azərbaycan Braziliyaya sədrlik hüququnu təhvil verməsinə baxmayaraq, iqlim diplomatiyasında fəal iştirakını qlobal sferada sərgiləyir. COP29-un uğurlu nəticələri fonunda ölkəmiz qlobal iqlim təşəbbüslərində etimadlı tərəfdaş kimi tanınıb və Braziliyanın xahişi ilə bu konfransın vacib missiyaları Azərbaycana həvalə olunub.**




COP29-da qəbul edilmiş "Bakı Maliyyə Hədəfi" əsasında Azərbaycan və Braziliya COP29-COP30 sədrliyi kimi "Bakıdan Beléma Yol Xəritəsi"ni hazırlayıb. Bu sənəd inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər ildə ən azı 1,3 trilyon ABŞ dolları iqlim maliyyəsinin təmin olunması üçün strateji addımları müəyyənləşdirir. Yol xəritəsi əsasən 5 prioritet sahəni (5R) hədəfləyir ki, bunlara güzəştli kreditlər, sosial məsuliyyət, özəl investisiyaların cəlbi və ədalətli maliyyə axını daxildir. Bu təşəbbüsə görə tərəflər hesab edirlər ki, real investisiyaların sürətləndirilməsi ilə, eyni zamanda, yeni iş yerləri yaradılacaq, icmalar güclənəcək və davamlı iqtisadi tərəqqi təmin olunacaq.

Xatırladaq ki, COP29 konfransı iqlim məsələlərində tarixi yeniliyə imza atdı. Paris Sazişinin illərdir işlək olmayan 6-cı maddəsi ilk dəfə tam şəkildə razılaşdırıldı. Bu irəliləyiş konfransın ən vacib nailiyyətlərindən biri olaraq diqqət çəkir. COP29 Sədrliyinin prioritetləri sırasında olan bu məsələ ilə bağlı yekdil razılığın əldə edilməsi iqlim maliyyəsi və karbon bazarlarının daha şəffaf və effektiv idarə olunması üçün əhəmiyyətli zəmin yaratdı. Ətraf mühiti qorumağa yönəlmiş bu qərarlar, qlobal emissiya azalmasının tənzimlənməsi və karbon bazarlarının gücləndirilməsi baxımından yeni perspektivlər açır. Belə ki, 6-cı maddə çərçivəsində yaradılan mexanizmlər bir ölkədə emissiyaların azaldılmasının karbon bazarları vasitəsilə başqa dövlətlərdəki emissiyaları tarazlaşdırmasını mümkün edir.

COP30 çərçivəsində də Azərbaycanın müstəsna rolunu görmək mümkündür. Belə ki, Braziliya rəhbərliyinin tövsiyəsi ilə Azərbaycana COP31 konfransının ev sahibliyinin müəyyənləşdirilməsi üzrə danışıqları aparmaq və Paris Sazişinin Gəlir Qiymətləndirmə İcmalı (Global Stocktake – GST) sənədini razılaşdırmaq kimi iki prioritet üzərində işləmək səlahiyyəti verilib. Beləliklə, Azərbaycan XİN-in müavini Yalçın Rəfiyev COP31-ə ev sahibliyi məsələsində, NATO-nun xüsusi səfiri Maurisio Lyrio isə paralel danışıqlarda aparıcı rol oynayır. COP30-un ən vacib nəticələrindən sayılan GST sənədinin müzakirələrinə isə Azərbaycan və Norveç nümayəndələri birgə rəhbərlik edir – bu məsələdə Azərbaycanın sədri Yalçın Rəfiyev və Norveçin iqlim naziri Andreas Eriksen təyin olunub.

Azərbaycanın təşəbbüsləri iqlim maliyyə sistemində ədaləti, məsuliyyəti və şəffaflığı ön plana çıxarır. Məsələn, COP29-da razılaşdırılmış "Bakı Maliyyə Hədəfi" yeni maliyyə fazasının başlanğıcını qoymuş, COP30 müzakirələrinə isə yalnız maliyyə deyil, həm də ədalət və məsuliyyət prinsipləri ilə yanaşılmasını təmin edəcək. Belə yanaşma çərçivəsində iqlim fondu mənbələri ədalətli paylanacaq, Qlobal Cənub ölkələrinin ehtiyacları hesabına maliyyə axınının çevikliyi artırılacaq. Bununla yanaşı, qaz emissiyaları ilə mübarizədə Azərbaycanın siyasi liderliyi kimi addımlar gələcəkdə "yaşıl texnologiya"lar və energetika sektoruna investisiyaları da artıracaq.

COP30-da müzakirə edilən "Bakıdan Beléma Yol Xəritəsi" qlobal iqtisadi sistemdə transformasiyaya üstünlük verir. Bu, təmiz enerji sektoruna investisiyaların artırılması, kənd təsərrüfatında "yaşıl texnologiya"ların tətbiqi və iqlim təsirlərinə uyğun infrastrukturun inkişaf etdirilməsi deməkdir. Yəni iqlim sahəsində atılan addımlar iqtisadi artımı dəstəkləyir – məsələn, yol xəritəsinin təsdiqiylə 2035-ci ildə 1.3 trilyon dollarlıq yeni bazar açılaraq dayanıqlı sənaye və xidmətlər sahəsində minlərlə yeni iş yeri yaradılacaq.

Azərbaycanın bu sahədəki fəallığı, korporativ iqlim diplomatiyası, yaradıcı təşəbbüsləri və qlobal layihələrə verdiyi töhfələr dünya liderləri tərəfindən yüksək qiymətləndirilir. COP30 çərçivəsindəki uğurlar həm ölkəmizin iqlim siyasətində nüfuzunu artırır, həm də bütün üzv dövlətlər üçün iqtisadi və ekoloji olaraq fayda gətirəcək strateji nəticələrin əldə edilməsinə zəmin yaradır.

Qeyd edək ki, Belemdə konfransın açılışında təqdim edilən PAS – Çoxtərəfli İdarəetmənin Sürətləndirilməsi Planı və CHAMP – Yüksək Ambisiyalı Tərəfdaşlıq Koalisiyası yeni iqlim yanaşmasını ortaya qoydu.

"Beat the Heat" adlı beynəlxalq platformanın 185 şəhərdə istilik dalğalarına qarşı mübarizə planı iqlim dəyişikliklərinin ən real və hissolunan fəsadlarına birbaşa cavabdır. Elan olunan 20 milyard dollarlıq regional investisiya paketi isə su ehtiyatlarının qorunması üzrə aparılacaq işlərin miqyasını önə çıxarır. Eyni zamanda, "Near-Zero and Resilient Buildings" və "NOW" adlı beynəlxalq yanaşmalarla daha dayanıqlı şəhər infrastrukturuna keçid sürətlənir. 400-dən artıq yeni təşəbbüsün gündəmə gətirilməsi COP30-un sadəcə konseptual müzakirələr yox, icrayönümlü konkret addımlar üçün qlobal meydan olduğunu açıq şəkildə nümayiş etdirir.

*Nurlan ABDALOV*
*XQ*

### *Ekspert rəyi*



**Ceyran BƏBİROVA,
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji planlaşdırma şöbəsinin aparıcı məsləhətçisi**

Braziliyanın Belem şəhərində keçirilən COP30 tədbiri 2024-cü ildə Bakıda keçirilmiş COP29-un simvolik və məzmun baxımından məntiqi ardıcıllığıdır. COP29 iqlim maliyyəsinin gələcək arxitekturasını müəyyənləşdirən ən həlledici qərarların qəbul olunduğu mərhələ olubsa, COP30 həmin çərçivələrin real tətbiqinə yönəlmiş icra platforması rolunu oynayır. Bu proses "Hər icranın arxasında bir qərar, hər qərarın arxasında isə bir liderlik dayanır" prinsipini bir daha təsdiqləyir.

Bakıda ilk dəfə olaraq inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında maliyyə, məsuliyyət və əməkdaşlıq balansının yenidən qurulması, əslində COP prosesində uzun illərdir mövcud olan boşluğu dolduran dönüş nöqtəsi oldu. Bu, təkcə iqlim maliyyəsinin həcmi ilə bağlı məsələ deyildi – Bakı modeli ölkələr arasında öhdəliklərin necə paylaşılacağı, maliyyə axınlarının hansı prinsiplərlə yönləndiriləcəyi və qlobal iqlim fəaliyyətində kimin hansı məsuliyyəti daşıyacağına dair yeni və daha ədalətli mexanizm formalaşdırdı.

COP29 çərçivəsində qlobal həmrəylik görünməmiş səviyyədə gücləndi: 130-dan çox ölkə COP29 naminə Birgə Atəşkəs Çağırışını, 90-dan çox hökumət və 1,000-dən çox təşkilat isə COP29 Yaşıl Rəqəmsal Fəaliyyət Bəyannaməsini imzaladı.

Konfransın ən mühüm nəticələrindən biri inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər iqlim maliyyəsinin illik ən azı 1.3 trilyon dollara çatdırılması hədəfinin müəyyən edilməsidir. Bununla yanaşı, iqlim maliyyəsi tarixində ilk dəfə olaraq konkret rəqəm üzərində razılıq əldə olundu və Yeni Kollektiv Kəmiyyət Hədəfi əvvəlki öhdəliklərlə müqayisədə üç dəfə artırılaraq yeni qlobal standart kimi təsbit edildi. Belemdə ortaya qoyulan bütün yeni layihələr, adaptasiya təşəbbüsləri, şəhər siyasətləri və regional proqramlar məhz Bakıda müəyyənləşdirilmiş bu balansın üzərində qurulur. Yəni COP30-un fəaliyyət mərhələsi, mahiyyətcə, COP29-un yaratdığı siyasi və maliyyə arxitekturasının praktik tətbiqidir.

Məhz buna görə "Bakıdan Belemə gedən yol" sadəcə iki COP konfransı arasındakı keçid deyil, qlobal iqlim prosesinin özündə qərardan icraya keçidi simvolizə edir. Belemdə artıq icra mərhələsi başlayıb, yəni ölkələr konkret layihələr, şəhər siyasətləri, adaptasiya proqramları və texnoloji həllər üzərində işləyirlər. Bakı isə o qərarların verildiyi yer idi, yəni Belemin işə başlaya bilməsi üçün lazım olan qlobal razılaşmalar, maliyyə çərçivəsi və siyasi konturlar COP29-da formalaşdırıldı. Bu baxımdan, COP29-un çəkisi və əhəmiyyəti daha yüksək qiymətləndirilir: Bakı qlobal iqlim prosesində qaydaları müəyyənləşdirdi, Belem isə həmin qaydaların tətbiq olunduğu mərhələni həyata keçirir.

*Beynəlxalq həyat*

# Tramp yeni sülh planını təsdiqləyib

**ABŞ-ın hazırladığı sülh planı Ukraynanın "öz ərazisinin bir hissəsini Rusiyaya icarəyə verməyə məcbur ola biləcəyini" nəzərdə tutur. Bunu "The Telegraph" qəzeti iddia edib. Qəzetin mənbələrinə görə, Kiyev Donbas üzərindəki "nəzarəti təhvil verəcək", lakin Moskva "regiona faktiki nəzarət müqabilində icarə haqqı ödəməli olacaq". Ukrayna hökuməti belə bir planla razılaşmayacağını bildirib.**




Qəzet yazır ki, ABŞ administrasiyasının təklif etdiyi razılaşmaya əsasən, Donbasın "hüquqi mülkiyyəti" yenə də Ukraynaya məxsus qalacaq. Bunun əvəzində Rusiya "Ukraynanın öz torpaqlarına çıxışı itirməsi ilə bağlı yaranan maliyyə itkilərini kompensasiya etmək üçün torpaq vergisi tipli ödəniş etməli olacaq". "İcarə haqqının" məbləği göstərilmir. Qəzet xatırladır ki, Ukrayna konstitusiyasına görə, ərazi ötürülməsi məsələsi ümumxalq səsverməsinə çıxarılmalıdır. Lakin bu tələbi "icarə müqaviləsi" bağlamaqla aradan qaldırmaq mümkündür. "The Telegraph" qəzetinin mənbələri iddia edirlər ki, Ağ Ev Ukrayna prezidenti Volodimir Zelenskidən bu plana razılıq verməsini istəyib.

Xatırladaq ki, bu həftə KİV-də ABŞ-ın Ukrayna münaqişəsinin dayandırılması üçün yeni plan hazırladığı barədə məlumatlar yayılıb. "Axios"un yazdığına görə, plan 28 bənddən ibarətdir və onun üzərində ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiv Uitkoff çalışır. O artıq Rusiyanın prezidentinin xüsusi nümayəndəsi Kirill Dmitriyevlə məsələni müzakirə edib. Moskva və Vaşinqtonun plan üzərində birgə işlədiklərini "Financial Times" da təsdiqləyib.

Ancaq Volodimir Zelenski Vaşinqtonun yeni planını müsbət qarşılamayıb. "Financial Times" qəzetinin məlumatına görə, Kiyev planı rədd edərək bildirib ki, təkliflər "Kremlin maksimalist tələblərinə tam uyğundur". Məlumat sızmalarına görə, ABŞ Ukraynaya Donbasdan bütün qoşunlarını geri çəkməyi, ordunun sayını azaltmağı, ölkədə xarici hərbi kontingentin yerləşdirilməsi imkanından və Qərbdən uzaqmənzilli silahlar almaq hüququndan imtina etməyi, rus dilini yenidən dövlət dili statusuna qaytarmağı və Ukrayna Pravoslav Kilsəsinin hüquqlarını bərpa etməyi təklif edir.

ABŞ mediası 19 noyabr axşamı Prezident Donald Trampın bu planı dəstəklədiyi barədə ardıcıl məlumatlar yayıb. Bu xəbərlər barədə prezident Zelenski Ankarada, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüş zamanı məlumat alıb. V. Zelenski bildirib ki, Ukrayna "müharibəni bitirmək üçün Trampın hər bir güclü və ədalətli təklifini" dəstəkləyir. Lakin ümumi təəssürat belədir ki, Vaşinqtonun indiki təkliflərini Zelenski nə "güclü", nə də "ədalətli" hesab edir.

Qərb mediası, həmçinin yazır ki, Zelenski Trampın yeni planını rədd edib və Avropa tərəfindən dəstəklənən öz planını irəli sürüb. "Əsas odur ki, bütün tərəfdaşlarımızla koordinasiyalı şəkildə işləyək və ABŞ liderliyi öz qüvvəsində qalsın", - deyə Zelenski bildirib. O, danışıqlarda Avropa müttəfiqlərinin də masada olmasının vacib olduğunu vurğulayıb. Məlumatlara görə, sənəd bu həftə Stiv Uitkoff tərəfindən Kiyevə təqdim edilib. O, bir neçə gün əvvəl Ukrayna Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rustem Umerovla Mayamidə görüşüb. Umerovun planla bağlı mövqeyi barədə ziddiyyətli məlumatlar yayılıb: bəziləri onun təklifləri qəbul etdiyini, digərləri isə müəyyən bəndləri rədd etdiyini bildirir. V.Zelenski isə planı əsaslı şəkildə qəbulolunmaz saydığı üçün Uitkoffla noyabrın 19-da Ankarada nəzərdə tutulan görüş ləğv olunub. "Axios" yazır ki, görüş "Umerovla əldə olunmuş razılaşmalardan Zelenskinin geri çəkildiyi aydınlaşdıqdan sonra" təxirə salınıb.

Moskvanın planın hazırlanmasında rolu barədə məlumatlar da ziddiyyətlidir. Axios yazır ki, Uitkoff planı Rusiyanın prezidentinin xüsusi nümayəndəsi Kirill Dmitriyevlə müzakirə edib. "NBC News" isə Ağ Evdəki mənbəyə istinadən bildirir ki, Moskva prosesdə birbaşa iştirak edib. Sənəd "son həftələr gizli şəkildə, Rusiya nümayəndəsi Kirill Dmitriyev və ukraynalı rəsmilərlə məsləhətləşmələr əsasında hazırlanıb". Lakin Ukrayna mənbələri, o cümlədən "NBC News" tərəfindən anonim sitat gətirilən rəsmilər iddia edirlər ki, onlar planın hazırlanmasında iştirak etməyiblər: "Ukrayna plana dair yalnız ümumi konturlar barədə məlumatlandırılıb, lakin detallı izah verilməyib və öz şərhlərini bildirməyə dəvət olunmayıb".

ABŞ Dövlət katibi Marko Rubio isə bəyan edib ki, Rusiya və Ukrayna döyüşləri dayandırmaq üçün qarşılıqlı kompromislərə getməlidirlər. O bildirib: "Davamlı sülhə nail olmaq üçün hər iki tərəf çətin, lakin zəruri güzəştlərə getməli olacaq". Rubio əlavə edib ki, ABŞ hakimiyyəti sülh yolu ilə həll üçün təkliflər hazırlamaqda davam edir və Vaşinqton hər iki tərəfin mövqelərini nəzərə almağa çalışır. Onun sözlərinə görə, "Ukraynada aparılan kimi mürəkkəb və ölümcül müharibəni bitirmək üçün ciddi və real ideyaların geniş mübadiləsi tələb olunur".

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# MEDİA və "Euronews"un təlimi başa çatıb





**Medianın İnkişafı Agentliyi və "Euronews" telekanalının birgə təşəbbüsü ilə keçirilən "Euronews Academy" beynəlxalq tədris proqramı çərçivəsində noyabrın 17-20-də davam edən "Rəqəmsal Jurnalistika ("Digital Journalism")" mövzusunda növbəti təlim modulu başa çatıb.**

Agentlikdən bildirilib ki, təlimin ilk iki günündə "Euronews" telekanalının tanınmış mütəxəssisi, 14 ildən artıq beynəlxalq təcrübəyə malik multimedia jurnalisti Tuba Altunkaya tərəfindən "Rəqəmsal xəbər toplanması və məlumat əsaslı jurnalistika" mövzusunda təlim keçirilib. Təlim zamanı iştirakçılara rəqəmsal mühitdə informasiya toplama, faktların yoxlanılması və analitik təqdimat üsulları barədə geniş məlumat verilib.

Proqramın üçüncü günü "Sosial media və "YouTube" kanallarının idarə olunması" mövzusuna həsr edilib. "Euronews"un Yunan xidməti və "Euronews" Daşkənd Bürosunun rəhbəri Akis Tatsis rəqəmsal platformalarda kontent strategiyasının qurulması, paylaşımların effektivliyinin artırılması barədə iştirakçıları məlumatlandırıb.

Təlim proqramının son günündə isə A.Tatsis "Mobil jurnalistika" mövzusu çərçivəsində iştirakçılara mobil telefon vasitəsilə operativ çəkilişin aparılması, kompozisiya və işıqlandırma üzrə düzgün yanaşmalar, səsin keyfiyyətli yazılması, eləcə də foto və videoformatlı materialların mobil redaktə alətləri vasitəsilə işlənməsi qaydalarını izah edib.

*XQ*

*Xuntaçıların məhkəməsi*

# Erməni hərbçilərin cinayətləri sübuta yetirilir



**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi noyabrın 20-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) zərərçəkmiş şəxslərin ifadələri dinlənilib. Anar Cəfərov və Rəşad Abbasov bildiriblər ki, Ağdam rayonunun Mərzili kəndi istiqamətində minaya düşüb və partlayış nəticəsində müxtəlif xəsarətlər alıblar.

Feyruz Musayev qeyd edib ki, buldozerlə Kəlbəcər rayonunun Zar kəndi yaxınlığında mühəndis işlərini görərkən texnika düşmən tərəfindən pulemyot silahlardan atəşə tutulub. Özü xəsarət almasa da, texnika yararsız hala düşüb. İsrail Babayev isə bildirib ki, o, Kəlbəcər-Zod istiqamətində düşmən təxribatı nəticəsində yaralanıb.

Səfər Qasımov qeyd edib ki, Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılan atəşlər nəticəsində bir neçə nəfər həlak olub. Eyni zamanda o, Kamal Cavadlı, Nemət Bağırov, Əmrah Hacızadə və daha bir neçə nəfər müxtəlif bədən xəsarətləri alıb. Elgün Talıbov bildirib ki, Ağdərə rayonunun Çərəktar kəndi ərazisində o və Rövşən Mustafayev yaralanıb. Müzamil Orucov da qeyd edib ki, Kəlbəcər rayonu ərazisində xəsarət alıb.

Zərərçəkmişlər Maarif Abbasov, Ramiq Həsənov və Rüstəm Rüstəmli ifadələrində bildiriblər ki, onlar Xocalı rayonunun Dağyurd kəndi ərazisində düşmənin təxribatı nəticəsində xəsarət alıblar. M.Abbasov diqqətə çatdırıb ki, M.Kərimov, R.Həsənov da yaralanıblar, S.Heybətov isə həlak olub.

Vüsal Abbasov qeyd edib ki, düşmənin Xankəndi şəhərindən açdığı snayper atəşi nəticəsində ayağından xəsarət alıb. Fəqan Vəliyev bildirib ki, Ağdam rayonu ərazisində tibbi yardım maşınının düşmən tərəfindən raket mərmisi ilə vurulması nəticəsində yaralanıb. Əhliyar Muradov qeyd edib ki, Ağdam rayonunda minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində yaralanıb.

Elyas Məmmədli bildirib ki, Xocalı rayonunun Xanabad kəndi ərazisində o, Nazim Ağayev və Rəşmi Hümmətov müxtəlif bədən xəsarətləri alıblar. Coşqun Nəsirov qeyd edib ki, Xocalı rayonunun Xanabad kəndi ərazisində o və Elgün İsmayıllı yaralanıblar.

Eldar Hüseynov bildirib ki, Xocalıda Fərrux dağı istiqamətində özü daxil olmaqla, bir neçə şəxs yaralanıb, daha bir neçə nəfər isə həlak olub. Racib Şükürov isə qeyd edib ki, Xocalı rayonunun Xanabad kəndi ərazisində o, Xəqani Quliyev və Turan Həsənli xəsarətlər alıblar.

Məhkəmə prosesi sənədlərin və cinayət işi materiallarında olan digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası noyabrın 21-nə təyin olunub.

*XQ*





Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 247 (30941) 21 noyabr 2025-ci il, cümə

## İDMAN

### Naxçıvanda “Zəfər kuboku”



**Dünən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşları arasında 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbənin 5-ci ildönümünə həsr olunmuş “Zəfər kuboku” uğrunda voleybol turniri start götürüb.**

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Voleybol Federasiyasının Naxçıvan filialı tərəfindən birgə təşkil olunan yarış 5 turdan ibarətdir.

A və B qruplarında ümumilikdə 10 komanda mübarizə aparır. A qrupunda Naxçıvan Şəhər İcra Hakimiyyəti, Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi, Mədəniyyət Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və İqtisadiyyat Nazirliyinin komandaları yer alıb. B qrupunda isə Naxçıvan Regional “ASAN Xidmət” Mərkəzi, Ali Məhkəmə, Gənclər və İdman Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivləri mübarizə aparırlar.

Qeyd edək ki, qruplarda ilk iki yeri tutacaq komandalar yarımfinalda iştirak hüququ əldə edəcəklər.

### 3x3 basketbol millimiz üçqat çempiondur



**VI İslam Həmrəyliyi Oyunlarında iştirak edən Azərbaycanın qadın 3x3 basketbol komandası yarışları uğurla başa vurub.**

Basketbolçularımız finalda qardaş Türkiyə komandasını 21–13 hesabı ilə məğlub edərək Oyunların qızıl medalını qazanıblar. Bu nəticə ilə millimiz çempionluq titulunu qoruyub. Xatırladaq ki, komandamız 2017 və 2022-ci illərdə də İslam Həmrəyliyi Oyunlarının qalibi olub və bu nəticə ilə üçüncü dəfə ardıcıl olaraq tarixi nəticəyə imza atıb.

### Qılıncoynadanlarımızın İslamiada qızılı



**Dünən Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında qılıncoynatma yarışlarına yekun vurulub. Sablya növü üzrə qadınların komanda yarışında yarımfinalda Türkiyə millisinə 45:32 hesabı ilə qalib gələn Zərifə Hüseynova, Səbinə Kərimova və Palina Kaspiaroviçdən ibarət komandamız final qarşılaşmasında Özbəkistan yığmasını 45:43 hesab ilə məğlub edərək qızıl medal qazanıb.**

Xədicə Həsənli, Aynur Quliyeva və Nazilə Rəhimovadan ibarət qılıncoynatmanın şpaqa növü üzrə qadınlardan ibarət millimiz isə komanda yarışında 1/4 finalda BƏƏ yığmasına 45:29 hesabı ilə qalib gəlib. Gərgin keçən yarımfinal görüşündə Özbəkistan komandasına 38:39 hesabı ilə uduzan qadın şpaqaçılarımız bürünc medal qazanıb.

Daha öncə Vahab Fətullayev kişi şpaqaçıların, Palina Kaspiaroviç isə qadın sablyaçıların şəxsi yarışında bürünc medal qazanmışdılar.

*Qabil YUSİFOĞLU*
*XQ*

---

*✓ Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən Bayramov Məmməd Allahverdi oğlunun adına verilmiş 48/009 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*✓ Astara şəhər sakini Hüseynov İlham Sahib oğlunun adına verilmiş AO seriyalı, 0121952 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.*

---


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### XALQ QƏZETİ

**Abunə yazılışını davam etdirir!**

***Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda, aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:***

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 156 (yüz əlli altı) manat.
6 aylıq – 78 (yetmiş səkkiz) manat.
3 aylıq – 39 (otuz doqquz) manat.
1 aylıq – 13 (on üç) manat.




**Hörmətli abunəçilər!**
**Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.**

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


### Dünya Badminton Federasiyasının parabadminton üzrə texniki seminarına yekun vurulub



**Milli Gimnastika Arenasında 3 gün davam edən Dünya Badminton Federasiyasının (BWF) parabadminton üzrə Texniki Seminarına yekun vurulub. 17-19 noyabr tarixlərini əhatə edən beynəlxalq mərasimdə Avropanın 15-dən çox ölkəsindən 55-ə yaxın nümayəndə, o cümlədən parabadmintonçular və bu idman növü üzrə mütəxəssislər iştirak edib.**

Bağlanış mərasimində çıxış edən Dünya Badminton Federasiyasının rəsmisi Con Şirer, Milli Paralimpiya Komitəsinin prezidenti Hidayət Abdullayev və Azərbaycan Badminton Federasiyasının prezidenti Taleh Ziyadov seminar iştirakçılarını təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar. Sonda seminar iştirakçılarına sertifikatlar təqdim edilib.

*XQ*

---

*Ağrılar və qayğılar*

# Ailə – uşaqların xoşbəxtlik yuvası

**Xoşbəxt ailə tabloları, gülümsəyən üzlər, gül dəstələri, sevgi etirafları... Ailə hər birimiz üçün fərqli mənalar daşısa da, bütövlükdə, önəmli ictimai dəyərdir. Azərbaycan Respublikasının Ailə Məcəlləsində də göstərildiyi kimi, ailə anlayışı qarşılıqlı məhəbbət, dostluq, hörmət, uşaqların tərbiyəsi, hərtərəfli inkişafı və xoşbəxtlik prinsiplərinə əsaslanır.**

Ailə haqqında düşüncələr fərqli ola bilər, amma ümumilikdə cəmiyyətin özəyi olan bu vahidlər bir-birinə dəyər verən və ortaq həyatı paylaşan insanların birgə yaşayışıdır. 18 yaşa qədər olan uşaqların ailə anlayışı onların yaşı, psixoloji inkişaf səviyyəsi və ailə münasibətlərinin təsiri ilə dəyişir. Onlar üçün ailə təhlükəsizlik, sevgi, qayğı, başa düşülmə və dəstək məkandır.

Kiçikyaşlı uşaqlar ailəni bəsləmək, yemək, əzizlənmək kimi görürlər. Böyüdükcə onlar doğma və yaxınlarının davranışına, ailədaxili münasibətlərə daha düşünərək yanaşır, onlardan həssaslıq gözləyirlər. Bu baxımdan, bir şagirdin sosial şəbəkədə paylaşdığı və çoxlarının marağına səbəb olan “Mən telefon olmaq istəyirəm, onda valideyinlərim mənimlə daha çox vaxt keçirərlər” arzusu düşündürücüdür.

Belə hallar bir daha göstərir ki, uşaqların ailəyə baxışı yaş səviyyəsinə, yaşam tərzinə və ailədəki mühitə görə fərqlidir. Ailə onlar üçün düyğu-düşüncələrini bölüşdükləri, daim dəstək aldıqları doğma məkandır. Eyni zamanda, ailə uşaqların hər bir ehtiyaclarını qarşılayan, sevgi və əyləncə ilə dolu bir dünyadır.

### Ailənin ağrıları və qayğıları

“Bütün xoşbəxt ailələr bir-birinə bənzəyir, hər bədbəxt ailə isə özünəməxsus şəkildə bədbəxtdir". Lev Tolstoyun bu müdrik kəlamı xoşbəxtliyin təməlində oxşar dəyərlərin - ailə üzvlərinin bir-birinə olan qarşılıqlı sevgi, hörmət, güvən, anlayış, dəstək və səmimi ünsiyyətin dayandığını, bədbəxtliyin isə müxtəlif səbəblərdən yarandığını vurğulayır. Ailə üzvlərinin bir-birinə olan soyuq, kobud davranışı, fiziki və psixoloji zorakılıq, qorxu mühiti, maddi çətinliklər və bir çox problemlər ailənin möhkəmliyini zəiflədir.

İlk baxışdan bir çox ailələr xoşbəxt görünmək istəsələr də (sosial şəbəkələrdə gülümsər fotolar, birgə keçirilən tədbirlər, istedadlı uşaqlar), bəzən bu xoşbəxtlik illüziyasının altında dərin emosional boşluq, anlaşılmazlıq və daxili münaqişələr yatır. Belə “xoşbəxt” cütlüklər çox vaxt zorakılıqdan tutmuş maddi çətinliklərə qədər ciddi problemlərlə üzləşirlər. Daxildəki ziddiyyətlər isə həm böyüklərə, həm də uşaqlara mənfi təsir göstərir. Belə fəsadların yaranma səbəbləri bu gün hər kəsi narahat edir.

Çox vaxt ailələr daxildəki problemləri gizlətməyə çalışır, qınaqlardan və açıq danışmaqdan çəkinirlər. Səbəb isə boşanma, ailədəki mübahisə və ya psixoloji gərginlikləri hələ də bir çoxlarının ayıb və uğursuzluq kimi qiymətləndirməsidir. Nəticədə yaranan problemlərlə təkbaşına mübarizə aparmalı olurlar. Bu da ən çox uşaqlara təsir edir. Sağlam ailələrdən fərqli olaraq, sağlam görünməyə çalışan ailələrdə böyüyən uşaqlar ciddi fəsadlarla üzləşirlər.

Müasir psixologiya və ailə institutlarında aparılan elmi araşdırmalar göstərir ki, zahirən mükəmməl görünən ailələrdə belə, daxildə emosional repressiya, həddindən artıq nəzarət, empatiya çatışmazlığı halları uşaqların psixososial inkişafına mənfi təsir göstərir. Belə mühitdə böyüyən uşaqlar səmimi hisslərini gizlətməyə və ətrafdakılara uyğunlaşmağa məcbur olurlar.

Zahirən sağlam görünən ailə modelinin psixoloji sağlamlıqla eyni olmadığını sübut edən elmi dəlillər, ailədaxili münasibətlərdə emosional dürüstlük, empatiya və ünsiyyətin vacibliyini diqqətə çəkir. Beynəlxalq aləmdə bu istiqamətdə münasibət son illərdə ciddi şəkildə dəyişib. Bir sıra ölkələrdə uşağın yalnız fiziki deyil, emosional rifahı da qanunla qorunur.

Araşdırmalar göstərir ki, uşaqlara maddi və fiziki təminatla yanaşı, psixoloji dəstək də çox vacibdir. Məsələn, səssiz travmalar konsepsiyası (Silent Trauma) cavabsız qalan, dinlənilməyən, sevgi və dəstək görməyən uşaqların yaşadığı daxili zədələri nəzərdə tutur. Depressiya, həyəcan pozuntuları və özünə inamsızlıq kimi hallar münaqişəli ailələrdə daha çox müşahidə edilir. “Uşaqlara görə hər şeyə dözürəm”, “Əsas odur ki, ailəm dağılmasın” kimi fikirlər ailədaxili problemlərin çözümünü gecikdirir, insanları susmağa məcbur edir və münasibətlərdəki gərginliyi daha da artırır. Halbuki uşaqlar üçün vacib olan sağlam və səmimi bir mühitdə yaşamaqdır.

Ailədəki problemlərin etirafı zəiflik kimi deyil, əksinə, cəsarət və sağlam münasibətin möhkəmlənməsi kimi qəbul olunmalıdır. Psixoloji dəstək, səmimi ünsiyyət və düzgün yanaşma isə bu problemlərin həllində çox vacibdir. Təsəvvür edək ki, ailədə zorakılığa şahid olan bir uşaq kənardan sakit görünsə belə, daxilən böyük stres yaşayır. Bu uşaqlar aqressiv davranışlar nümayiş etdirə və ya əksinə, öz dünyalarına qapanaraq sosial çevrədən uzaqlaşa bilərlər. Bu susqunluq onlarda güvənsizlik və qorxu hissi formalaşdırır, təhsilinə, ünsiyyət qurmasına, eləcə də emosional inkişafına da ciddi təsir edir.



Gərginlik və münaqişə atmosferində böyüyən, real sevgidən, səmimiyyətdən və dürüst münasibətlərdən uzaq, eyni zamanda, müasir texnologiyaların, xüsusilə sosial medianın süni emosiyalar dünyasında yaşamağı öyrənən uşaqlar nəticədə gerçək həyatla virtual aləm arasında sərhədi ayırmaqda çətinlik çəkirlər. Belə olan halda, ailənin dəstəyi, nəzarəti vacib və əsasdır, çünki müasir dövrdə uşaqların inkişafında, sosiallaşmasında, sağlam münasibətlərin qurulmasında valideynlərin də rolu əvəzsizdir. Media da bu mövzulara daha açıq və anlayışlı yanaşmalı, qərəz və qınaqdan uzaq olmalıdır.

Xoşbəxtliyin təkcə görüntü deyil, səmimi münasibət və etibarlı dəstəyə söykəndiyi qəbul edilməlidir. Çünki xoşbəxtlik təqdim olunmalı bir obraz deyil, yaşanmalı bir dəyərdir.

***Sevinc MƏMMƏDOVA,***
***BDU multimedia və elektron kommunikasiya kafedrasının dosenti***

---

## HAVA

### Yağmursuz bir cümə...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər yarımadanın bəzi yerlərində zəif duman olacaq. Cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 10-14, gündüz 17-21 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək – 768 millimetr civə sütunu, nisbi rütubət isə gecə 80-85, gündüz 65-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 5-10, gündüz 17-21, dağlarda gecə 1-6, gündüz 12-17 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

---


### “Göyçay-Avtonəqliyyat” ASC səhmdarlarının nəzərinə!

13 yanvar 2026-cı il saat 15:00-da “Göyçay-Avtonəqliyyat” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

1. Cəmiyyətin illik hesabatının təsdiqi
2. Müşahidə şurası üzvlərinin və sədrinin seçilməsi
3. İdarə heyəti üzvlərinin və sədrinin seçilməsi
4. Yaranmış borc öhdəliklərinin ödənilməsi, həmçinin bəzi tikililərin qəzalı və təhlükəli vəziyyətdə olduğuna görə onların yenilənməsi üçün maliyyə mənbələrinin müəyyən edilməsi.

**Ünvan:** Göyçay şəhəri, M.Müşfiq küçəsi 2.


---

## ALLAH RƏHMƏT ELƏSİN!

Pirallahı rayonundan Vasif İmanov Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanova atası

**FAMİL DÖVLƏTXANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu və məclis üzvləri “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC Həmkarlar İttifaqı Komitəsinin keçmiş sədri, Əməkdar mədəniyyət işçisi

**SƏRHƏD QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---


**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3519
SİFARİŞ 2324
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00